**Hər kəs ədalətli olacaq** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 26 (6168) 17 iyul 2026-cı il | Qiyməti 40 qəpik

# Şuşadan dünyaya mesaj



Bax:səh-2

## *Vilayət Eyvazov Şuşada slovakiyalı həmkarı ilə görüşdü*



**İyulun 14-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Şuşa şəhərində ölkəmizdə səfərdə olan Slovakiya Respublikasının daxili işlər naziri Matuş Şutay-Eştok və rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Adalet.az xəbər verir ki, görüşdə iki ölkənin daxili işlər nazirlikləri arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

V.Eyvazov Daxili İşlər Nazirliyinin fəaliyyət istiqamətləri, ölkədəki kriminogen durum və vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində görülən işlər barədə məlumat verib.

Tərəflər transmilli mütəşəkkil cinayətkarlıq, narkotik və silahların qanunsuz dövriyyəsi, insan alveri, qeyri-leqal miqrasiya və kibercinayətkarlıqla mübarizədə birgə səylərin, müasir texnologiyaların tətbiqinin və operativ informasiya mübadiləsinin əhəmiyyətini vurğulayıblar.

Matuş Şutay-Eştok yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib, əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını qeyd edib. Görüş zamanı nazirlər daxili işlər sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar.

Görüşdə hər iki ölkənin fövqəladə və səlahiyyətli səfirləri də iştirak ediblər.

## DİN çağırış edir



**Kiberdələduzlar saxta internet səhifələri və keçidlər, uduş və hədiyyə vədləri, eləcə də digər cəlbedici təkliflər vasitəsilə vətəndaşların bank kartlarına aid məxfi məlumatları ələ keçirməyə çalışırlar.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyindən məlumat verilib. Bildirilib ki, bank kartının məlumatları, o cümlədən CVV/CVC və əməliyyatların təsdiqi üçün göndərilən 3D Secure OTP kodları məxfidir və heç bir halda digər şəxslərlə paylaşılmamalıdır: "Naməlum keçidlərə daxil olmaqdan, etibarlılığı şübhəli olan internet səhifələrində kart məlumatlarını qeyd etməkdən, şübhəli zəng, mesaj və təkliflərdən çəkinin". Daxili İşlər Nazirliyi vətəndaşları internet resurslarından istifadə zamanı diqqətli və ayıq-sayıq olmağa, bank məlumatlarının təhlükəsizliyini qorumağa çağırır. Kiberdələduzluq halları ilə qarşılaşdıqda dərhal DİN-in "102" Xidməti-Zəng Mərkəzinə və ya Nazirliyin rəsmi sosial şəbəkə hesablarına müraciət edin.

## İSPANLAR FRANSIZLARI MAL TƏZƏYİ KİMİ...

**Ayaqları ilə fırladıb-fırladıb vurdular divara. Bütün proqnoz verənlər, eləcə də süni intellekt Fransanın dünya çempionu olacağını bildirirdilər. İspanlar, proqnoz verənlər cəhənnəm, süni intellekti də darmadağın etdilər.**

Çempionat başlayandan bütün oyunlarda rəqiblərinə xoruzlanan fransızlar İspaniyanın qarşısında heç xoruz yox, çolpa da ola bilmədilər. İspanlar xoruzlanan fransızların lələklərini və tüklərini didik-didik edib toyuq gününə saldılar. Çolpanın yenə atılıb düşməyi var, atılıb-düşə də bilmədilər, toyuq kimi yatdılar.

Məşhur filmdə deyildiyi kimi: "Heç oğlum Yadullanın müsibəti belə olmamışdı". İndi fransızlar da belə müsibət görməmişdi.

## ARGENTİNA İNGİLTƏRƏDƏN...



**Folklend adasının intiqamını aldı. Və Messi sübut elədi ki, 11 ingilis futbolçu bir Messi eləmir. 39 yaşlı bu Futbol Tanrısı sübut elədi ki, İlhamə Quliyeva düz deyirmiş, yaşın nə fərqi var ki? Həm də indi Tofiq Bəhramov da yox idi ki, ingilislərə kömək eləsin.**

Bu oyun həm də onu sübut elədi ki, Argentinanın Misirlə matçını müzakirə edib Argentinanı "neprav" çıxaranların indi özləri "nepravdı".

Həm Argentina-İngiltərə, həm də İspaniya-Fransa oyunlarının şərhçilərinə "əla" düşür.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## BİRLƏŞMİŞ MİLLƏTLƏR ÇAYXANASI...



***Mən neçə ildi heç vaxt Birləşmiş Millətlər Təşkilatı yazmıram, Çayxanası yazıram. Çünki bu təşkilatın heç bir fəaliyyətini ağlım kəsəndən görməmişəm. Çayxana kimi bir yerdi, yığışırlar, qeybət edirlər, bir nəticəsi olmur. Çıxartdıqları qərarları da atırlar zibil yeşiyinə. Necə ki Ermənistan 28 il onun 4 qətnaməsini zibil yeşiyinə atdı.***

***İndi dünya dağılır, Rusiya-Ukrayna iki qardaş xalq bir-birinin qanına yerikləyir. ABŞ on min kilometrdən gəlib İranı bombalayır, İran da hayıfını öz din qardaşlarından - körfəz ölkələrindən çıxır.***

***İsrail Qəzzanı ermənilər vaxtilə Ağdamı nə günə salmışdılarsa o günə salıb. 74 min fələstinli öldürülüb, Birləşmiş Millətlər Çayxanasının vecinə də deyil.***

***Afrika ölkələrinin bir çoxunda hakimiyyət davası uğrunda dinc əhali qalıb ortalıqda, qırılır. Birləşmiş Millətlər Çayxanasının vecinə də deyil.***

***İraq məhv edildi, Suriya parçalandı, yenə də Birləşmiş Millətlər Çayxanası çay içməklə məşğul idi.***

***Çox şeyi saymaq olar, adam yorulur. Bu Çayxanaya üzv olan ölkələr hər il bu Çayxananın yaşaması üçün nə qədər üzvlük haqqı ödəyirlər. Ümumiyyətlə, bu Çayxana lazımdırmı?***

***Əgər indiyə qədər bir yaralı barmağa çiş eləməyibsə...***

***Elə bir sədr qoyublar ki, adını yazmağa qorxuram, birdən ayrı cürə yazaram.***

## GÜNÜN LƏTİFƏSİ

O biri dünyada iki kişi rastlaşır.

Kişi soruşur?

**- Necə oldu ki, öldün?**

O biri kişi cavab verir.

**- Bir gün mənə işdə zəng eləyib deyirlər ki, arvadın sənə xəyanət edir. Mən də işdən çıxıb evə gəlib görürəm ki, evdə heç kim yoxdu. Arvadım yemək bişirir. Sevincdən ürəyim partlayır, ölurəm.**

Bu biri kişi deyir:

**- Kül başına, soyuducunu açsaydın, nə mən öləcəkdim, nə də ki sən.**

# Prezidentin qəbulları



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da "John Deere" şirkətinin MDB və Mərkəzi Asiya ölkələri üzrə prezidenti, "John Deere Walldorf International" MMC-nin Baş icraçı direktoru Çaba Leykonu və şirkətin MDB üzrə vitse-prezidenti Peter Zakseni qəbul edib.**

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb.

Söhbət zamanı dövlətimizin başçısının Çaba Leyko ilə ötən il Bakıda görüşü məmnunluqla xatırlandı.

Qonaqlar ölkəmizdə gördükləri inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını dedilər.

"John Deere" şirkətinin Azərbaycanda uğurlu fəaliyyətinə toxunan Çaba Leyko ölkəmizlə əməkdaşlığı genişləndirilməkdə maraqlı olduqlarını bildirdi.

Görüş əsnasında ölkəmizdə kənd təsərrüfatının geniş potensialının olduğu vurğulandı, bu sahədə müasir texnologiyaların tətbiq edildiyi bildirildi, kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlərə toxunuldu və bu xüsusda qəbul olunmuş yeni Dövlət Proqramının əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycanla "John Deere" şirkəti arasında gələcək əməkdaşlıqla bağlı məsələlər müzakirə edildi, kənd təsərrüfatının bir çox istiqamətləri üzrə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Qeyd edək ki, "John Deere" 1837-ci ildə ABŞ-də yaradılıb. Kənd təsərrüfatı, tikinti və meşəçilik avadanlıqlarının istehsalı sahəsində qlobal miqyasda aparıcı şirkətlərdən biri olan "John Deere"nin 30-dan çox ölkədə zavodları və ofisləri fəaliyyət göstərir.

***

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Fələstin Dövlətinin Baş naziri Məhəmməd Mustafanı qəbul edib.**

Dövlətimizin başçısı Baş nazir Məhəmməd Mustafanın ölkəmizə səfərinin Azərbaycanla Fələstin arasında qardaşlıq münasibətlərinin gücləndirilməsinə töhfə verəcəyinə əminliyini bildirdi.

Azərbaycan Prezidenti ölkəmizin paytaxtı Şərqi Qüds olmaqla, müstəqil və suveren Fələstin dövlətinin yaradılmasını dəstəklədiyini vurğuladı.

Dövlətimizin başçısı ilə görüşməkdən şərəf hissi duyduğunu bildirən Məhəmməd Mustafa Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mahmud Abbasa çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Mahmud Abbasın ölkəmizə səfərini, həmçinin beynəlxalq tədbirlər çərçivəsində onunla görüşlərini məmnunluqla xatırladı.

Məhəmməd Mustafa Fələstində hazırda çətin vəziyyətin hökm sürdüyünü deyərək, bu durumdan dostların köməyi ilə çıxa biləcəklərinə ümidvarlığını ifadə etdi. Bu xüsusda o, Azərbaycanın Fələstinə göstərdiyi dəstəyə, həmçinin humanitar dəstək kimi Fələstində orta məktəbin tikintisi ilə bağlı niyyətə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Söhbət zamanı Ramallah şəhərində Azərbaycanın Təmsilçilik Ofisinin açılması, Fələstinin ölkəmizdəki səfirliyinin xərclərinin isə Azərbaycan dövləti tərəfindən qarşılanması ikitərəfli əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirildi. Görüşdə 2013-cü ildə ölkəmizin ev sahibliyi etdiyi "İslam Maliyyə Təhlükəsizliyi Şəbəkəsinin yaradılmasına dair Konfrans"ın və "Qüds şəhərinin inkişaf etdirilməsi məqsədilə sektor planının maliyyələşdirilməsinə dair Donor ölkələrin Konfransı"nın nəticəsi olaraq Azərbaycanın Fələstinə 5 milyon dollar maliyyə yardımı etməsi xatırlanaraq, ölkəmizin, eyni zamanda, BMT-nin UNRWA təşkilatı vasitəsilə də Fələstinə yardım etdiyi vurğulandı.

"Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" hesabına 23, ümumilikdə isə 37 fələstinli tələbənin Azərbaycanda təhsil alması yüksək qiymətləndirildi.

Baş nazir bunlara görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Söhbət zamanı Fələstinin bəzi kənd təsərrüfatı məhsullarının ölkəmizə güzəştli şərtlərlə ixracı məsələsi müzakirə olundu, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Şuşadan dünyaya mesaj

**Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edərək, sualları cavablandırıb. Dövlət başçısının söylədikləri təkcə media nümayəndələri qarşısında edilən ənənəvi çıxış kimi deyil, həm də Azərbaycanın hazırkı xarici siyasət kursunu, regional prioritetlərini və qlobal proseslərə münasibətini əks etdirən strateji siyasi mesajlar toplusu kimi qiymətləndirilə bilər.**

Forumun "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda keçirilməsi də təsadüfi deyil. Son illərdə beynəlxalq münasibətlər sistemində informasiya müharibələrinin ən az hərbi qarşıdurmalar qədər təsirli olduğu şəraitdə Azərbaycan öz mövqeyini beynəlxalq auditoriyaya birbaşa çatdırmaq üçün məhz Şuşanı siyasi kommunikasiya platformasına çevirir. Bu baxımdan Forum Azərbaycanın yumşaq güc alətlərindən biri kimi çıxış edir.

Prezident İlham Əliyevin çıxışında diqqət çəkən əsas istiqamətlərdən biri Mərkəzi Asiya ilə inteqrasiyanın dərinləşməsi oldu. Dövlət başçısı Mərkəzi Asiya ilə Azərbaycanın artıq vahid iqtisadi və siyasi məkan formalaşdırdığını vurğulayaraq nəqliyyat, logistika və əlaqələndirmə layihələrinin strateji əhəmiyyətini ön plana çıxardı. Əslində bu yanaşma son illərdə Türk Dövlətləri Təşkilatı çərçivəsində formalaşan yeni geosiyasi reallığın davamıdır. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Orta Dəhliz, Bakı-Tbilisi-Qars dəmir yolu və Xəzər üzərindən yükdaşımaların artması Azərbaycanı Avropa ilə Asiya arasında əsas tranzit mərkəzlərindən birinə çevirir. Prezidentin Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin uzaqgörən siyasətini xüsusi qeyd etməsi isə Bakı-Daşkənd strateji tərəfdaşlığının gələcəkdə daha da genişlənəcəyinə işarə kimi qəbul edilə bilər.

Çıxışın digər mühüm istiqaməti Yaxın Şərqdə yaranmış təhlükəli vəziyyətlə bağlı idi. Prezident İlham Əliyev İran və ABŞ-İsrail qarşıdurmasının daha genişmiqyaslı münaqişəyə çevrilməsinin qarşısının alınmasının vacibliyini vurğulayaraq qonşu dövlətləri məsuliyyətli davranmağa çağırdı. Bu çağırış Azərbaycanın uzun illərdir həyata keçirdiyi balanslaşdırılmış xarici siyasətinin davamıdır. Rəsmi Bakı həm İranla qonşuluq münasibətlərini qorumağa, həm də Qərb və İsraillə əməkdaşlığı inkişaf etdirməyə çalışır. Buna



görə də regionda yeni eskalasiyanın baş verməsi Azərbaycanın milli təhlükəsizliyi, enerji layihələri və beynəlxalq nəqliyyat marşrutları üçün ciddi risklər yarada bilər. Prezidentin "bu proses qlobal münaqişəyə çevrilə bilməz" fikri Azərbaycanın müharibədən daha çox diplomatik həll mexanizmlərini dəstəklədiyini bir daha nümayiş etdirdi.

İlham Əliyevin Rusiya-Ukrayna müharibəsi ilə bağlı səsləndirdiyi fikirlər də diqqət çəkən məqamlardan biri idi. Dövlət başçısı müharibənin artıq çoxdan dayandırılmalı olduğunu bildirərək bunu həm Azərbaycanın rəsmi mövqeyi, həm də humanitar yanaşması kimi təqdim etdi. Bu mövqe Bakının son illərdə qorumağa çalışdığı balans siyasətinə tam uyğundur. Azərbaycan həm Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir, həm də Rusiya ilə siyasi və iqtisadi əlaqələri saxlayır. Belə bir mövqenin qorunması regionun mürəkkəb geosiyasi şəraitində Azərbaycanın vasitəçilik imkanlarını və diplomatik manevr qabiliyyətini artıran amillərdən hesab olunur. Forumda səsləndirilən digər mühüm mesaj Avropa təsisatları ilə münasibətlərə aid idi. Prezident Avropa Şurası Parlament Assambleyasının Azərbaycana münasibətdə nümayiş etdirdiyi yanaşmanı tənqid edərək bunun ikili standartların göstəricisi olduğunu bildirdi və Azərbaycanın hətta gələcəkdə Avropa Şurasından çıxmaq məsələsini nəzərdən keçirdiyini qeyd etdi. Bu bəyanat Bakı ilə bəzi Avropa institutları arasında son illərdə yaranmış siyasi gərginliyin davam etdiyini göstərir. Bununla yanaşı, Azərbaycan Avropa İttifaqı ilə enerji, ticarət və nəqliyyat sahələrində əməkdaşlığı davam etdirir. Bu isə onu göstərir ki, rəsmi Bakı Avropa ilə münasibətlərdə tam qarşıdurma deyil, seçici və praqmatik əməkdaşlıq modelinə üstünlük verir.

IV Şuşa Qlobal Media Forumunda "Real TV"nin baş direktoru Mirşahin Ağayev də Azərbaycan Prezidenti İlham Əliyevə sual verib. Jurnalist Azərbaycan Respublikasının yeganə qalib Prezidenti İlham Əliyevin bəşəriyyətə yeni tarixi dönəm üçün müraciətinin nə olduğunu soruşub.

Dövlət başçısı sualın cavabına keçməzdən əvvəl Mirşahin Ağayevin fəaliyyəti ilə bağlı fikirlər səsləndirib:"Sözün düzü, bəşəriyyətə müraciət etmək bir qədər təkəbbürlü olar mənim tərəfimdən. Mən bildiyiniz kimi həmişə çalışmışam ki, təvazökarlığımı itirməyim. Baxmayaraq ki, artıq 23 ilə yaxındır ki, bu kürsüdəyəm və bu illər ərzində Azərbaycan haradan haraya gəlib indi xalqımız da yaxşı bilir, siz də bəlkə də hamıdan yaxşı bilirsiniz. Çünki siz müasir Azərbaycan tarixini, bəlkə də, ən dərindən və yaxından bilən şəxslərdən birisiniz. 90-cı illərin əvvəllərindən, bəlkə də, ondan da qabaq bütün bizim ağrılı dövrlərimiz sizin gözünüzün önündən keçib.

I və II Qarabağ müharibəsini işıqlandırmısınız. Ona görə, bu tarixi yenə də deyirəm Azərbaycanda sizin qədər bilən və Azərbaycan ictimaiyyətinə və dünyaya çatdıran ikinci şəxs çətin ki, tapılsın".

Forumun keçirildiyi məkanın məhz Şuşa olması da ayrıca siyasi məna daşıyır. Azərbaycanın 2020-ci ildən sonra Şuşanı beynəlxalq tədbirlərin əsas mərkəzlərindən birinə çevirməsi ölkənin postmünaqişə dövründə yeni siyasi narrativ formalaşdırmaq cəhdinin tərkib hissəsidir. Burada keçirilən beynəlxalq forumlar, mədəni tədbirlər və media platformaları həm Qarabağın bərpasını nümayiş etdirir, həm də Azərbaycanın bölgə üzərində suverenliyinin beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilməsinə xidmət edir. Dünyanın onlarla ölkəsindən jurnalistlərin və ekspertlərin Şuşada toplaşması da bu kommunikasiya strategiyasının effektivliyini artırır.

**Nəticə etibarilə, IV Şuşa Qlobal Media Forumu yalnız media sahəsinə həsr olunmuş tədbir deyil, Azərbaycanın regional və qlobal siyasətinin əsas istiqamətlərinin beynəlxalq auditoriyaya təqdim edildiyi mühüm siyasi platformadır. Prezident İlham Əliyevin çıxışında Mərkəzi Asiya inteqrasiyası, Orta Dəhlizin inkişafı, Yaxın Şərqdə sülh çağırışı, Rusiya-Ukrayna müharibəsinə münasibət, Avropa institutları ilə əlaqələr və Azərbaycanın informasiya diplomatiyası vahid strateji xətt kimi təqdim olundu. Bu isə göstərir ki, Azərbaycan yaxın illərdə özünü təkcə Cənubi Qafqazın deyil, Avrasiya məkanının mühüm siyasi, logistika və kommunikasiya mərkəzlərindən biri kimi möhkəmləndirməyə çalışacaq.**

**Aqil ABBAS,**
**Milli Məclisin deputatı**

# «Slovakiya ilə Azərbaycan arasında ticarət əməliyyatları həyata keçirilir»

**"Azərbaycan Prezidenti İlham Əliyev və Slovakiya Prezidenti Peter Pelleqrinin mətbuata açıqlamalarında iqtisadi əlaqələrin daha da gücləndirilməsi məsələlərinə də xüsusi yer ayrıldı. Prezidentlərin qeyd etdiyi kimi, ölkələr arasında iqtisadi əməkdaşlığı daha da inkişaf etdirərək şaxələndirmək üçün böyük potensial var. Əsas prioritet qeyri neft-qaz sektoru üzrə dərinləşmiş əməkdaşlığa nail olmaqdır".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, bildirib ki, Azərbaycan ilə Slovakiya arasında illik ticarət dövriyyəsi 2025-ci ildə 42.6 milyon dollar olub: "Slovakiyadan 41.9 milyon dollarlıq məhsul idxal etmişik və sözügedən ölkəyə ixracımız 700 min dollara yaxın olub. Göründüyü kimi, Slovakiya ilə ticarətin əhəmiyyətli hissəsi idxal üzərində qurulub.Bəs, Slovakiyadan hansı məhsulları alırıq və həmin ölkəyə nə satırıq? Slovakiya ilə Azərbaycan arasında 372 məhsul kodu üzrə ticarət əməliyyatları həyata keçirilir. Slovakiyadan idxal etdiyimiz əsas məhsullara gəldikdə isə, minik avtomobilləri, mühərrikinin həcmi 1500-3000 kub sm olan nəqliyyat vasitələri (11 milyon 500 min dollar), mühərrikinin həcmi 3000 kub sm-dən çox olan minik avtomobilləri (7 milyon 583 min dollar), mərkəzi istilik qazanları (3 milyon 673 min dollar), elektrik nəqliyyat vasitələri (2 milyon 420 min dollar), dişlərin təmizlənməsi üçün vasitələr (2 milyon 219 min dollar), kağız və kartondan hazırlanmış qatlanan yeşiklər və qutular (1 milyon 106 min dollar), porşenli daxili yanma mühərriklə yanaşı elektrik mühərriklə də hərəkətə gətirilən nəqliyyat vasitələridir (1 milyon 34 min dollar). Azərbaycanın Slovakiyaya ixracında diqqəti çəkən məqam iş adamlarımızın ötən il sözügedən ölkəyə 47 ədəd minik avtomobilləri, mühərrikinin həcmi 1500-3000 kub sm olan, daxili yanma mühərrikli nəqliyyat vasitələri satmasıdır. Bu məhsul üzrə ticarət məbləği 540 min dollar olub.

Digər ixracatımız isə meyvə şirələri, araq və qida məhsullarıdır. Qarşılıqlı yüksək səviyyəli səfərlərin iki ölkə arasında münasibətlərin daha da dərinləşməsinə səbəb olmaqla yanaşı, qarşılıqlı əlaqələrdə yeni səhifə açağı gözlənilir. Bunun özünü ticarət dövriyyəsində də göstərəcəyi istisna edilmir".

**Vasif ƏLİHÜSEYN**

# Şuşadan dünyaya ortaq gələcək mesajları: Azərbaycan yeni geosiyasi reallıqların mərkəzində

**”Şuşada keçirilən IV Qlobal Media Forumu çox böyük siyasi əhəmiyyət daşıyır. Bu, Qarabağın, xüsusilə də Şuşanın, bir sıra mühüm tədbirlərdən sonra beynəlxalq platformaya çevrilməsi anlamına gəlir. Forumun mövzusu da çox maraqlıdır: ”Sülhün təşviqində medianın missiyası, həqiqətin bərpası və etimadın yenidən qurulması.” Bu mövzunun özü belə dünyaya verilən siyasi mesajdır”.**

Bunu Adalet.az-a açıqlamasında ”Yeni Xətt” Siyasi Tədqiqatlar Mərkəzinin rəhbəri Ramil Hüseynov deyib.

O, deyib ki, bu ideyaları həyata keçirmək, belə siyasi mesajları dünya ictimaiyyətinə çatdırmaq bəşəriyyət üçün mühüm siyasi missiya sayılır:

”Ümumiyyətlə, böyük düşüncələr böyük ideyalar yaradır. Böyük düşüncə isə xalqların və dövlətlərin gələcəyini formalaşdırır. Bu baxımdan Şuşa Qlobal Media Forumu müxtəlif baxışların reallığa çevrildiyi, həqiqətin, etimadın və sülhün təşviq olunduğu beynəlxalq platformaya çevrilib. Burada səsləndirilən hər bir sağlam fikir təkcə bu günə deyil, həm də gələcəyin informasiya təhlükəsizliyinə, dünyada media əməkdaşlığına və qlobal sabitliyə xidmət edən yeni ideyaların əsasını qoyur. Bu tədbirdə çox sayda nüfuzlu media nümayəndələri, ekspertlər və sahə üzrə peşəkarlar iştirak ediblər. Əslində, bu da onu göstərir ki, böyük fikirlərin mayası məhz böyük ideyalardır. Böyük ideyaların ünvanı isə ortaq gələcəkdir”.

R.Hüseynov bildirib ki, bu ortaq gələcəklə bağlı dünyada baş verən proseslərlə bağlı möhtərəm Prezidentimizin səsləndirdiyi siyasi mesajlar xüsusi önəm daşıyır:

”O cümlədən, həqiqət və etimad anlayışlarının səsləndirilməsi forumun mövzusunun əhatə dairəsində yer alır və həqiqətə söykənən təməlin sülhün əsası olduğunu ifadə edən, bu tədbirin mahiyyətini əks etdirən mühüm fikirdir. Böyük düşüncələr sərhəd tanımır. Çünki bu böyük düşüncələrdən yaranan ideyalar bütün dünyanı dialoq və etimad ətrafında birləşdirir. Bu baxımdan, belə bir tədbirin Azərbaycanda keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Vaxtilə Azərbaycanın dünya ilə inteqrasiyası üçün müəyyən addımların atılmasına ehtiyac duyulurdu. Bu gün isə artıq dünyanın Azərbaycanla qarşılıqlı inteqrasiya prosesinin şahidi oluruq. Bu isə bizim üçün böyük siyasi düşüncənin uğurudur. Şuşa Qlobal Media Forumunun əsas siyasi mahiyyəti də məhz burada ortaya çıxır. Bu gün Şuşada təkcə media nümayəndələri toplaşmır. Burada ictimai rəyə təsir edən, qərarların qəbul edilməsinə müəyyən mənada təsir göstərən media rəhbərləri, ekspertlər və analitiklər bir araya gəlirlər. Bu isə təsadüfi proses deyil. Bu, Azərbaycanın artıq beynəlxalq siyasi dialoqun mühüm platformalarından birinə çevrildiyini göstərən reallıqdır”.




Onun sözlərinə görə, Prezident İlham Əliyevin çıxışında diqqət çəkən əsas məqamlardan biri də Azərbaycanın artan geosiyasi çəkisi ilə bağlı idi:

”Dövlət başçısının vurğuladığı ”orta güc” anlayışı əslində Azərbaycanın özünə verdiyi qiymət deyil, beynəlxalq siyasi sistemin ölkəmizə münasibətinin ifadəsidir. Müasir dövrdə dövlətin gücü təkcə iqtisadi və ya hərbi potensialla ölçülmür. Əsas meyar beynəlxalq proseslərə təsir etmək, milli maraqları qətiyyətlə müdafiə etmək və etibarlı tərəfdaş kimi qəbul olunmaqdır. Bu gün Azərbaycan həmin meyarların hər birinə cavab verən dövlətlərdən biridir.Prezidentin çıxışında xüsusi vurğulanan digər məqam etimad məsələsi idi. Beynəlxalq münasibətlər sistemində etimad ən böyük siyasi kapital hesab olunur. Müxtəlif dövlətlərin, beynəlxalq təşkilatların və siyasi aktorların Azərbaycanı dialoq üçün etibarlı məkan kimi seçməsi də məhz bu kapitalın formalaşmasının nəticəsidir. Bu gün Azərbaycan təkcə regional proseslərin iştirakçısı deyil, eyni zamanda həmin proseslərin istiqamətini müəyyənləşdirən aktorlardan birinə çevrilir. Şuşadan verilən mesajın əsas mahiyyəti də bundan ibarətdir.

Burada artıq təkcə Qarabağın bərpasından danışılmır. Burada yeni geosiyasi reallıqlar, Cənubi Qafqazın dəyişən siyasi arxitekturası, beynəlxalq hüquqa əsaslanan sülh modeli və gələcəyin informasiya təhlükəsizliyi müzakirə olunur. Məhz buna görə Şuşa Qlobal Media Forumu media tədbirindən daha çox siyasi və strateji düşüncənin formalaşdığı beynəlxalq platforma kimi çıxış edir. Bu isə Azərbaycanın dünyaya verdiyi ən mühüm siyasi mesajlardan biridir”.

**Vasif ƏLİHÜSEYN**

# ”Ermənistanı Azərbaycan Prezidenti başa saldı, İranı isə...”

**”Artıq 3-cü gün ardıcıl olaraq ABŞ tərəfindən İrana, İran tərəfindən isə körfəz ölkələrinə qarşı hava zərbələri davam edir. İran tərəfindən atılan raket və PUA sayında azalma müşahidə olunur. Bəzən İran raketləri ölkə ərazisini tərk etmir, öz ərazisinə düşür. İranın ABŞ gəmiləri ilə dənizdən mühasirəsi yenidən tətbiq olundu. ABŞ prezidenti hər gün İranı təhqir edir, ”qalib” İran isə zərbələrdən şikayət edir və qonşuluqdakı boş ABŞ bazalarını təkrarən vurur”.**

Adalet.az xəbər verir ki, bunu hərbi ekspert Ədalət Verdiyev deyib.

O, bildirib ki, halbuki ABŞ gəmiləri və ya İsrail ərazisi İran raketləri üçün əlçatandır:

”ABŞ İran və digər körfəz ölkələrindən, həm də İsraildən müharibə xərclərini geri almaq, hətta Hörmüzdə İran və tərəfdarları üçün rüsum tətbiqi üçün tələblər səsləndirir. Yəni ABŞ yalnız öz maraqlarını təmin etmək üçün İranı hərtərəfli, digərlərini isə qismən əzir. Daha əvvəl ”Futbol üzrə Dünya Çempionatına görə ABŞ prezidenti müharibəni dayandıracaq”, ”Konqres və Senat ABŞ prezidentinə iki aydan artıq müharibə aparmağa imkan verməyəcək”, ”ABŞ müharibə xərclərini daşıya bilmir”, ”ABŞ sursat qıtlığı ilə üzləşib” kimi iddialar səsləndirən və hətta mənimlə bu mövzuda mübahisə edən bəzi mütəxəssislər, son günlər çıxışlarında yumşaq şəkildə ”İran sahillərini tərk edirlər”. Ən pis halda anti-islam ölkəsinə sanksiya tətbiq edən, onun yüz milyardlarla dollar vəsaitini donduran, dənizdən blokada tətbiq edən, hər gün ərazisi bombalanan İranın ”ABŞ üzərində qələbəsinin” mümkün olmayacağını dərk etməyə başlayıblar”.



Ə.Verdiyev deyib ki, ölkə var ki, söz ilə anlayır, ölkə də var ki, yumruqla anlayır:

”Ermənistan və İran bir çox məsələlərdə çox oxşardır. Heç biri insan dilini ilk dəfədən anlamır. Ermənistanı Azərbaycan Prezidenti başa saldı, İranı isə ABŞ prezidenti başa salmağa çalışır. Azərbaycan Prezidenti İlham Əliyevin ”Tramp sülhsevər insandır” və ya Türkiyə Prezidenti R.T.Ərdoğanın ”İran probleminin həlli üçün Tramp ilə birgə çalışırıq” bəyanatı isə yəqin ki, İranın qələbəsi barədə uzun uzadı boşboğazlıq edənləri eyforiyadan ayıldacaq. Maliyyə, loqistika, daşınma, infrastruktur, təhlükəsizlik və s. baxımından taleyi düşməndən asılı vəziyyətdə olan bir ölkə, heç bir vaxt, heç bir şərtlər altında qalib ola bilməz. Şükür etsinlər ki, ABŞ ordusu Rusiya və ya İran terrorçuları kimi mülki insanlara, neft infrastrukturuna, elektrik stansiyalarına, su anbarlarına və s. ateş açmır. 47 il ərzində İran rejimi öz xalqından başqa kimsəyə qalib gəlməyib. Səbəbləri budur: Qalib olmaq üçün sarsılmaz Komandan, vahid idarəetmə sistemi, qüdrətli ordu, fasiləsiz təchizat zənciri, daim savaşa hazır etibarlı dostlar, beynəlxalq dəstək və s. olmalıdır”.

Hərbi ekspertin sözlərinə görə, İranda isə bunların heç biri yoxdur:

”ABŞ müdaxiləsi gözlənildiyi bir vaxtda, bu müdaxiləni bəhanə edib 52 min vətəndaşını güllələləyən İran rejimi, ölənlərin yaxınlarından ibarət əhali ilə müharibəni, həm də atasının dəfninə getməyən ”karton dini rəhbər” ilə qazana bilməz. Komandan cəsur olmalidir, ölkə ərazisinin hər nöqtəsində xalqın içində olmalıdır, düşmənin və hətta ölümün gözünün içinə daim dik baxmalıdır. Yer altında gizlənmək, düşmən qarşısında əyilmək liderə yarasan xüsusiyyət deyil”.

**Sübhan**


Rüstəm Hacıyev


# NATO parçalana bilərmi?



**NATO-nun bu günlərdə Ankarada keçirilən sammitinin nəticələri iştirakşılar tərəfindən ümumən yüksək qiymətləndirilib. Avropa liderləri NATO-nu parçalamaq niyyətini gizlətməyən ABŞ prezidenti Donald Trampın qəzəbindən xilas ola biliblər.**

**”Foreign Policy” jurnalı yazır ki, ”baxmayaraq ki, alyanasa üzv dovlətlər xərclərin bölünməsi məsələsində razılığa gəliblər, lakin bəzi fundamental məsələlərdə üzv dövlətlərin bir neçəsi arasında fikir ayrılığıda müşahidə olunur”.**

**Jurnalın yaydığı materialda qeyd olunur ki, NATO-nun baş katibi Mark Ryuttenin vaxtında müdafiə xərclərini artırılıb. Bu Vaçinqtonun Avropa qarçısında öhdəliklərini saxlamağa xidmət edir və amerikan istehsalı məhsullarına üstünlük verilməsi isə, Avropa müdafiə sənayesinin inkişafına zərbə vurur.**

**Kanadanın baş naziri Mark Karni güman edir ki, NATO-nun qeyri amerikalı üzvləri öz müdafiə potensiallarını gücləndirməlidirlər. Bu, təkcə ABŞ-ın təhlükəsizlik imkanlarının zəifləməsindən sığortalanmaq üçün deyil, həm də Vaşinqtondan asılığın azadılması üçün lazımdır.**

**Baxmayaraq ki, avropalı liderlər hərbi xərclərin artırılmasının vacibliyi ilə razılaşırlar, onların arasında əks fikirdə olanlarda var. Məsələn, Litva prezidenti Qitanas Nauseda, bu gedişlə NATO-nun parçalanacağının cücərtilərini gördüyünü bəyan edib. Onun fikirincə, ölkələrin bir çoxu hərbi xərclərin artırılmasına tab gətirə bilməyəcəklər və alyans üç yerə parçalanaq.**

**Əslində, Ankara sammiti göstərdi ki, bəzi imkansız dövlətlərin NATO-nun parçalana biləcəyi ilə bağlı təşvişə düşməsinə heç bir əsas yoxdur.**

**Məlum məsələdir ki, Şimalı Atlantika bloku yarandığı gündən xərclərinin böyük bir hissəsi ABŞ-ın payına düşüb. İndi hazırda dünyanın qarışıq bir dövründə, Donald Tramp bəzi hədə-qorxuları ilə, həm Avropanı təyziq altında saxlamağa, həm də özünün hərbi sənaye potensialını inkişaf etdirməklə əhəmiyyətini qaldırmağa çalışır.**

***Kp.ru saytının materiallarından istifadə olunub***

## “Dünyanın müxtəlif ölkələrindən jurnalistlərin Şuşaya gəlməsi...”

**”Həqiqətən də Azərbaycan qlobal gündəmin müzakirə olunduğu məkanlardan birinə çevrilməkdədir. IV Şuşa Qlobal Media Forumunda cənab Prezident İlham Əliyevin forum zamanı müxtəlif ölkələrdən gəlmiş media nümyəndələrinin suallarını açıq formatda cavablandırması enerji təhlükəsizliyi, geosiyasət, Azərbaycan-Türkiyə münasibətləri, regional sülh, Avropa bazarı və Qlobal Cənub kimi çox geniş istiqamətləri əhatə etdi ki, bu da Azərbaycanın beynəlxalq proseslərlə bağlı mövqeyini birbaşa dünya mediasına çatdırmaq imkanı yaratdı”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. ”Bu cür forumların əhəmiyyəti yalnız səslendirilən fikirlərlə məhdudlaşmır. Dünyanın müxtəlif ölkələrindən jurnalistlərin Şuşaya gəlməsi, bölgəni öz gözləri ilə görməsi və Azərbaycanı birbaşa mənbədən dinləməsi informasiya diplomatiyasının ən təsirli vasitələrindən biridir.Bu gün dövlətlər arasında rəqabət iqtisadiyyat, hərbi imkanlar və enerji ilə yanaşı, informasiya müstəvisində də gedir. Öz mövqeyini inandırıcı şəkildə təqdim edəbilən ölkələr beynəlxalq ictimai rəydə daha güclü mövqe qazanırlar. Bu baxımdan IV Şuşa Qlobal Media Forumu Azərbaycanın beynəlxalq nüfuzunu möhkəmləndirən mühüm platformadı”, - deyə o, bildirib.

**Vasif**

## “ABŞ İrana hücumlarını davam etdirəcək”...

**Birləşmiş Ştatların baş komandslığı İranın hərbi obyektlərinə növbəti kütləvi hücumlarını başa çatdırıb. Əməliyyat zamanı onlarla obyekt hücuma məruz qalıb. İran tərəfidə öz növbəsində ABŞ-ın Yaxın Şərqdə yerləşən həebi bazalarına dron zərbələru endirib.**

İranın Fars agentliyinin məlumatına görə, Axvaz şəhəri yaxınlığında bir neçə partlayış baş verib. Mehr agentliyi isə bildirib ki, Buşer atom elektrik stansiyasının ətrafında hava hücumundan müdafiə sistemləri işə salınıb. Bundan başqa Sirik və Bəndər-Abbasda da, partlayış səsləri eşidilib. ABŞ-ın hərbi dəniz qüvvələri eyni zamanda İran ətrafında blokadanı davam etdirir. Bildirilir ki, ABŞ yaxın günlərdə və həftələrdə İran ərazilərinə hücumlarını davam etdirəcək. İran tərəfi isə, bəyan edir ki, sona qədər mübarizə aoaracaq.

**Rüstəm HACIYEV**

## Kəmaləddin Heydərov Slovakiyanın daxili işlər naziri ilə bir arada



**İyulun 14-də Şuşa şəhərində fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Slovakiya Prezidenti Peter Pelleqrininin rəsmi səfəri çərçivəsində nümayəndə heyətinin tərkibində Azərbaycana gələn Slovakiyanın daxili işlər naziri Matuş Şutay-Eştok ilə görüşüb.**

Adalet.az xəbər verir ki, görüşdə iki ölkə liderlərinin siyasi uzaqgörənliyi və qarşılıqlı etimadı sayəsində Azərbaycan ilə Slovakiya arasında dostluğa, hörmətə və sıx əməkdaşlığa əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin qurulduğu məmnunluqla qeyd edilib, bu çərçivədə iki ölkənin uyğun qurumları arasında əlaqələrin inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğu vurğulanıb.

Nazir Kəmaləddin Heydərov slovakiyalı nazir Matuş Şutay-Eştoka Azərbaycan Fövqəladə Hallar Nazirliyinin fəaliyyəti, o cümlədən işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur ərazisində həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları barədə ətraflı məlumat verib. Keçirilən görüşün iki qurum arasında təbii və texnogen xarakterli fövqəladə hallarla mübarizə üzrə müxtəlif istiqamətlərdə, o cümlədən mülki müdafiə, risklərin qiymətləndirilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, xilasetmə fəaliyyətinin təşkili və digər sahələrdə əməkdaşlıq və təcrübə mübadiləsinin aparılması üçün möhkəm zəmin yaradacağına əminlik ifadə olunub.

Slovakiyanın daxili işlər naziri Matuş Şutay-Eştok səmimi görüşə görə təşəkkür edib, Azərbaycan və Slovakiyanın uyğun qurumları arasında fövqəladə halların idarə edilməsi üzrə çoxşaxəli əməkdaşlıq üçün mövcud potensialdan istifadənin qarşılıqlı faydasını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Azərbaycanda bu şəxslər 1500 manatadək cərimələnəcək

**Toxumçuluq haqqında qanunvericiliyin pozulması hallarının əhatə dairəsi genişləndiriləcək.**

Adalet.az xəbər verir ki, bu, Milli Məclisin iclasında müzakirə olunan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində öz əksini tapıb.

Hazırda qüvvədə olan qanunvericiliyə görə, karantin obyekti ilə yoluxmuş, dövlət standartlarına uyğun gəlməyən toxumların əkilməsinə, səpininə, tədarükünə və satılmasına, sortluq və səpin keyfiyyətlərini təsdiq edən uyğunluq sertifikatı və fitosanitar sertifikatı olmayan toxumların idxalına, ixracına və ticarət dövriyyəsinə daxil edilməsinə, toxum partiyasının keyfiyyətinin qiymətləndirilməsi qaydalarına əməl edilməməsinə, yaxud keyfiyyət göstəricilərinin bilərəkdən təhrif olunmasına, toxumçuluqda tətbiq edilən uçot-hesabat sənədlərində düzgün olmayan məlumatların göstərilməsinə görə fiziki şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir. Təklif edilən dəyişikliyə əsasən, toxumçuluq sahəsində normativ hüquqi aktların tələblərinə uyğun gəlməyən toxumların istehsalına, emalına, tədarükünə, saxlanmasına, daşınmasına, ticarət dövriyyəsinə, o cümlədən idxalına və ixracına, toxum əməliyyatçılarının seleksiya və toxumçuluq sahəsində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində qeydiyyata alınmadan toxumçuluq sahəsində fəaliyyət göstərilməsinə, toxum partiyasının keyfiyyətinin qiymətləndirilməsi qaydalarına əməl edilməməsinə, yaxud keyfiyyət göstəricilərinin bilərəkdən təhrif olunmasına, toxum qablarının (konteynerlər, bağlamalar və s.) üzərində, etiketlərdə və ya müşayiətedici sənədlərdə bitki sortunun adı, mənşəyi və toxumun keyfiyyəti barədə yanlış məlumat göstərilməsinə, toxum əməliyyatçıları tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminin altsisteminə bilə-bilə yanlış və ya təhrif olunmuş məlumatların daxil edilməsinə görə fiziki şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə ediləcək. Müzakirələrdən sonra məsələ səsverməyə qoyularaq III oxunuşda qəbul edilib.

# "Polad Həşimov əsgərlərə səngərə girmək əmri verdi və bu an..."

**"Ermənistanda 2018-ci ildə baş verən "Məxməri inqilab"dan sonra hakimiyyətə gələn Nikol Paşinyanın ilk aylarındakı sülhpərvər ritorikası tədricən öz yerini hücum konsepsiyasına verdi. 2019-cu il martın 29-da Vyanada Prezident İlham Əliyevlə görüşdən bir neçə saat sonra Ermənistan müdafiə naziri David Tonoyan Nyu-Yorkda "sülh müqabilində ərazilər" düsturunu "yeni müharibə - yeni ərazilər" formulu ilə əvəz etdiyini elan etdi".**

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

O, bildirib ki, bu bəyanat növbəti bir ilyarımda pilləvari şəkildə gərginləşən münasibətlərin əsas dönüş nöqtələrindən biri oldu:

"Tonoyanın açıqladığı yeni doktrina daimi müdafiədən imtina edərək düşmən ərazisinə keçirilə bilən hücum bölmələrinin sayının artırılmasını nəzərdə tuturdu. Bu addımı 2019-cu ilin mayında Şuşanın işğalı ildönümündə Paşinyanın nümayişkaranə rəqsi, həmin ilin avqustunda Xankəndidə "Arsax Ermənistandır" bəyanatı və 2020-ci ilin martında Arayik Harutyunyanın andiçmə mərasimini Şuşada keçirməsi izlədi. Nəhayət, iyulun 2-də general-leytenant Vaqarşak Harutyunyanın Mingeçevir su anbarının vurulmasını hərbi konsepsiya kimi dilə gətirməsi münasibətləri tamamilə korladı". Politoloq deyib ki, bu ifadədən cəmi on gün sonra Tovuz ətrafında top-tüfəng səsləri eşidildi:

"Tovuz rayonunun Ermənistanla sərhəd kəndləri. Dağlıq relyef döyüşlərin xarakterini müəyyən edirdi. Beləliklə, Bakıda ictimai rəy Qarabağ danışıqlarının uzun sürən durğunluğundan bezərkən, Yerevan rəhbərliyi artıq təmas xəttindən kənarda - beynəlxalq dövlət sərhədi boyunca yeni bir cəbhə açmağa hazırlaşırdı. Döyüşlərin başlanmasından qısa müddət sonra münaqişənin səbəbləri barədə müxtəlif versiyalar irəli sürüldü. Qərb ekspertlərinin əksəriyyəti təşəbbüsün Azərbaycandan gəldiyini qərəzli qaydada iddia edirdilər. Hətta "Chatham House" təşkilatının Rusiya və Avrasiya üzrə mütəxəssisi Laurens Broers döyüşləri Azərbaycanın geosiyasi motivləri ilə izah etməyə çalışırdı.



"Karnegi Avropa Fondu"nun baş elmi əməkdaşı Tomas de Vaal isə münaqişənin dondurulmuş formatının Bakı üçün əlverişsiz olduğunu, ona görə də status-kvonu pozmaqda Azərbaycanın daha çox maraqlı ola biləcəyini bildirirdi. (de Vaal, 2020).

Lakin bu təhlillərin nəzərə almadığı ciddi nüanslar var idi. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) üzvü olan Ermənistanın beynəlxalq sərhədlərinə hücum bu təşkilatın bütün üzvləri ilə üz-üzə gəlmək demək idi; belə bir addım həm də beynəlxalq hüququn Azərbaycana tanıdığı legitim müdafiə prinsipinə kölgə sala bilərdi. Azərbaycanın regionda geniş hərbi əməliyyat niyyətinin olmadığını göstərən əsas faktlardan biri 2018-ci ilin dekabrından etibarən Ağstafa-Qazax istiqamətindəki təxminən 130 kilometrlik sərhəd zolağının 3-cü Ordu Korpusunun tabeliyindən çıxarılıb Dövlət Sərhəd Xidmətinə (DSX) verilməsi idi".

Onun sözlərinə görə, ehtimal ki, erməni komandanlığı məhz bu yerdəyişmə səbəbindən 3-cü Ordu Korpusunun zəiflədiyini düşünərək əməliyyat istiqaməti olaraq Tovuzu seçdi:

"Ailəli olan generalın üç övladı yadigar qaldı. Onun şəxsiyyətini səciyyələndirən bir detal xüsusilə diqqət çəkirdi: kirayə mənzildə yaşamasına baxmayaraq, Həşimov həmin mənzili Aprel döyüşlərində şəhid olan bir hərbçinin ailəsinə bağışlamışdı. Polad Həşimovun şəhadəti onu İsmət Qayıbov və Məhəmməd Əsədovdan sonra 1988-ci ildən başlayan Qarabağ müharibəsində həlak olan üçüncü Azərbaycan generalı, döyüş meydanında birbaşa döyüş zamanı itirilən yeganə general etdi. İyulun 15-də general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev II Fəxri Xiyabanda yanaşı dəfn olundular. (memorial.az).Atılan üç artilleriya mərmisi Azərbaycan hərbçilərinin cəmləşdiyi mövqeyə düşdü. Bu zərbələr 3-cü Ordu Korpusu komandirinin müavini - qərargah rəisi, general-mayor Polad Həşimovun və korpusun artilleriya rəisi, polkovnik İlqar Mirzəyevin həyatına son qoydu. Həmin döyüşün şahidi olan leytenant Aqşin Əliyev o anları belə xatırlayır:

"Düşmən mövqelərimizi atəşə tutan zaman general-mayor Polad Həşimov mənə və digər hərbçilərə səngərə girmək əmri verdi. Mən səngərə yenicə daxil olmuşdum. Bu zaman düşmən tərəfindən atılan mərmilər generalın və digər hərbi qulluqçularımızın olduğu yerə düşdü. General-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov və gizir Yaşar Babayev gözlərimin qarşısında həlak oldu".

**Vasif ƏLİHÜSEYN**

# "Artıq televizora baxmağa camaatda hövsələ də qalmayıb..."

**"İnsanların televizora az baxmasının yaxud heç baxmamasının bir neçə səbəbi var. İlk səbəb vaxtın məhdudluğudur. Qeyri - standart və natamam həyat tərzi, nizamsız iş rejimi, ailə qayğıları, yoxsulluq və çarəsizlik adamların özünə asudə vaxt ayırmasını mümkünsüz edir. Çox adamın da ya ümumiyyətlə televizoru yoxdur yaxud da nataraz və qeyri - stabil verilən elektrik səbəbi ilə xarab olub, düzəltirməyə də nə həvəsi nə də imkanı var".**

Adalet.az xəbər verir ki, bunu ilahiyyatçı Tural İrfan deyib.

O, bildirib ki, internetin aylığını güclə ödəyən adamlar üstəlik də televiziya xəttinə görə əlavə məbləğ ödəmək imkanında deyillər: "Ən vacib məsələ isə televiziyada ailə institutunun məhvinə yönəlmiş pozğun, əxlaqı pozan, bayağı, milli və mənəvi dəyərlərə, ənənələrə zidd verilişlərin, serialların, tamaşaların təbliğat kampaniyasının vüsət almasıdır. Adamlar istəmir uşaqlarının tərbiyəsi pozulsun. Bəzən ailə ilə oturub televizora baxdığın yerdə elə tərbiyəsiz söz işlədirlər yaxud elə ədəbsiz danışıqlar verirlər ki, adam xəcalət çəkir və dərhal kanalı dəyişməli olursan. Belə şeylər camaatın televiziyaya marağını öldürüb. Bir də ki, internet, sosial şəbəkələr adamların diqqətini daha çox çəkir. Çünki orada izlədikləri proqramların altından münasibətlərini bildirə bilirlər. Bəlkə də emosialarını ifadə edib ürəklərini boşaldıb müəyyən qədər rahatlaşırlar. Televiziya proqramında isə münasibət bildirmək olmur".

Onun sözlərinə görə, adamlar sosial şəbəkələrə aludədir: "Bekarçılıq, işsizlik, nizamsızlıq və ümidsizlik son bir



ümid işığı gözləntisi ilə insanları sosial şəbəkələrə çəkir. Can verən adamın gözü qapıda qaldığı kimi kasıb və çarəsiz sinfin də gözü sosial şəbəkələrdədir ki, bəlkə sevindirici, ümidverici bir xəbər var. Birdən uşaqpulu verilər bilmərəm. Birdən pensiya yaşını aşağı salarlar bilmərəm. Birdən maaşlar artar xəbərim olmaz. Birdən qiymətlər enər gec eşidərəm. Birdən yeni iş yerləri açılar bilmərəm. Birdən kasıb ailələrin uşaqlarına bayramda ət almaq üçün pul paylayarlar, bilmərəm...Artıq televizora baxmağa camaatda hövsələ də qalmayıb. O qədər qayğı, problem var ki, gözünü televizora çevirən kimi həmin problemlər gəlib durur ekranla gözünün arasında...Uzaqdan baxana döyüş asan gəlir. Camaat həm də televizora ona görə baxmır ki, o televizor indiyəcən sosial təminatla bağlı bircə sevindirici xəbər verməyib. Yalnız Tarif şurası suyun, işığın qiymətini qaldırdı, qaza limit tətbiq edildi, filankəs filankəsi bıçaqladı, filan kənddə qoyun haçabaş bala doğdu...Kimə lazımdır cəmiyyətin qanını qaraldan, əxlaqını pozan televiziya verilişləri yaxud ümid öldürən qara xəbərlər? Onsuz da qara gündədi, hələ bir də sənin qara xəbərinə qulaq asacaq?".

**Sübhan**

# Çin Starlink-i məhv edəcək yeni silah təqdim etdi

**Çin alimləri aşağı Yer orbitində yerləşən peykləri, o cümlədən Starlink peyk sistemini sıradan çıxarmağa qadir olduğu bildirilən yeni mikrodalğalı silah hazırladıqlarını açıqlayıblar.**

Adalet.az xəbər verir ki, bu barədə "South China Morning Post" nəşri məlumat yayıb. Məlumata görə, Çinin Milli Müdafiə Texnologiyaları Universitetinin tədqiqatçıları tərəfindən hazırlanmış sistem bir neçə impuls mikrodalğalı şüalandırıcıdan ibarətdir və 100 giqavat gücündə istiqamətləndirilmiş impulslar yarada bilir.

Bildirilir ki, hətta 1 giqavat gücündə impulslar belə aşağı Yer orbitindəki peyklərin avadanlıqlarına zərər vura bildiyi halda, yeni sistemin gücü bunun dəfələrlə üzərindədir.

Nəşrin yazdığına görə, yeni silahın ilk prototipləri artıq hazırlanıb və sahə sınaqlarının keçirilməsi üçün Çin ordusuna təhvil verilib.



*Könül NURULLAYEVA,*
*Milli Məclisin deputatı*

# Uğurlu xarici siyasət kursu sabitliyi daha da gücləndirib

**Beynəlxalq münasibətlər sistemində yeni güc mərkəzlərinin formalaşdığı, qlobal siyasi və iqtisadi proseslərin sürətlə dəyişdiyi müasir dövrdə dövlətlərin milli maraqlarının qorunması, təhlükəsizliyinin təmin edilməsi və davamlı inkişafı məhz qətiyyətli idarəçilikdən asılıdır. Tarixi təcrübə göstərir ki, prinsipial mövqeyi, strateji baxışı və milli maraqlara söykənən siyasəti ilə seçilən liderlər öz ölkələrini mürəkkəb sınaqlardan çıxarmağa, onların beynəlxalq mövqeyini möhkəmləndirməyə nail olurlar.**

Azərbaycanın son illərdə keçdiyi inkişaf yolu da bunun bariz nümunəsidir. Son ictimai rəy sorğularında Prezident İlham Əliyevə yüksək etimadın ifadə olunması həyata keçirilən siyasətin cəmiyyətdə geniş dəstək qazandığını göstərir. Bu etimad uzun illər ərzində həyata keçirilən ardıcıl islahatların, əldə olunan uğurların və ölkənin dinamik inkişafının məntiqi nəticəsidir.

Etimadın əsas səbəblərindən biri Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən və milli maraqlara əsaslanan siyasətdir. Dövlət başçısı fəaliyyətində hər zaman Azərbaycan xalqının mənafeyini əsas prioritet kimi müəyyənləşdirib, milli maraqların beynəlxalq münasibətlər sistemində ardıcıl və prinsipial şəkildə müdafiəsini təmin edib. Mürəkkəb geosiyasi proseslərin yaşandığı bir dövrdə Azərbaycanın uğurlu xarici siyasət kursu ölkənin müstəqilliyini, siyasi sabitliyini və strateji mövqeyini daha da gücləndirib.

Liderliyin gücü yalnız qəbul edilən qərarlarla deyil, həm də xalqla dövlət arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi ilə ölçülür. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, onun ən böyük dayağı Azərbaycan xalqıdır. Xalqın iradəsinə söykənən idarəçilik modeli, vətəndaşlarla açıq dialoq və milli maraqların əsas götürüldüyü qərarlar cəmiyyətlə dövlət arasında etimadı daha da gücləndirib. Məhz bu birlik qarşıda duran mühüm vəzifələrin uğurla həyata keçirilməsində həlledici rol oynayıb.

Müasir dövrdə liderin şəxsi keyfiyyətləri dövlətin beynəlxalq nüfuzuna da birbaşa təsir göstərir. Təsadüfi deyil ki, Avropa Komissiyasının Prezidenti Ursula Fonder Leyen də ölkəmizə səfəri zamanı regionda sülh təşəbbüslərinin təşviqində Azərbaycan Prezidentinin liderlik keyfiyyətlərinin xüsusi rol oynadığını vurğuladı. Cənab Prezidentin qətiyyətli siyasi iradəsi, strateji düşüncəsi və operativ qərarvermə bacarığı Azərbaycanın həm regionda, həm də beynəlxalq arenada mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Bu gün Azərbaycan regional və qlobal əhəmiyyətli layihələrin təşəbbüskarı, etibarlı tərəfdaş və söz sahibi olan dövlətlərdən biri kimi tanınır.

Ölkəmizin sosial-iqtisadi inkişafı da həyata keçirilən siyasətin səmərəliliyini təsdiqləyən əsas göstəricilərdəndir. Güclü iqtisadi potensialın formalaşdırılması, iri infrastruktur layihələrinin reallaşdırılması, enerji və nəqliyyat sahələrində strateji təşəbbüslərin həyata keçirilməsi, müdafiə qabiliyyətinin gücləndirilməsi və müasir ordunun qurulması Azərbaycanın dayanıqlı inkişaf modelini daha da möhkəmləndirib.

Azərbaycanın Cənubi Qafqazın aparıcı dövləti kimi mövqeyinin güclənməsi də müstəqil və milli maraqlara əsaslanan siyasətin mühüm nəticəsidir. Beynəlxalq təşkilatlarda fəal iştirak, müxtəlif dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın inkişafı və qlobal proseslərdə fəal mövqe ölkəmizin beynəlxalq nüfuzunun artmasına mühüm töhfə verir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub. Bu tarixi nailiyyət güclü siyasi iradənin, iqtisadi qüdrətin, müasir ordunun və xalq-lider birliyinin vəhdətinin nəticəsi kimi ölkənin tarixində yeni inkişaf mərhələsinin əsasını qoyub.

Qlobal təhlükəsizlik mühitinin mürəkkəbləşdiyi, müxtəlif bölgələrdə münaqişələrin davam etdiyi bir şəraitdə Azərbaycanda sabitliyin və təhlükəsizliyin qorunması xüsusi əhəmiyyət daşıyır. Ölkədə mövcud olan sabit ictimai-siyasi mühit iqtisadi inkişafın davamlılığını, sosial rifahın yüksəlməsini və beynəlxalq əməkdaşlığın genişlənməsini təmin edən əsas amillərdəndir. Eyni zamanda, Azərbaycanın əldə etdiyi uğurlar və beynəlxalq nüfuzunun artması bəzi dairələrdə narahat olanlar da az deyil. Son illərdə müxtəlif platformalarda özlərini "müstəqil bloger", "media fəalı" və ya "siyasi şərhçi" kimi təqdim edən bəzi antimilli ünsürlərin ölkəmiz haqqında qərəzli məlumatlar yayması, Azərbaycanın beynəlxalq imicinə xələl gətirməyə yönəlmiş kampaniyalarda xüsusi canfəşanlığı təəssüf doğurur. Tənqidi fikir və ifadə azadlığı demokratik cəmiyyətin mühüm prinsiplərindən olsa da, qəsdən dezinformasiyanın yayılması, faktların təhrif edilməsi, təhqir və qarayaxma kampaniyalarının aparılması milli maraqlarla ziddiyyət təşkil edir.

Azərbaycanın son illərdə əldə etdiyi real nəticələr, beynəlxalq tərəfdaşlarla uğurlu əməkdaşlığı, iqtisadi göstəriciləri və həyata keçirdiyi qlobal layihələr göstərir ki, qərəzli informasiya kampaniyaları sözsüz ki, ölkənin inkişafına təsir göstərə bilmir.

Əksinə, ölkəmizin artan beynəlxalq nüfuzu, yeni tərəfdaşlıqların qurulması və həyata keçirilən strateji layihələr bu cür cəhdlərin nəticəsiz qaldığını nümayiş etdirir.

**Müasir beynəlxalq münasibətlər sistemi bir daha sübut edir ki, güclü lider milli maraqları qoruya, cəmiyyətdə həmrəylik yarada, dövlətin strateji inkişaf kursunu müəyyənləşdirə və ölkəsini beynəlxalq arenada layiqincə təmsil edə bilir. Azərbaycanın son illərdə qazandığı uğurlar da həyata keçirilən məqsədyönlü siyasətin və dövlət-xalq birliyinin nəticəsidir.**

# "Dəmir yolları üzrə yük daşınmasından əldə olunan gəlir 383 milyon 996 min manat olub"

**"Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunun açılış mərasimində iştirak edən Azərbaycan Prezidenti cənab İlham Əliyev bildirib ki, ölkəmiz kifayət qədər uzun müddət ərzində bağlantılar üzərində işləyib: "Dəniz ticarət limanımız 15 milyon ton imkanı ilə Xəzərdə ən iri limandır və onun həcmi 25 milyon tonu təmin etmək üçün artırılacaq".**

Adalet.az xəbər verir ki, bunu millət vəkili Vüqar Bayramov deyib.

O, bildirib ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən siyasət ölkəmizi regionun nəqliyyat və logistik habına çevirməkdədir:

"Beynəlxalq yükdaşımalar bir tərəfdən ölkənin geo-siyasi mövqeyini gücləndirir, digər tərəfdən dövlət gəlirlərini artırır. 15 milyon ton ötürmə potensialı olacaq Zəngəzur dəhlizi yaxın gələcəkdə Orta dəhlizin mühüm seqmentinə çevrilərək Azərbaycanın geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə xidmət etməklə yanaşı, region dövlətlərinin gəlirlərinin artmasına da imkan yaradacaq".



V.Bayramov Azərbaycanın beynəlxalq yükdaşımalardan nə qədər gəlir əldə edəcəyini açıqlayıb:

"2025-ci ildə dəmir yolları vasitəsi ilə daşınan 16 milyon 813 min ton yükün 14 milyon 269 min tonu beynəlxalq yükdaşımaların payına düşüb. Onun 6 milyon 695 min tonu birbaşa tranzit yüklər olub. İdxal yükləri 4 milyon 723 min ton, ixrac isə 2 milyon 850 min ton olub. Dəmir yolları üzrə yük daşınmasından əldə olunan gəlir 383 milyon 996 min manat olub. Onun da 333 milyon 911 min manatı isə beynəlxalq yükdaşımaların payına düşüb. 2025-ci ildə hava nəqliyyatı vasitəsi ilə yükdaşımalardan əldə edilən gəlir isə 2 milyard 398 milyon manat olub ki, onun da 2 milyard 397 milyon manatı beynəlxalq yükdaşımaların payına düşüb.

Ötən il beynəlxalq yükdaşımalardan dəniz nəqliyyatı üzrə 57 milyon 382 min, boru kəmərləri üzrə 266 milyon 560 min, avtomobil yolları üzrə 204 milyon 275 min manat gəlir əldə edilib.Bu ilin ilk rübünün rəsmi yekunları da ümidvericidir. Dəmiryolu vasitəsi ilə bu ilin 3 ayı əldə edilən gəlir 96 milyon 049 manat olub ki, onun da 81 milyon 765 min manatı beynəlxalq yükdaşımaların payına düşüb.

Hava nəqliyyatı vasitəsi ilə yükdaşımalardan əldə edilən gəlir isə 571 milyon 292 min manat olub ku, beynəlxalq yükdaşımaların payı 571 milyon 50 min manatdır. Rəsmi rəqəmlər göstərir ki, ötən il beynəlxalq yükdaşımalardan əldə edilən gəlir 3.3 milyard manat olub. Bu o deməkdir ki, Azərbaycan Prezidenti tərəfindən müəyyənləşdirilmiş hədəfin reallaşması Azərbaycanın il ərzində beynəlxalq yükdaşımalardan 7 milyard manata yaxın gəlir əldə etməsinə imkan yaradacaq.

Bu iqtisadiyyatın şaxələndirilməsinə dəstək olmaqla yanaşı, Azərbaycan dövlət gəlirlərinin artmasına şərait yaradacaq".

**Sübhan**

*Fuad Hüsynzadə,*
*Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi İctimai Birliyinin sədri*



# Azad Şuşa qlobal tədbirlərin yeni ünvanına çevrilir

**Bildiyimiz kimi, Şuşa şəhəri işğaldan azad olunduqdan sonra mühüm yerli və beynəlxalq tədbirlərə ev sahibliyi edib. İşğaldan azad olunan ərazilərdə, xüsusən Şuşada beynəlxaq konfrasların keçirilməsinin mühüm əhəmiyyəti var. Bu tədbirlərdə iştirak edən əcnəb jurnalist və ya ekspertlər də çox böyük məmnunluq hissi keçirir, Şuşada aparılan abadlıq-quruculuq işlərinə valeh olur və Azərbaycan dövlətinin gücünü bir daha görürlər. Hətta bundan əvvəl Şuşaya gəlmiş bir neçə jurnalist, indiki səfərlərində Şuşanın möhtəşəm şəkildə dəyişdiyini qeyd ediblər. Maraqlıdır ki, artıq Şuşa haqqında əcnəbilər belə, kitab yazırlar. Bu kitablarda əcnəbi müəlliflər öz ərazi bütövlüyünü bərpa edən Azərbaycan xalqının yenidən dirçəlişini böyük qürur hissi ilə tərənnüm edirlər. İyulun 13-də Şuşada keçirilən "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumundan sonra xaricdə Şuşa haqqında yazıb və danışan əcnəbilərin sayı daha da çox olacaq. Çünki Forumda 53 ölkədən gələn 160 əcəbi qonaqlar Azərbaycan, eləcə də Şuşa ilə bağlı çox böyük təəssüratlarla öz vətənlərinə qayıdırlar. Odu da qeyd edim ki, Azərbaycan Prezidenti İlham Əliyevin Şuşada Forumda səsləndirdiyi mesajlar dünya mediasının diqqət mərkəzində qalmaqda davam edir.**

**Prezident İlham Əliyev Forumun açılış mərasimində çıxışında bu tədbirin Azərbaycan, həmçinin Qarabağ bölgəsi üçün müstəsna əhəmiyyətini vurğulayıb: "Azərbaycanda, Qarabağda, Şuşada bu cür mötəbər auditoriyanı qəbul etmək böyük şərəfdir" deyə dövlətimizin başçısı bildirb.**

**Prezident İlham Əliyev çıxışında Azərbaycanın Avropa Şurası ilə münasibətlərinə dair fikirlər də səsləndirib. Belə ki, dövlət başçısının Azərbaycanın Avropa Şurasından tam çıxmaq imkanını nəzərdən keçirdiyini bildirirək, bu məsələ Azərbaycan nümayəndə heyətinin 2024-cü ildə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) səsvermə hüququnun dayandırılmasından sonra gündəmə gəldiyini qeyd etdi. Dövlət başçısı AŞPA-da Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnun dayandırılması ilə bağlı qərarı ədalətsiz olduğunu da qeyd edib.**

**Dövlət başçımız Azərbaycanın heç bir yanlış addım atmadığını, əksinə, ədalətsiz qərarın təşkilat tərəfindən qəbul edildiyini bildirib və bu qərarın yenidən nəzərdən keçirilməsinin vacibliyini vurğulayıb. Eyni zamanda regionda son gərginliyin uzun sürməyəcəyinə ümid etdiyini, Azərbaycanın öz təcrübəsinə əsaslanaraq davamlı sülhün yalnız ədalətli, beynəlxalq hüquqa əsaslanan prinsiplər üzərində qurula biləcəyini bildirdi. Həmçinin Prezident İlham Əliyev Azərbaycan-Rusiya münasibətlərə də toxunaraq, Bakı ilə Moskva arasında müəyyən dövrlərdə müşahidə olunan gərginliyin artıq arxada qaldığını, iki ölkə arasında münasibətlərin isə tam normallaşdığını vurğulayıb.**

**Yeri gəlmişkən, Forum çərçivəsində Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər xüsusilə diqqət çəkdi. Pakistanın aparıcı media orqanları və Avropanın nüfuzlu xəbər platformalarından olan "Euronews" dövlət başçımızın regional təhlükəsizlik, Pakistanın vasitəçilik rolu və Azərbaycanın Avropa Şurası ilə münasibətlərinə dair bəyanatlarını diqqət mərkəzində saxlayıb.**

**Bu kimi tədbirlər Ermənistanın işğalçılıq siyasətin beynəlxalq ictimaiyyətə çatdırmaq baxımından mühüm rol oynayır. Eyni zamanda belə tədbirlərdə regionun gələcəyi ilə bağlı Azərbaycanın narahatçılığı və səyləri aydın görünür. Prezident İlham Əliyevin Şuşada müntəzəm olaraq Qlobal Media Forumunun keçirilməsi təklifini verməsi, Qarabağın gələcəkdə beynəlxaq əməkdaşlıq məkanına çevriləcəyindən xəbər verir.**

## *Əhmədinejadın ofisi Mossad-ın iddialarını təkzib etdi*

**İranın keçmiş prezidenti Mahmud Əhmədinejadın ofisi "The New York Times" qəzetində onun İsrailin xarici kəşfiyyat xidməti Mossad ilə əlaqədə olması və ev dustaqlığına salınması barədə yayılan xəbərləri təkzib edib.**

Adalet.az xəbər verir ki, qəzetin iddiasına görə, Əhmədinejad Mossad ilə əlaqələrinə görə ev dustaqlığına alınıb. Nəşr, İsrail kəşfiyyatının uzun müddətdir keçmiş prezidentlə əlaqə saxladığını və onu Tehranda mümkün hakimiyyət dəyişikliyindən sonra keçid fiqguru kimi nəzərdən keçirdiyini yazıb.

Qeyd olunub ki, Əhmədinejad iyulun 6-da İranın mərhum ali rəhbəri Əli Xameneinin dəfn mərasimində iştirak etdikdən qısa müddət sonra saxlanılıb. Əhmədinejadın ofisinin yaydığı bəyanatda isə bu iddialar "tamamilə yalan" adlandırılıb. Bəyanatda bildirilir ki, NYT hərbi gərginlik fonunda ictimai rəyi çaşdırmağa və keçmiş prezidentin nüfuzuna zərbə vurmağa çalışır.



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Amerikaya gedəcəyəm...

Hə... Bu da yay... Gözləyirik, görəsən, yay nə vaxt gələcək, çoxlarımız da yır-yığış edib gəzməyə gedək! Nə gözəl! İndi, maşallah, kimi dindirirsən deyir ki, istirahətə gedirəm...

Özü də bilirsiniz hara??? Sizcə, hara gedərlər? Qəbələyə, İsmayıllıya, Qaxa, Zaqatalaya? Yox ey, ay rəhmətliyin oğlu, düz Antalya, ya da Dubaya! Day, çoxları heç Antalyanı da bəyənmir... Deyir ki, Quş adaları, Braziliyadakı istirahət yerləri daha gözəldi. Görürsünüz, hərənin bir seçimi var! Və buna görə həmin insanlara hörmətlə yanaşırıq! Qoy kimin ürəyi haranı istəyirsə, oranı da seçim eləsin! Və hər şeyin başında pul dayanır!

Pulun, imkanın varsa, lap dünyanın o başına gedib kef eləyə bilərsən. Varlığa nə darlıq! Bir tanışım var, deyir, uzun müddətdir ki, pul yığıram! Düşünürdüm ki, o pula ya ev tikərəm, ya da hazır ev alaram. Bir evim var ey, pis deyil, amma birini də almaq istəyirdim. Özü də səksən yaşda! Amma çox fikirləşəndən sonra ev almaqdan vaz keçdim və ağlıma bir ideya gəldi. O pulları götürüb Amerikaya gedim. Bu pulla Amerikada bir ay kef edəcəyəm, həm də o ölkənin gözəl yerlərini görəcəyəm. Artıq təyyarə bileti də sifariş eləmişəm.

Bu ayın axırı, İnşallah, gedərəm. Bəlkə də çoxları məni qınayır ki, bu kişinin ağlına yəqin at təpib, ya da ağlı qaçıb... Yoxsa bir evin pulunu aparıb Amerikada xərcləməzdi! Bax görürsünüz evdən də üstün nəsə varmış... Amerikaya gedən Nərbala kişinin dili ilə demiş olsaq, "adama ev-eşik yox, gəzmək qalacaq! Bir əmioğlum var - Zülfüqar müəllim. Şükür Allaha, yaxşı da imkanlı oğlandı. Deyir ki, mənim üçün ən gözəl yer Bəhmənlidi. Ondan gözəl yer tanımıram! Antalya, Quş adaları, Avropa, hətta Amerika Bəhmənlinin yanında çox balaca və kasıbdı.

Ona görə də Zülfüqar əmioğlu hər il yayda kənddə tikdirdiyi evdə istirahət edir. Özü də bütün yayboyu! Həyətbacaya düşür, meyvə ağaclarını, balaca bostanını sulayır. Sonra da həyətdə yetişən məhsullardan bala-bala yeyir! Nə təzyiqi, nə şəkəri qalxır, nə də ürəyi ağrıyır! Bax belə, kimi yayda istirahətini dünyanın ən gözəl yerində keçirir, kimi də mənim əmioğlum kimi öz kəndində! Görəsən, bunun hansı yaxşıdı? Əlbəttə, kimin ürəyi necə istəyir, elə də olanda!!!

## DİM-dən beynəlxalq dil sertifikatları haqda iddialarla bağlı açıqlama

**Dövlət İmtahan Mərkəzi doktoranturaya qəbul zamanı beynəlxalq dil sertifikatlarını tanımaması ilə bağlı yayılan məlumatların həqiqəti əks etdirmədiyini açıqlayıb.**

Adalet.az xəbər verir ki, bu barədə DİM-dən bildirilib.

Qeyd edilib ki, Mərkəz yalnız beynəlxalq dil imtahanlarının rəsmi imtahan mərkəzlərində keçirilmiş nəticələrini məqbul hesab edir.

"Beynəlxalq dil sertifikatlarının tanınması ilə bağlı tətbiq olunan yanaşma öncədən ictimaiyyətə açıqlanıb. Bu barədə DİM-in rəsmi internet səhifəsində, eləcə də "Doktorantura - 2026" jurnalında məlumat verilib. Orada qeyd olunur ki, TOEFL iBT Home Edition və IELTS-in onlayn versiyaları üzrə əldə olunan nəticələrin etibarlılığı və obyektivliyi ilə bağlı risklər nəzərə alınaraq, zərurət yarandıqda namizədlərin dil biliyinin səviyyəsini dəqiqləşdirmək, əlavə izahat almaq və ya dil bacarıqlarını yoxlamaq məqsədilə üzbəüz formatda müsahibə və ya qiymətləndirmə xarakterli görüşlər keçirilir", - deyə məlumatda bildirilib.

DİM qeyd edib ki, dünyanın bir sıra nüfuzlu ali təhsil müəssisələri də qəbul siyasətlərinə uyğun olaraq bu tip imtahan nəticələrini ya ümumiyyətlə qəbul etmir, ya da onlarla bağlı əlavə yoxlama və ya məhdudiyyətlər tətbiq edir.

"Bu səbəbdən Dövlət İmtahan Mərkəzinin yanaşması beynəlxalq praktikadan kənar və ya istisna xarakterli hesab edilə bilməz.

Eyni zamanda qeyd edilməlidir ki, ETS tərəfindən də TOEFL iBT Home Edition sertifikatlarının qəbul edilib-edilməməsi məsələsi ali təhsil müəssisələrinin və nəticəni qəbul edən təşkilatların səlahiyyətinə verilib.

Başqa sözlə, ETS Home Edition nəticələrinin bütün qurumlar tərəfindən mütləq qəbul edilməsini tələb etmir. Bu barədə qərar qəbul edən təşkilatın daxili qaydaları və qiymətləndirmə siyasəti əsasında müəyyən edilir", - deyə açıqlamada vurğulanıb.

**Qeyd edək ki, sosial şəbəkələrdə doktoranturaya qəbul üçün sənəd təqdim edən namizədlərin beynəlxalq ingilis dili sertifikatlarının DİM tərəfindən tanınmaması, əvəzində onlardan yenidən dil imtahanı və ya müsahibə tələb olunması ilə bağlı məlumatlar yayılmışdı.**

## KTV kabel televiziyası abonentləri niyə incidir?





**İndi ölkəmizdə çoxlu sayda kabel televiziyası fəaliyyət göstərir! Heç şübhəsiz ki, bunların bir çox üstünlüyü var! Xüsusilə də, KTV - nın gözəl yayımı digər yayım şirkətlərindən fərqlənir. Əlbəttə, bunlar çox yaxşıdı.**

Ona görə də əksər insanlar bu yayıma böyük maraq göstərir və düz də edirlər.Ancaq ödəniş vaxtında verməsən elə həmin an yayım dayandırılır.Bunlar hamısı normaldır.Amma normal olmayan odur ki, bu gün saat 10- dan, saat 3- ə kimi bizim Yeni Günəşli yaşayış sahəsindəki 26 nömrəli mənzikdə yayım dayandırıldı və internet kəsildi .

Onlarla əlaqə yaratmaq üçün 012- 127 nömrəli telefona zəng elədik. Hər dəfə telefonun ya məşğul olduğunu , ya da operatorun bu səsini eşitdik:" bir düyməsini basın, sonra operatora qoşulun!" Nə qədər çalışaq da həmin nömrə ilə əlaqə yarada bilmədik. Və həmin nömürə nə qədər kontorumuzu " yedi" .

Bir sözəl, biz KTV kabel televiziyasının məsuliyyətsiiyinin şahidi olduq. Həm pulumuz getdi, həm əsəbləşdik, həm də nə qədər vaxt itirdik.Belə məsuliyyətsizliyi görə Avropa ölkələrində şirkətlər abonentlərə kompensasiya ödəyir, amma bizdə isə şirkətlər nəinki kompensasiya verir, heç üzürxahlıq eləmək istəmirlər. Ancaq ödənişi bir saat gecikdirsən yayım elə həmin an dayandırılır!!! Abonentlər pul ödəyib keyfiyyətli xidmət istəyir. Təəssüf ki, bəzi hallarda biz bunu görmürük və hüquqlarımızın pozulduğunu hiss edirik. Belə xoşgəlməz halların yenidən baş verməməsi üçün şirkət zəhmət çəkib aktiv telefon nömrəsindən istifadə etməlidir.Ki,belə hallarla abonentlər tez- tez üzləşməsin!!!

## Orda qarpız satmaq olar?



**İndi Bakıda harda gəldi qarpız satırlar. Özü də qarpızın nə keyfiyyətinə dəyər verən var, nə də qiymətinə. Çoxlarımız yaxşı bilirik ki, qarpızın mövsümü avqustdan başmayır. Çünki avqust ayında yetişən məhsul təbii olur və onu yeyəndə də heç bir təhlükəsi yoxdu. Amma Bakıda iyun ayının ilk günlərindən qarpız satılır.**

Qoy olsun! Amma qanunla o qarpızlar laboratoriya analizindən sonra satışa çıxarılmalıdır. İndiki qarpızların hamısı istixanlarda və kimyəvi yolla becərilir! Buna heç kimin sözü ola bilməz! Əksər məhsula isə tez yetişmək üçün normadan artıq gübrə verilir. Bununla da , işimiz yoxdur. Yenə özləri bilərlər . Bizim sözümüz küçə ticarəti ilə bağlıdı.

Belə ki, Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinin( qəbiristanlığın yani) " Araz" marketin yanında iki yerdə maşında və torpağın üstündə tonlarla qarpız yığılib .Bu qarpız da hər gün satılır. Ən çox o qarpızı alanlar avtomobillə gedənlərdir! Həmin yerdə bu gün şıdırğı al- ver gedir! Gunun altında satılan bu məhsullardan hər an onu yeyənlər zəhərlənə bilər . Qanunsuz küçə ticarətinə isə Suraxanı Rayon İcra Hakimiyyəti , eləcə də digər icra orqanları göz yumur. Çünki onların burda öz maraqları var ! Deyilənlər görə hər qarpız maşınında filan qədər " şirinlik" alandan sonra aidiyyəti qurumlar onun satışına icazə verilir. Tay bundan sonra hamı hesabın götürməlidir! Ona görə də kücə ticarəti ilə məşğul olanlara heç kim " gözün üstə qaşın var"- deyən yoxdur!

## Şişirdilmiş broyler toyuqları...



**Bu gün market və mağazlarda nə qədər desən belə toyuqlar var ! Özü də çəkisi bir kiloqramıdan , bir kilo 800 qrama qədər! Çox təəssüf ki, bunu da çoxlarımız alır və bəh- bəhlə yeyirik! Amma o toyuqların 40 gün ərzində necə yetişdirilməsindən çoxlarımızın xəbəri yoxdur.Hətta marketlərdə elə toyuq döşləri satılır ki, onun çəkisi 1 kiloqrama yaxındır.**

Aydındır ki, bu toyuqlar təbii yolla yetişdirilmir. Onlara süni yolla və kimyəvi tərkibi məlum olmayan ( olsa belə) qidalar verilir. Sovet dövründə də broyler fabrikləri mövcud idi. Amma onlar bu yolla toyuq bəsləmirdilər! Yəni bir çox işlər müəyyən zaman kəsiyində hazırlanır, baytarlıq qaydalarına əməl edilir, onun keyfiyyətinə xüsusi nəzarət vardı. Ona görə də o toyuqları yemək heç bir fəsad vermirdi.

Amma indi istehsal olunan toyuqların keyfiyyətini onu yetişdirənlərdən savayı , heç kim cavabdeh deyil. Kənd toyuqları 5-6 aya yetişir, özü də çəkisi uzaq başı 1 kiloqrama çatır, dadı da ləzzət eləyir. Bəs necə olur ki, broyler toyuqlarının çəkisi 2 kiloqrama yaxındır? Çünkü onları yetişdirərkən kökəldici qidalardan istifadə olunur! Qida Təhlükəsizliyi Agentliyi broyler toyuqlarının şişirdilməsi ilə bağlı çoxlu sayda nöqsanlar aşkarlayıb. Ancaq di gəl ki, istesalçıların heç nə veci-nə deyil! Burda ataların bir sözü yada düşür:" Dəyirman bildiyini eləyər, ancaq çax- çax baş ağrıdar". Ona görə də ən yaxşı çıxış yolu broyler toyuqlarının alışından imtina etməkdir!!!

## Meşə yanğınları...



**Yay aylarında ayrı - ayrı insanların günahı və məsuliyyətsizliyi üzündən meşələrdə teztez yanğınlar baş verir. Bu isə birmənalı olaraq ekologiya vurulan çox ağır zərbədir! Atrıq bir neçə ölkədə meşə yanğınları yaranıb.**

Fransada olan meşə yanğını daha böyük fəsadlar verib! Yanğının əhatə dairəsi o qədər genişlənib ki, həmin ətrafda yaşayan 10 min sakin başqa yerə köçürülüb.Hec kimi deyə bilməz ki, bizim ölkəmizdə də belə meşə yanğını olmayacaq! Ona görə də meşələrə istirahət etməyə gedən insanlar gərək diqqətli olsun! Yəni meşədə ocaq yandıranda , kabab bişirəndə , samovar çayı qaynadan da insanlar ehtiyatı əldən verməməlidir.Başqa sözlə demiş olsaq , yandırılmış ocaq söndürülməlidir.Yoxsa , külək nəticəsində ocaqda qalan köz yangın yaradar.

Yanğında olanda təbii ki, meşələr yanır! Ötən illər dəfələrlə belə yanğınlar baş verir.Meşələrimizə böyük ziyan dəyib.Nə yaxşı ki, yanğının söndürülməsi ilə bağlı Fövqəladə Hallar Nazirliyi operativ tədbirlər görərək ən müasir texnikalardan, təyyarədən istifadə edərək hadisənin qarşısını ala bilib! Ona görə də, bir daha meşələrə istirahətə gedən insanlar diqqətli olmalı, yandırdıqları ocaqları söndürəndən sonra oranı tərg etməlidirlər!!!

## Pendiri nə saxlar?!



**Bizim xalqın belə bir deyimi var:" Pendiri dəri saxlar, arvadı əri." Uzun illər bu deyim el arasında geniş yayılıb. Əlbəttə hər bir deyim üzun illər xalqın yaddaşında, tarixində bir iz qoyur və yeri gələndə bu deyimlərdən genbol istifadə olunur .**

Təbii ki, başqa cürə də ola bilməz.Bu yaxınlarda sosial şəbəkədə xalq artisti, böyük sənətkar Baba Mahmudoğlunun bir görüntüsünə baxdım. Öncə onu deyim ki, Baba Mahmudoğlu gözəl səsə malik olmaqla yanaşı, həm də çox savadlı, çox mütaliəyə edən bir şəxsiyyət olub. Onun bir - birindən maraqlı düşüncələri, fikirləri var. Bu düşüncələr onun həyat və cəmiyyət haqqında olan fəlsəfi fikirlərdir.

O fikirlərdən biri də onun pendirlə bağlı olan deyimdir! Baba Mahmudoğlu deyir ki, " Pendiri dəri saxlar, arvadı əri" deyimi əslinə qalanda belə səslənməlidir:" Pendiri duzu saxlar, arvadı özü". İndi bu deyimin hansı gözəl ifadə olunub, hörmətli oxucular , özünüz aydınlaşdırın!!!

## Suallar çətin olub...



**Bu sözləri iyulun 5-də Dövlət İmtahan Mərkəzinin keçirdiyi ali məktəblərə ikinci mərhələdə imtahan verən abituriyentlər deyiblər. Bu fikirlərlər nə qədər həqiqətə uyğundur deyə bilmərik, amma görünən odur ki, əksər imtahanverənlər riyaziyyatdan sualların çətin olduğunu deyirlər! Heç şübhəsiz ki,imtahanlar həmişə həyəcanlı və çətin olur.**

Ancaq suallar da elə tərtib olunmalıdır ki, abituriyentlərin həmin açıq suallara cavab verməyə vaxtları olsun. Birmənalı olaraq deyə bilərik ki, çox vaxt belə çətin suallara cavab verməkk üçün onların vaxt azlığı olur. Gərək DİM- i bu məsələləri daim diqqət mərkəzində saxlasın. Mənim də qardaşım nəvəsi həmin günü ikinci dəfə imtahan verib. O da riyaziyyatdan sualların çətin olduğunu deyir. Deməli, od olmasa, tüstü çıxmaz!

Əgər çoxluq bu fikirdədirsə, onda bu barədə Dövlət İmtahan Mərkəzinin rəhbərliyi ciddi düşünməli və çıxış yolu tapmalıdır. Və heç də suallar abituriyentləri çaşdırmağa yox, elmi biliklər qazanmağa fokuslansın! Eyni zamanda imtahandan əksər abituriyentlər razı qalsın! Axı istedadlı və savadlı gənclər istəklərinə , arzularına qovuşmaq istəyirlər! Bu isə onların gələcək həyat yoludur!!!



Emil FAİQOĞLU

# BİR ÖMÜR – BİR HEKAYƏ...

**...Əlbəttə, burada hekayə bir janr kimi düşünülməyib. Əlbəttə, indiki halda ömrün onillərlə yaşanan və davam edən mənalı bir hekayətdir, sözüm-söhbətim. Özü də çox ləyaqətli bir şəxsiyyət olan əziz dostum haqqındadır. Açığı, əvvəlcə fikirləşirdim ki, epistolyar janrın məktub formasında qələmə alım qəlbimdən keçənləri. Ona bəslənilən hörmətin , ehtiramın, sevginin hüdudları nə qədər saf və duyğusaldır, həm də nə qədər doğma və əzizdir axı. Sanki bütün arzularının, ümidlərinin işıq saçdığı bir dünya kəşf edirsən onun möhtəşəm varlığında.**

Haqqında söhbət açdığım dostum Abdulla Əhməd oğlu Yusiflini ölkədə çox adam tanıyır. Yanlış düşünməyin, Abdulla Yusifli nə məşhur yazıçı, nə məşhur rəssam, nə də dövlət xadimidir. O, sadəcə uzun illər prokurorluq və ədliyyə orqanlarında özünəməxsus tərzdə çalışaraq bu xüsusda məşhurlaşmış böyük ləyaqət sahibidir.

Abdulla Yusiflinin bioqrafiyasından qısa məlumatlar vermək də yaxşı olardı. O, 1962-ci ildə qədim Şəkinin Baş Layısqı kəndində dünyaya gəlib. Atası kənd müəllimi, anası kolxozçu olub. Bu ailənin taleyində qəribə hadisələr də baş verib. Anası uzun illərin qabaqcıl tütünçüsü kimi Sosialist Əməyi Qəhrəmanı adına yeganə namizəd göstərilib. Ancaq sonda bu ad başqa bir rayonda ayrı bir əmək qəhrəmanına verilib.

Abdulla Yusifli orta təhsilini başa vurduqdan sonra iki il sovet ordusunda xidmət edib. 1983-cü ildə o vaxtki S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə daxil olaraq 1988-ci ildə ali hüquq təhsilini uğurla başa vurub. Elə həmin ildəcə onu ən yaxşı məzunlardan biri kimi prokurorluq orqanlarına işə götürüblər. Bundan sonra Abdulla Yusiflinin bu orqanda müxtəlif vəzifələrdə fəaliyyətinin uzun, şərəfli, qələbəli marafonu başlayıb. Gəncə nəqliyyat prokurorluğunda başlanğıc vəzifədən müavinliyə qədər yüksəlib, daha sonra Zaqatala rayon prokurorluğunda köməkçi, müavin və prokuror , 2004-cü ildən Respublika prokurorluğunda ən nüfuzlu idarələrin birində rəis müavini , bir ara İmişli rayon prokuroru, Bakı şəhər prokurorluğunda dövlət ittihamının müdafiəsi şöbəsinin rəisi, respublika Baş Prokurorluğunun elmi-tədris mərkəzinin böyük prokuroru vəzifələrində çalışır. Abdulla Yusifli 2020-ci ildə Ədliyyə



Nazirliyi sisteminə keçərək Şəki regional ədliyyə idarəsinin rəisi, sonra isə Ədliyyə Nazirliyinin mərkəzi ekspertiza idarəsində rəis müavini vəzifələrində çalışaraq 2024-cü ildə təqaüdə çıxır. Prokurorluğun fəxri işçisi adını daşıyan Abdulla Yusiflinin digər təltifləri də onun bioqrafiyasında yer tutur. 4 övladından biri-Murad Yusifli atasının yolunu davam etdirərək prokurorluq orqanlarında çalışmaqla özünün bilik və bacarığı , effektli fəaliyyəti ilə həmişə diqqət mərkəzindədir.

Yüksək bacarığı, savadı, intellektual səviyyəsi və vətənpərvərliyi ilə onu tanıyanların sevimlisi olan Abdulla Yusiflinin daha çox bir prokuror kimi yox ,onun insanlıq, mərdlik,kişilik portretini canlandırmaq istəmişəm. Prokurorluq orqanlarındakı fəaliyyətini hətta bir cümlə ilə də ifadə etmək olar. O, çalışdığı vəzifələrdə həmişə səmimi və prinsipial , xalqına və dövlətinə hədsiz sədaqətli olmuş, prokuror adını müstəsna səviyyədə uca tutaraq ,bütün məsələlərdə qanunların aliliyinə və ədalət prinsiplərinə sadiq qalmış,haqsızlığa qarşı daim mübarizə aparmış, romanlardan, filmlərdən fərqli olaraq real həyatımızda ideal prokuror və şəxsiyyət portretini elə özü öz şərəfli həyatı ilə cəmiyyətə təqdim etmişdir.

... "Ayın görünməyən tərəfi" ifadəsi var, " aysberqin su altında qalan hissəsi" ... və sairə. Abdulla müəllimin böyüyüb boya-başa çatdığı ailədə davamlı dindarlıq ritualları olmasa da , hamı bir nəfər kimi Allaha şükranlıqla yaşamağa öyrəşib.Baş ədliyyə müşavirinin yanaşmasına baxın: "Qaqa, sən bu qədər hörmətin, güzəştin qarşılığında yenə də qanunları saymırsan, heç olmasa Allahı düşün də... yoxsa Allahı da danırsan?".

Abdulla müəllim cinayət törətmiş şəxslə söhbət edəndə də , işçisinə müraciət edəndə də, tanımadığı adama nəsə bir söz deyəndə də hərdən bu "qaqa" ifadəsini işlədir. İndinin özündə də . Çoxları bilirsiz də necə danışardı ?.. Abdulla müəllim prokuror vəzifəsində çalışanda da ,başqa vəzifələrdə işləyəndə də həftədə 2-3 dəfə işdən sonra stadiona ,yaxud hər hansı bir futbol meydançasına gedib tanıdığı-tanımadığı yeniyetmə gənclərlə uzun illər futbol oynayıb. İnsanlar əvvəlcə təəccüblənirdilər,hətta heyrətdən donub qalırdılar rayon prokurorunun uşaqlara qoşulub futbol oynamasını görüncə. Sonralar hamı öyrəşdi Abdulla Yusifli sadəliyinin və özünəməxsusluğunun fəlsəfəsinə . Bir də gördülər ki hərdən polis rəisi və ya başçının müavini, milli təhlükəsizlik rəisi, hərbi komissar və başqa vəzifəlilər də hərdən meydanda top qovurlar. Abdulla Yusiflinin gənclərlə,digər insanlarla işdən sonrakı vaxtlarda örnək olası sadə və səmimi hərəkətləri o vaxtki Baş Prokuror Zakir Qaralovun xoşuna gəlməmişdi. Abdulla Yusiflinin bu hərəkətini prokuror üçün yaraşmaz və zərərli ( ???) hal kimi pisləyərək ona xəbərdarlıq da etmişdi. Ancaq başa düşməmişdi ki,neyləsən də adına görə rayonda müəyyən bir tərəddüd hissi də yaradan prokurorluq binası Abdulla Yusiflinin və başçılıq etdiyi kollektivin simasında cinayətkarlığa qarşı mübarizə aparmaqla yanaşı sakinlərin ən çox inam və etibar bəslədikləri vicdan məbədini təcəssüm etdirməkdə idi. Əslində bu bina başqa dürüst məziyyətlərinə görə xaraktercə millətçi olan Ələmdar Məmmədovun prokurorluğu dövründən haqsızlığa düçar olmuş insanların pənah yeri kimi tanınmağa başlamışdı.

Abdulla Yusiflinin bir prokuror,bir insan kimi səviyyəsini görüb , duyub ona valeh olmamaq mümkün deyil. Heç vaxt xeyir-şərdən qalmayan, xüsusilə öz rayonlarında ən kasıb adamları belə yad edən , onlara xəlvəti əl tutan , daim idmanla məşğul olan, daim oxuyan, öyrənən, eyni zamanda əsl Türk kişisi, əsl Turançı Abdulla Yusifli! Bizi ən çox birləşdirən, dost-qardaş səviyyəsinə qaldıran Vətən eşqi!

Çoxları bilmir. Abdulla müəllim işdən , məzuniyyətlərdən ona qalan boş vaxtlarını həmişə nəsə xeyirxah bir işə sərf etməkdən doymayır.Daha çox doğma kəndi Baş Layısqının timsalında . O, qədim Şəkinin , ən qədim yaşayış məntəqələrindən biri olan Baş Layısqı kəndinin tarixindən , toponomikasından , etnoqrafiyasından, əhalinin etiqad yerlərindən , bölgənin igid oğullarının Qarabağ savaşlarındakı şücaətlərindən bəhs edən iki sanballı kitabın ideya müəllifidir. Bu kitablardan biri "Qədim Oğuz yurdu-Baş Layısqı" nın oxunan hər səhifəsindən Vətən ətri yayılır, Türkçülük eşqi, Turançılıq, tarixi keçmişimizə - böyük Türk mənşəyimizə doğru-dürüst və təvazökar münasibət boylanır. Abdulla Yusiflinin hədsiz həvəs və istəyi ilə kitabdakı araşdırmalar professor Asif Rüstəmli demişkən, mərhum Əjdər Fərzəli Şəkidən Ural dağlarına qədər uzaq bir məsafəni Layısqı



sözünün etimologiyasında necə də peşəkarcasına yaxınlaşdırıb Türkçülüyün hüdudsuzluğunu sübuta yetirmişdir.

Abdulla Yusifli kəndlərindəki Böyük Vətən müharibəsində həlak olan həmyerlilərinin xatirə kompleksini vaxtilə öz ailə və şəxsi vəsaiti hesabına ucaldan Vətən övladıdır. Kənddə olanda tez-tez bu komplekse, həm də Şəhidlər xiyabanına baş çəkir, ailə üzvləri ilə buralarda səliqə-sahman yaradır, yeni çiçəkliklər salır,gülləri,ağacları suvarır. Elə özünün də həyatyanı sahəsində göz oxşayan bağ-bağatı ona xüsusi zövq verir. Bu bağ-bağat ona gəlir də gətirir,bu bağlardan kasıblara ianələr də edir,çox böyük istəklə onlara əl tutaraq sevindirir.

Azərbaycan ədəbiyyatını , dünya ədəbiyyatını gözəl bilən Abdulla Yusifli sevdiyi şairlərdən saatlarla danışar, şeirlər söyləyər, yorulmaz.

Bu yaxınlarda mənə zəng etmişdi. Söylədiklərini olduğu kimi yazıram: "Qaqa , bilirəm , biraz nasazsan, elə mən də son vaxtlar bəzi ağrı-acıdan şikayətlənirəm. Bunlardan eybi yoxdur, Allah özü bilən məslə-hətdir, Allah bizi nadanlardan , fürsətcillərdən qorusun... Qaqa , mən indi kəndimizdəki dağın ən yüksək zirvəsinə qədər bir təhər də olsa gəlib çıxa bilmişəm. Buna çox sevinirəm. Əllərimi açıb Allahıma şükürlər edirəm, Allahımdan sənə və doğmalarıma , bütün insanlara sağlamlıq arzulayıram... "

Bax belə. Son illər tez-tez görüşə bilməsək də , telefonlarımız doğmaca səsimiz vasitəsilə bizi həftədə bir-iki dəfə görüşdürür. Hər iki ailədə müəyyən müddət bu məqamların dadlı sevinci yaşanır.

Çox sağ ol, Abdulla Yusifli ! Sən orada Allaha bir qədər də yaxınlaşmısan, Allah səni qorusun, əziz qardaşım, əziz həmvətənim, əziz şamanım,əziz Turan aşiqim! Böyük qəlb sahibi, inan ki mən səni heç kimlə müqayisə edə bilmirəm. Sanki sən çox-çox qədimlərdə qalmış bir Turan əfsanəsisən. Bu gün turançılığın yenidən yeni biri sevda ilə dünyaya yayılmağa başladığı vaxtda sən də bir ruh kimi doğma Türk ellərimizi dolaşmaqdasan sanki.

... Sənin təqaüddə olmağına da heç inana bilmirəm. Sən öz missiyanı əbədi olaraq yaşayan bir əfsanəyə bənzəyirsən, əziz qardaşım.

Sən yüksəldiyin ucalıqlardan heç vaxt enməyəcəksən. Yaxşılıq etdiyin yüzlərlə , bəlkə də daha çox insanların duaları həmişə Allahın hüzuruna yetişməkdədir...

***P.S. Bu hekayə burada bitdimi? Əsla bitmədi. Sağlıq olsun, davamında çox maraqlı, ibrətamiz, sirli-sehirli söhbətlər eşidəcəyik...***

**Məzahir ƏHMƏDOĞLU**

# «ABŞ-İran qarşıdurması uzandıqca, bölgə ölkələri daha çox silah...»

**"NATO-nun Ankara sammitinin yekunlarının müzakirəsi bitməmiş Yaxın Şərq yenidən qarışıb. ABŞ Prezidenti Donald Tramp elə Ankarada olarkən, İrana zərbə vurmağa qərar verib. Livanda da müharibənin şiddətlənməsi ehtimalı var. İranın təlimatıyla İsrail ərazisinə yeni zərbələrin endirilməsi Tel-Əvivi qonşu ölkənin ərazisində hərbi müdaxiləni genişləndirməsiylə nəticələnəcək".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

O, bildirib ki, ABŞ ilə İran arasında hərbi qarşıdurmanın yenidən alovlanması Pakistanı çətin vəziyyətə salıb:

"İslamabad aylardır iki ölkə arasında vasitəçi kimi çıxış edir, tərəflər arasında razılaşma əldə etməyə çalışırdı.

İmzalar atıldı, ancaq bu sülhə yol açmadı. Əldə olunan razılaşma yerinə yetirilmədiyinə görə, bölgədə gərginlik yenidən artıb. Buna görə də Pakistanın Xarici İşlər Nazirliyi tərəflərə çağırış etmək məcburiyyətində qalıb. İslamabaddan yayılan açıqlamada, Yaxın Şərqdə sülhə nail olmaq üçün diplomatiyadan başqa alternativ olmadığı bildirilib. Pakistan bütün tərəfləri təmkinli olmağa, bölgədə sülh və sabitliyi daha da sarsıda biləcək hər hansı bir hərəkətdən çəkinməyə çağırıb".

Politoloqun sözlərinə görə, Vaşinqton və Tehranın İslamabadın çağırışını eşidəcəyi çətindir:

"ABŞ və İran bir-birini razılaşmanı pozmaqda ittiham edir. İran Hörmüz boğazına nəzarət iddiasından əl çəkmədiyinə görə, razılaşmanın yerinə yetiriləcəyini gözləmək əbəsdir. Boğazdan keçən ticarət gəmilərinə açılan atəş isə Vaşinqtonu İrana zərbələr endirməyə sövq edib. Pakistanla yanaşı Çin də mövcud vəziyyətdən narahatdır. Gərginliyin yayılması ehtimalı olduğuna görə, Çinlə Pakistan öz aralarında hərbi ittifaqı gücləndirməkdədirlər.

Pakistanın Çinlə dərinləşən əlaqələri Pekinin regionun müdafiə bazarlarında təsirinin genişlənməsində əsas rol oynayır. İslamabad vasitəçiliklə uğursuzluğa düçar olmasına baxmayaraq, təhlükəsizlik sahəsində müvafiq addımlar atmaqdadır. Bunlardan biri Çinlə hərbi əməkdaşlığın genişləndirilməsidirsə, digəri 2025-ci ildə Səudiyyə Ərəbistanı ilə imzalanmış strateji müdafiə müqaviləsidir. Bu müqavilə bir tərəfə hücumu hər iki tərəfə hücum kimi qəbul edir". E.Şahinoğlu deyib ki, beləliklə, bölgədə son geosiyasi dəyişikliklər Pakistanın əhəmiyyətini artırıb: "Mühüm amil Pakistanın Çinlə sıx inteqrasiyası, xüsusən də müdafiə, təhlükəsizlik və keşfiyyat əməkdaşlığıdır. Stokholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun hesabatına əsasən 2021-ci ildən 2024-cü ilə qədər Pakistanın silah idxalının 80%-dən çoxu Çinin payına düşüb. gəlir. Bu, qırıcı təyyarələrin birgə istehsalından tutmuş hava hücumundan müdafiə sistemlərinə qədər sahələri əhatə edir. Çinlə Pakistanın birgə istehsal etdiyi hərbi texnikaya bölgənin müxtəlif dövlətləri maraq göstərirlər. Səudiyyə Ərəbistanı ABŞ-dan hərbi asılılığını azaltmaq üçün Çin və Pakistanın birgə istehsal etdiyi hərbi məhsulların alınması üçün intensiv danışıqlar aparır. Liviya ilə də müvaqilələr imzalanıb. Bununla Pakistan və Çin Yaxın Şərq bazarında fəallıqlarını artırırlar. ABŞ-İran qarşıdurması uzandıqca, bölgə ölkələri daha çox silah və hərbi texnika almaq istəyəcəklər. Azərbaycan İkinci Qarabağ müharibəsində qələbəsinə baxmayaraq, hərbi büdcəsini artırmaqda davam edir.

Bunun səbəbi yalnız Ermənistanla əlaqəli deyil. Azərbaycan Ermənistanla sülh qurucuğuna başlayıb, iki ölkə arasında ticarət əlaqələri qurulub. Yaxın müddətdə iki ölkə arasında sülh sazişinin imzalanması ehtimalı var.

Sülh sazişinin imzalanması və iki ölkənin birgə nəqliyyat və digər layihələrdə iştirakı müharibə ehtimalını xeyli azaldıb. Ancaq Cənubi Qafqaz ətrafındakı hərbi toqquşmalar, o cümlədən Rusiya-Ukrayna və ABŞ-İran müharibəsi, İranın mühafizəkar dairələrindən Azərbaycan əleyhinə səslənən açıqlamalar ölkəmizə hərbi gücünü artırmaqdan başqa alternativ qoymur".

**Vasif**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Günəşin doğulduğu ünvanı göstərən şair

## Şair Tahir Rzaya kiçik bir oxucu məktubu

**Oxucu qarşısına çıxarılan hər bir ədəbi nümunə həcmindən və təqdimat formasından asılı olmayaraq, özündə müəyyən məqamları, keyfiyyətləri ifadə edir. Yəni ehtiva olunan hər bir çalar özü-özlüyündə söz sahibinin, yaradıcı insanın hiss və duyğularının özəl tərəflərini sərgiləyir. Bu mənada mənim üçün oxuduğum hər bir yeni əsər təbii ki, yenə də həcmindən və təqdimatından asılı olmayaraq bir növ tapıntıdır. Və bir az da açıqlasam, naxışın gətirməsidir. Yəqin ki, bu fikirlə razılaşarsınız. Axı hər adamın naxışı gətirmir! Özü də oxucu olaraq, sözü duyan, sözlə baş-başa qalmağı bacaran yaradılmış kimi...**

**Bu günlərdə dəyərli ziyalımız, şəxsiyyətinə və yaradıcılığına böyük hörmət etdiyim Tahir Rzadan bir HƏDİYYƏ aldım. Səmimi avtoqrafla bağışlanmış bu kitabın adı dərhal diqqətimi çəkdi. Bu ad Azərbaycan insanının - vətən oğlunun öz yurduna, öz məmləkətinə sonsuz və şəriksiz sevgisini birmənalı olaraq ifadə edir. Kitab "Günəş torpağımdan doğur cahana" adlanır.**






**Mən bu cümlənin, bu fikrin qatlarına enməyə çalışdım. Daxilən duydum ki, bu cümlədə təkcə bədii fikir yox, bənzətmə yox, epitet yox, birmənalı olaraq bu gün cahanın diqqət mərkəzində olan bir məmləkətin ştirixləri önə çəkilib. Bu, Azərbaycan insanının torpağına bağlılığının təcəssümüdür. Onun 44 günlük zəfərinin ifadəsidir. Onun bölgədə önə çıxmasının, dünya çapında söz sahibi olmasının göstəricisidir. Deməli, müəllif dünyaya gələn və artıq oxucunun masası üzərində öz daimi yerini haqq etmiş bu kitabına diqqət çəkən adı verəndə, mənim fəhm etdiyim məqamların hamısını göz önünə gətirmiş və kitabdakı şeirlərin üzünü də, həmin fikri də pardaxlamışdır.**

**Azərbaycan oxucusu Tahir Rza imzasını ötən əsrin 70-ci illərindən tanıyır. Onun ədəbi cameədə seyrək görünməsinə baxmayaraq, hər kitabı ilə oxucu diqqətini çəkməyi bacaran, "ÖZ oxucusu olan şair" titulunu haqq etmiş müəllif kimi yaddaşına yazmışdır. Ona görə də müəllifin şeirlərində fikir yükü hər zaman öndə olubdur. Yəni pafosdan daha çox gerçəklik və səmimiyyət qabardılıbdır. Məsələn:**

*Kim deyirsə, ürəyimə hakiməm,*
*İnanma, ürəyə zor ola bilməz.*
*Ürək hakimdirsə, onda mən kiməm?*
*Bunu sevən bilir, aşkar deyilməz.*

*Varına, gücünə çox güvənmə gəl,*
*Ürək duyğusuzsa, aciz, yazıqsan.*
*Əgər ağlın varsa, özündən əvvəl,*
*Qəlbinin səsini dinlə, ey insan!*

**"Ey insan" şeirinin ilk və son bəndlərini sizə təqdim etdim, həm də bilərəkdən. İstədim ki, öncədəm söylədiyim poetik nümunədəki təsdiqini özünüz də görəsiniz. Əmin olasınız ki, müəyyən mənada hamının bildiyi gerçəkliyi bu qədər tutumlu, mükəmməl və səmimi təqdim etmək ancaq sözün ruhunu, çırpıntısını yaşaya bilən şairin imkanı daxilində mümkündür. Deməli, Tahir Rza bütün insanların bir zərurətə açıq gözlə baxmasını istəyir. O da hər kəsin öz qəlbinin səsinə qulaq asmasıdır. O səsi dinləyən mütləq məqsədinə istiqamət götürə biləcək. Və onda görəcək ki, həqiqətən günəş bu torpaqdan dünyaya boylanır. Axı biz günəşi buludların içindən çıxaran, haqqı bərpa edən, bayrağına layiq olduğu və haqq etdiyi ucalığa yüksəldən əsgərin, Komandanın yanındayıq. Onlarla çiyin- çiyinəyik.**

*Başını uca tut, fəxr et, ey əsgər,*
*Rəhbərin qəhrəman, ordun müzəffər.*
*Çaldığın qələbə şanlı bir əsər,*
*Hünərin səs salıb bil ki, hər yana,*
*Günəş torpağımdan doğur cahana.*
*Gedirik sabaha, biz nura doğru,*
*Anda, sədaqətə, qürura doğru.*
*Yeni qələbəyə, uğura doğru,*
*Yol açır əzmimiz, ruh verir cana,*
*Günəş torpağımdan doğur cahana.*

**Zənnimcə müəllifin millət, vətən, bütövlükdə Azərbaycan sevdasını yalnız "əhsən" deməklə onun yanında olmaqdan qürurlu başqa bir məqamı düşünmək artıq olardı.**

**Çünki bu şeir Tahir Rza yaradıcılığında yeni, müstəqil Azərbaycanın hər kəsin duya biləcəyi səviyyədə təqdimatıdır.**

**Maraqla gözdən keçirdiyim bu kitab daha çox Azərbaycana, onun təbiətinə və insanına ünvanlanmış poetik nümunələrin toplusudur. Amma burda bir gerçəkliyi görməmək mümkün deyil. Həmin nümunələrin demək olar ki, hamısında həm övlad sevgisi, həm də bəşəri sevgi paralellik təşkil edir. Müəllif şeirlərinə öz övlad sevgisi ilə yanaşı, həm də vətəndaş sevgisini də aşılayır. Şeirləri oxuyanda müəllifin duyğularıyla yanaşı, çevrəmizin də, təbii ki özümüzün də Azərbaycana olan sevgimiz həm üzə çıxır, həm də təsdiqlənir.**

**Mən Tahir Rza yaradıcılığı ilə bağlı öncəki illərdə də bölüşdüyüm bütün yazılarımda həmişə xüsusi olaraq vurğulamışam ki, Tahir Rza qələmində ülvi məhəbbət həmişə tərdir, təravətlidir. Gənclik ovqatlı, ataşlidir. Çünki pak sevgidir, lap el dilində desək, halal məhəbbətdir. Bu məhəbbətə şübhə etmək, yanakı baxmaq mümkün deyil. Çünki şeirin, ruhunda, canında sevən ürəyin, yaşanan duyğuların təkcə çırpıntısı yox, həm də piçıltısı öz əksini tapır. Məsələn:**

*Sinəndən asılan daşmı, kəsəkmi?*
*Dinmirsən, sözləşək, yenə küsəkmi?*
*Salamı-kəlamı söylə kəsəkmi?*
*Nə olar danış, din, qurbanın olum.*

*Sevgi çox şirindi bu dünya kimi,*
*Ruh kimi, can kimi, bir ziya kimi.*
*Aldadar ağyarı sirr, röya kimi,*
*Yuxumuz olar çin, qurbanın olum.*

*Bir vaxt könül quşun uçacaq, inan,*
*Tahirin yanına qaçacaq, inan.*
*Vağzalı dilini açacaq, inan,*
*Gələcəkdir o gün, qurbanın olum.*

**Bu şeir mənə görə (təkrar vurğulayıram məhz mənim düşüncəmə və məntiqimə görə - Ə.M) Tahir Rza poeziyasındakı sevgi təranələrinin ən tər nümunəsi, ən gözəl ətir və zövq bəxş edən çiçəyidir. Onu oxuyanda yaşanan və yaşanması qaçılmaz olan sevgiyə baş əyirsən. Elə bu duyğularla da "Günəş torpağımdan doğur cahana" ilk təəssüratımı yekunlaşdırıram. Təbii ki, hələlik. Təkrar kitaba dönəndə, hələ deyiləsi xeyli məqamları sizə çatdıracam.**



Zeynəb ƏLİQIZI

# Əvvəl mən ölüm...

(esse)

Qarabağ... Adına cənnət, ölkənin dilbər guşəsi deyilən diyar. Uzun müddət doğmalarına həsrət qalan torpaq. Yad tapdağı altında bir ömür yaşayan yurd yerimiz. Doğma dilində danışan yurddaşlarından bir müddət uzaq düşən gözəl, füsunkar məkan. Gülü, çiçəyi həsrətdən qovrulan və indilərdə doğmalarına qovuşan vətən torpağı... Nəhayət, sənə qovuşduq... Sanki başdan yaranan yeni bir dünyasan indi. Azad edilən torpaqların üzərində gedən tikinti-abadlıq işləri sənin keçmiş günlərdəki əzablı xatirələrinin üzərinə su səpir sanki. Uçulub sökülmüş, xarabazara çevrilmiş evlərinlə yanaşı, yeni ucaldılan binalar, salınan parklar indi göz oxşayır. Sən yenə cənnətə dönürsən, cənnətləşirsən...

***

Ölkədaxili gəzintilər içərisində Qarabağa edilən səyahətlər qəlboxşayandır. Uzun illərin ayrılığından sonra buraya ayaq basan insanlar kövrəlir, göz yaşlarını saxlaya bilmirlər. Və qəribədir ki, buralara ziyarətə gələn hər kəs elə hər dəfə Şuşaya, Xankəndinə ayaq basanda eyni hissləri keçirir, yeni sanki ilk dəfə gəldiyini hiss edir. Yol boyu görünən yeni yollar, yeni tikililərlə yanaşı, xarabalıqlara çevrilmiş evlərin həyətlərində uzun illər sahibsiz qalan meyvə ağacları görünür. Üst-başı tozlu, qəmgin, həsrət dolu baxışlarını yollara dikib qayğı gözləyən meyvə ağacları. Ən dözümlüləri sağ qalıb, son nəfəslərinədək yaşayıblar, əsl sahiblərini gözləyə biliblər...

Ağdam, Xocalı, Ballıca... Bulaqlarının suyu baldan da şirin Ballıca...

...Təsadüf elə gətirdi ki, səfərimiz yamyaşıl meşənin qoynunda, gur axan çayın sahilində Sabirabad rayon Mərkəzi Kitabxanası kollektivinin Qarabağa növbəti yolçuluğu ilə eyni vaxtda baş tutdu. Bu gözəl, gülərüz, hətta bir az da fədakar olan kitabxanaçı ailəsi bu səyahət zamanı özünün son dərəcə mədəni səviyyəsini nümayiş etdirdi. Köhnə əyyamları xatırladan bir adətlə ana təbiətin qoynunda yerə xalça-palaz salaraq üzərinə süfrə döşəyən kollektiv üzvləri bizi samovar çayına qonaq etdi.

Söhbət zamanı məlum oldu ki, kitabxana müdiri Eldar Urufov bu cür gəzintiləri vaxtaşırı təşkil edib həyata keçirir. Ölkənin müxtəlif gözəl guşələrinə səyahət planında isə üzü Qarabağa tərəf təşkil edilən səyahətlər daha önəmli yer tutur. Yəni kollektivin buraya gəlişi torpaqların işğaldan azad ediləndən sonra ilk dəfə deyildi. Eldar müəllimin öz işçiləri ilə xoş rəftarı, mehriban, qayğıkeş münasibəti isə diqqəti xüsusilə cəlb edirdi.

Maraqlıdır ki, kollektiv üzvlərini əyləşdirib, süfrəyə bir növ özü qulluq edirdi. Bir şey xüsusən nəzərimdən qaçmadı: süfrə yığışdırılarkən yerdə kiçik bir kağız parçası belə, görünmədi. Zibil sayılacaq hər şey ayrıca sellofan torbalara yığılaraq götürüldü. Kollektiv üzvləri ilə söhbətdən məlum oldu ki, bu mehriban işçi qrup həftənin iş günlərindən başqa, az qala, hər həftənin şənbə və bazar günlərini də birlikdə keçirməkdən usanmır. Əməkdaşlar Eldar müəllimin xüsusi qayğı ilə yanaşdığı və eyni zamanda həvəslə təşkil etdiyi bu kimi tədbirlərdən məmnundur. Əlbəttə, hər kəsin öz şəxsi qayğısı, heç də həmişə yerində olmayan maddi ehtiyacları tükənmir.

Lakin buna baxmayaraq, kollektiv bir ailə kimi daim bir araya gəlir, birlikdə çalışır və mümkün qədər birlikdə istirahət edir. Bu da birgə yaşanan harmoniyanı təşkil edir.

***

...Qarabağın füsunkar mənzərəsini yenidən bizlərə qaytaran, nə qədər ağrılı olsa da, bizə zəfər zövqünü yaşadan igidlərimiz vardı... amma yox, onlar indi də vardırlar! Əbədi ölməzliyə qovuşan bu igidlərin hər biri ayrı-ayrılıqda ölməzdir, hər biri haqq dünyasında sağdır...

İsa bulağında sürahiyə düzülən fincanların üzərindəki şəkillərdən boylanan igidlərimiz sanki baxışlarıyla buraya gələnlərə "xoş gəldin" deyir və elə o baxışlarıyla da yola salırlar... O fincanlara toxunan yoxdur, yanlarına qərənfil düzənlər var... Qəribədir, İsa bulağından qalxandan sonra insan vücudunda bir yüngüllük duyur. Və bu da qəribədir ki, həmin hissi keçirən təkcə mən deyildim...

Cıdır düzü... Möhtəşəm və qorxunc qayalıqlar. Gözlərimizin önündə filmlərdə gördüyümüz və bəzən də "əşi, kinodur da" dediyimiz əfsanəvi qəhrəmanların görkləri canlanır. Keçilməz sədləri aşan, çətin yollarla irəliləyən və sonda qalib gələn qəhrəman obrazları. İndi o qayalıqların başında durub qorxa-qorxa, vahimə içərisində üzüaşağı boylananda fikirləşirsən ki, o sərt qayalıqları necə qalxmaq olarmış?

Amma bu şir ürəklilər, bu aslanlar o sərt qayalıqlardan qalxmaqları bir yana, buralarda necə döyüşüblər, yaralılarını necə daşıyıblar, şəhid qardaşlarını döyüş meydanından necə götürüblər?!. Şuşanı necə azad ediblər?.. Cəmi 44 gün davam edən bu ölüm-dirim savaşında sözün əsl mənasında canlarından keçən bu igidləri xatırlayanda (əslində, unutmaq olmur!) Vaqif Bayatlı Odərin bir şeir misraları yadıma düşür.

Şairin o şeiri kimə və niyə yazdığını onun özü, bir də şeiri ona yazdıran varlıq bilir. Mən isə bu misraları Cıdır düzünün hər qarışında qan izləri olan, cismani aramızda olmayan, ruhu isə bizlərlə olan igidlərin pıçıltısına bənzədirəm. Hər bir otu, gülü, çiçəyi, yarpağı tapdaladıqca bizə pıçıldayan səslərini duyuram:

***İndi isə gəl ölüm-ölüm oynayaq,***
***Əvvəl mən ölüm, sən bilmə.***
***Sonra***
***Sən ölmə,***
***Sən ölmə...***

# İki şeirin bədii yozumu



*Sevil Azadqızı*
*Filoloq, AYB, AJB-nin üzvü,*
*Ədəbi təhlil-tənqidçi*

Birinci ŞEİR

### UTANIR

***Cibimdə durumum üşüyür -***
***Utanır əlimdən...***
***Cismimdə qürurum üşüyür -***
***Utanır ölümdən!..***

***Üzümdə təbəssüm ərimir***
***Gözümdə kədərim kirimir...***
***Ümid də yanaşı yerimir -***
***Utanır gülümdən!***

***Səssizcə üyünür dözümüm,***
***Tapa da bilmirəm çözümün***
***Tay duzu da qaçıb sözümün -***
***Utanır dilimdən!..***

**Şeirin bədii təhlili:**

Əbülfət Mədətoğlunun bu dördlükləri insanın daxili sarsıntılarını, çarəsizliyini və mənəvi böhranını əks etdirən dərin psixoloji, fəlsəfi poeziya nümunəsidir. Şeirin əsas mövzusu maddi və mənəvi sıxıntılar qarşısında insanın yaşadığı xəcalət, tənhalıq və qürur hissidir.

Şeir klassik qoşma formasında, heca vəznində yazılmışdır. Misra daxili qafiyələr və rədif ("utanır") ahəngi gücləndirir. Xalq dilinə yaxın, sadə, lakin emosional cəhətdən çox ağırdır. "Durumun üşüməsi" və "qürurun üşüməsi" maddi çətinliyin daxili aləmə vurduğu soyuq zərbəni göstərir. Üzdəki əriməyən təbəssüm ilə gözdəki kiriməyən (sakitləşməyən) kədər ziddiyyət təşkil edir. Bu, insanın dərdini gizlətmək üçün taxdığı məcburi maskadır.

"Sözün duzunun qaçması" ifadənin kəsərini, dadını itirdiyini, çarəsizliyin dili belə lal etdiyini simvolizə edir. Şair "cib" (maddiyyat) ilə "əl" (əmək, hərəkət), "cism" (bədən) ilə "ölüm" arasında dramatik bağlar qurur. Ümidin "gülümdən utanması" obrazı isə gözlənilən xoş günlərə olan inamın belə artıq utanc hissinə çevrildiyini bəyan edir. Müəllif dözümün səssizcə üyünməsini (unudulmasını, aşınmasını) təsvir edərək, insanın taleyə qarşı üsyansız, daxili bir çöküş yaşadığını oxucuya bədii şəkildə çatdırır. "Səssizcə üyünür dözümüm" misrası şeirin ən ağır fəlsəfi və psixoloji yükünü daşıyan sətirdir. "Üyünmək" feili taxılın dəyirmanda üyüdülərək una, toza çevrilməsini ifadə edir. Şair insanın dözümünü, səbrini dəyirmandakı dənə bənzədir. Həyatın çətinlikləri bir dəyirman daşı kimi insanın dözümünü yavaş-yavaş əzir və yox edir.

Bu proses daxildə gedir. İnsan qışqırmır, üsyan etmir, dərdi ilə tək qalır.




Daxili çöküşün və ağrının gizli yaşandığını göstərir. Misra insanın mənəvi tükənmə nöqtəsini təsvir edir. Dözümün un-fəsil olması, artıq insanın tab gətirə biləcək heç bir gücünün qalmadığını simvolizə edir.

İkinci ŞEİR

### QALSIN

***Getmə, dayan, geri bax***
***Qoy ruhum diri qalsın...***
***Baxışın möhürlənsin -***
***Üzümdə yeri qalsın!***

***Dayan, keçim soluna***
***Nur çilənsin yoluna...***
***Sevinc girsin qoluna -***
***Kədərsə , geri qalsın!***

***Dayan, duy gülün səsin***
***Əbülfət gülümsəsin!***
***Məzarı bilinməsin-***
***Hadi tək, şeri qalsın!***

**Şeirin bədii təhlili:**

Əbülfət Mədətoğlunun bu lirik əsəri, insanın fiziki keçiciliyi ilə ruhun və sənətin əbədiyyəti arasındakı dialoqu əks etdirən fəlsəfi-lirik nümunədir.

Şeirin görünən qatı sevgi və ayrılıq dramıdır. Lakin daxili qatında insanın mənəvi varlığını qorumaq çabası durur. Seirin ideyası, cismani varlığın (bədənin, məzarın) yox olması qaçılmazdır, lakin yaradıcılıq və sevgi insanı ölümsüzləşdirir.

Maddiyyatın müvəqqətiliyi qarşısında mənəviyyatın və sənətin zamansızlığı problemi qoyulur. Şeir dördlük şəklində, klassik xalq şeiri (gəraylı) ritminə yaxın, lakin müasir sərbəst-heca keçidləri ilə qurulub. Hər bir bənd dinamik əmrlərlə ("dayan", "geri bax", "keçim") başlayır. Bu da oxucuda zamanı durdurmaq istəyi hissi yaradır.

Birinci bənd maddi ayrılığa qarşı mənəvi müqavimətdir. Müəllif "baxışın möhürlənsin" deyərək sevgini vizual yaddaşda dondurmaq istəyir. İkinci bənddə lirik qəhrəman sevgilisinin soluna (ürək tərəfinə) keçərək onun yollarını nurlandırmaq, kədəri öz üzərinə götürmək istəyir.

Üçüncü bənd kulminasiya və fəlsəfi yekundur. Burada poetik "Mən" öz ölümünü və unudulmasını qəbul edir, lakin sənətinin qalmasını şərt qoyur. Şair şeirin emosional təsirini artırmaq üçün zəngin bədii vasitələrdən istifadə edib:

"Ruhun diri qalması", "baxışın möhürlənməsi", "nur çilənməsi", "sevincin qola girməsi". Bu obrazlar hissləri canlandırır. Sevinc və kədər, diri qalmaq və məzar: Bu ziddiyyətlər həyatın və ölümün vəhdətini göstərir. Hər bəndin başında işlənən "Dayan" nidası şeirə daxili bir ritm və dramatik gərginlik qatır. Şeirin ən ağır fəlsəfi yükü son misralardadır: "Məzarı bilinməsin - Hadi tək, şeri qalsın!"

Şair burada böyük Azərbaycan romantiki Məhəmməd Hadiyə istinad edir. Hadinin məzarının itkin düşməsi tarixi bir faktdır. Əbülfət Mədətoğlu öz taleyini Hadinin taleyi ilə eyniləşdirir. Müəllif bəyan edir ki, şair üçün fiziki nişanə (məzar) önəmli deyil, onun əsl varlığı bəşəriyyətə yadigar qoyduğu şeirdir.

**Bu əsər sadə bir ayrılıq şeiri deyil. Müəllif fərdi hisslərdən (baxış, sevinc, kədər) başlayaraq ümumbəşəri və fəlsəfi bir həqiqətə - sənətkarın ölümsüzlüyü ideyasına ucalır. Şeir həm lirik zərifliyi, həm də fəlsəfi dərinliyi ilə seçilir.**

# "Gurşad"ın yeni sayı...

**Azərbaycanın söz məkanında hər bir yazılı nümunə özü ilə yeni imza, yeni fikir təmsilçisi obrazını da, kimliyini də təsdiqləmiş olur. Bu mənada təkcə ölkənin baş şəhərində deyil, həmçinin regionlarında da kifayət qədər ədəbiyyata, sözə xidmət edən, bir az da konkret desək, onun cilalanmasında iştirak edən, mətbu nümunələr-qəzetlər və dərgilər işıq üzü görür.**

Təbii ki, maraqlı nüansların izləyicisi olan oxucular həmin qəzet və dərgilərdən xəbərdardırlar. İstər ölkənin şimalında, istərsə də digər qütblərində ərsəyə gətirilən yazılı nümunələr arasında "Gurşad"ın öz yeri var. Bu günlərdə Masallı Dövlət Regional Kollecinin dəstəyi ilə işıq üzü görən "Gurşad"ın yeni bir sayı işıq üzü görüb. Dərginin baş redaktoru əməkdar jurnalist Zakir Abbasdır. Onun oxuculara müraciəti ilə təqdim edilən dərgidə kifayət qədər tanınmış imza sahiblərinin yaradıcılıq nümunələri yer alıbdır. Redaksiyamıza "Gurşad"ı




təqdim edən dəyərli ədəbiyyat bilicisi, tanınmış alim, filologiya elmləri doktoru Vaqif Yusiflinin də dərginin bu sayında maraqlı bir araşdırma yazısı yer alıb. "Masallının ədəbi dünyası" adlanan yazıda filologiya elmləri doktoru V.Yusifli bölgə yazarları barəsində maraqlı təhlil sərgiləyib. Bu yazını oxuyanda Masallının söz dünyası göz önündə bütünlüklə canlanır. Dərgidə oxucular imzası poeziya həvəskarlarına yaxşı bəlli olan Şərafəddin İlkin, Rəsmiyyə Sabir, Arif Fərzəli, Rahid Ulusel, Damət Salmanoğlu, Süleyman Əlisa və digərlərinin bir-birindən maraqlı poeziya çələngi ilə tanış ola bilərlər.

Dərgidə həmçinin nəsr nümunələri də yer alıb. Onların arasında Əlişirin Şükürlü, Xanım Ağayeva, Namiq Ağayev, Füzuli Bayat, Nurəddin Ədiloğlu və başqalarının müxtəlif janrlarda yazıları yer alır. Bütövlükdə dərginin bu sayında oxumalı, öyrənməli və dəyərləndirilməli ədəbi nümunələr çoxluq təşkil edir. Bu da o deməkdir ki, "Gurşad" Azərbaycan ədəbiyyatına, Azərbaycan SÖZünə töhfələr verməkdə qərarlıdır.

**Uğurlar, "GURŞAD"!**

**ƏBÜLFƏT**

## *"Haqlı mövqeyinə arxalanan dövlət açıq dialoqdan çəkinmir"*



**"13 iyun 2026-cı il tarixində ənənəvi olaraqartıq 4-cü dəfədir Şuşada keçirilən Qlobal Media Forumu çərçivəsində Azərbaycan Prezidenti cənab İlham Əliyevin beynəlxalq media nümayəndələri ilə açıq dialoqu dünyanın diqqət mərkəzinə çevrildi. Qlobal ictimaiyyət, ekspert dairələri, media və siyasi analitiklər Azərbaycanın dövlət başçısının aktualproseslərə dair baxışlarını, regional və beynəlxalq siyasətin konturlarını açıq, cəsarətli və prinsipial şəkildə ifadə etməsinə böyük maraq göstərirlər".**

Bu sözləri Milli Məclisin deputatı, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva açıqlamasında deyib. Azərbaycan Prezidentinin Cənubi Qafqazdan Mərkəzi Asiyaya, Türk Dünyasından Avropaya, Yaxın Şərqdən ABŞ-a, Uzaq Şərqdən Afrikaya uzanan əməkdaşlıq gündəliyinə, beynəlxalq təşkilatlarla münasibətlərə dair dövlətimizin mövqeyini səsləndirməsindənbəhs edən Günay Əfəndiyeva bildirib:

"Suallar nə qədər mürəkkəb və ya həssas olsa da, cənab Prezidentin cavabları hər zamankı kimi arqumentlərə, faktlara və dövlət maraqlarına xidmət edən prinsiplərə əsaslanırdı. Bu, əslində cənab Prezidentin rəhbərliyində Azərbaycanın özünə, öz sözünə, öz yoluna, atdığı addımlara inamının ifadəsidir. Çünki haqlı mövqeyinə arxalanan dövlət açıq dialoqdan çəkinmir".

Deputat bildirib ki, 30 ilə yaxın işğal altında qalmış, dağıdılmış Şuşa şəhərinin bu gün gələcəyə yönəlmiş strateji müzakirələrin ünvanına çevrilməsi Azərbaycanın tarixində olduqca mühüm bir mərhələdir.

Günay Əfəndiyevaetibarlılığı XXI əsrdə dövlətlərin beynəlxalq nüfuzunun formalaşmasında əsas meyarlardan biri kimi dəyərləndirərək bildirib: "Etibarlı tərəfdaş olmaq, verdiyi sözün arxasında dayanmaq, regionda sabitliyi təşviq etmək, balanslı siyasət yürütmək böyük siyasi kapitaldır. Azərbaycan bu gün məhz belə bir dövlət olaraqdünya miqyasında tanınır, qəbul edilir".

Deputat bildirib ki, Azərbaycan mürəkkəb və dinamikgeosiyasi nöqtədəyerləşməsinəbaxmayaraq, özmüstəqil iradəsini, qərarlarını qətiyyətlə ortaya qoyur.

"Biz bu gün nəinki , coğrafi baxımdan, siyasi baxımdan da müxtəlif sivilizasiyaları, iqtisadi məkanları və maraqları birləşdirən körpü rolunu oynayırıq. Bu, təsadüfi uğur deyil. Bu, uzun illər ardıcıl həyata keçirilən gələcəyə hesablanmış dövlət strategiyasının nəticəsidir.

**Və Prezident İlham Əliyevin Şuşadan dünyaya ünvanladığı mesajlardövlət başçısının böyük dünyagörüşü, geniş strateji düşüncəsi, yürütdüyü nəhəng siyasəti ilə yanaşı, Azərbaycanın güclü və uğurlu dövlətçilik xəttininümayiş etdirir", - deyə Günay Əfəndiyeva vurğulayıb.**

## *Dünya üçün fəlakət tarixi açıqlandı: Okeanlar buxarlanacaq*

**Alimlər planetimizin milyardlarla il sonrakı gələcəyini simulyasiya edərək, yer üzündəki bitki örtüyünün məhv olacağı və iqlimin dözülməz hala gələcəyi tarixi müəyyən ediblər.**

Adalet.az xəbər verir ki, JGR Atmospheres jurnalında dərc olunan araşdırmaya görə, Günəşin yaşlandıqca yaydığı enerjinin artması və atmosferdəki karbon qazı miqdarının azalması qaçılmaz bir dönüşümə səbəb olacaq.

Tədqiqatçılar təxminən 1,9 milyard il sonra Dünya üzrə orta temperaturun 65°C-yə çatacağını bildirirlər. Bu temperatur ən dözümlü bitkilərin belə məhv olması üçün son hədd sayılır.

Günəşin parlaqlığı 20% artdıqda temperaturlar həddindən artıq yüksələcək, fotosintez prosesi qeyri-mümkün hala gələcək və okeanlar buxarlanaraq kosmosda yox olacaq.

Digər bir ssenariyə görə, Dünya karbon qazını qaya süxurlarında topladığı üçün atmosferdə fotosintez üçün lazım olan karbon miqdarı tükənəcək.

Mütəxəssislər qeyd edir ki, bəzi su bitkiləri və sukulentlər (ətyarpaq bitkilər) aşağı karbon səviyyəsində də dirəniş göstərərək həyatı bir müddət uzada bilər, hətta canlılar daha soyuq bölgələrə uyğunlaşaraq təkamül edə bilər.

Nəzəri olaraq, gələcəkdə çox inkişaf etmiş bir sivilizasiya nəhəng kosmik qalxanlarla Günəş şüalarının qarşısını alsa və ya Dünyanın orbitini dəyişərək onu Günəşdən uzaqlaşdırsa, bitki həyatını qorumaq mümkün ola bilər.



ASİF TALIBOĞLU,
yazıçı-publisist

# SİNƏMDƏ EHTİYAT SÖZ SAXLAMIŞAM...

**Əməkdar jurnalist Faiq Qismətoğlunun 70 illik yubileyinə dəvət alanda düzü, bir az təəccübləndim...**

**...Və az sonra yaddaşımı qurdalayanda baxıb gördüm ki, Qismət kişinin oğlu Faiqin haqqannnas yaşı 70-i haxlayıb.**

**Həmin bu 70 ilin 35 ilini bir yerdə, "Azərbaycan" nəşryyatında sağa-sola xərcləmişik.**

**Bu illərin 12 ilini isə "Ədalət" qəzetində, Aqil Abbasın "Dəmir yumruğu" altında bişib, püxtələşmişik.**

**Faiq Qismətoğlu bu gün də "Ədalət"in aparıcı jurnalistlərindən biridi və öz missiyasını yüksək səviyyədə yerinə yetirir.**

**Yeri gəlmişkən:**

**Xalqın şairi Şücaət Kəlbəcərli yazır ki...**

***Xoşum gəlmir tez alışıb sönəndən,***
***Qəlbimdə yüz illik köz saxlamışam.***
***Bəlkə bundan ağır günlərə düşdüm,***
***Sinəmdə ehtiyat söz saxlamışam...***




**Bu bir bənd şeirdəki hikmətin Faiq Qismətoğluna birbaşa şamil olduğunun dəfələrlə şahidi olmuşam.**

**...Sözün birbaşa mənasında, əsil söz adamıdı Faiq Qismətoğlu. Tez alışıb, tez də sönən yazarlardan deyil, söz baqajı doludur. Hansı janrda yazırsa yazsın, fikrini başa düşülən, sərbəst şəkildə ifadə etməyi bacarır.**

**Bunu publisist yazılarında daha çox müşahidə etmək olur...**

**F. Qismətoğlu həm də Allah adamıdır. "Bəlkə bundan ağır günlərə düşdüm", kəlamını qəlbinin dərinliyində gəzdirirv və bu İlahi kəlamın təsiri altında sinəsində ehtiyat söz saxlayır...**

**Bu söz onu həmişə doğru yola səsləyir, süfrəsinə haram tikənin düşməsinə imkan vermir.**

**Elə buna görə də "Mətbuat Şurası"nın foyesində Şuranın sədri Rəşad Məcidi, ustad şairimiz Vaqif Bəhmənlini, görkəmli jürnalist Emin Eminbəylini, araşdırmaçı jurnalist Qafar Çaxmaqlını, öz dəsti-xətti ilə seçiləm jurnalist Əminə Yusifqızını, uzun illər bizimlə "Ədalət" qəzetində çiyin-çiyinə çalışan jürnalist Zaur Vəliyevi, Nizami Allahyarovu və digər tanınmış söz adamlarını görəndə təəccüblənməmdim, əksinə, ürəyim dağa döndü...**

**Və Faiq Qismətoğlunun 70 illik yubileyi keçirilən zaman diqqətimi çəkən əsas məqam tədbirdə işştirak edənlərin səmimiyyət oldu.**

**Ürək sözünü deyənlər arasında şablon cümlələr işlədən, pafoslu sözlər deyən bir nəfər belə görmədim...**

**...Sinəsində həmişə ehtiyat söz saxlayan, əli qələm tutan gündən bəri haqqı nahaqqın ayağına verməyən qələmdaşım, sirdaşım, ən çətin günlərimdə harayıma yetən qardaşım, işin avand, yolun həmişə açıq olsun...**

## Avropada misli-görülməmiş istilər



**İyunun sonlarında Avropanı bürüyən rekord istilik dalğası zamanı 10 mindən çox ölüm halı qeydə alınıb.**

Adalet.az xəbər verir ki, bu barədə Reuters agentliyi "EuroMOMO" şəbəkəsinin araşdırmasına istinadən məlumat yayıb. Təhlil 22-28 iyun tarixlərini əhatə edən dövr üzrə Avropanın 27 ölkəsinin milli statistika məlumatlarına əsaslanır. Həmin günlərdə Fransa, İspaniya, Böyük Britaniya və bir sıra digər ölkələrdə ekstremal istilər pik həddə çatmışdı.

Araşdırmanın nəticələrinə görə, ölənlərin 9 mindən çoxu 65 yaşdan yuxarı şəxslər olub. Eyni zamanda, iyunun son həftəsində "çox yüksək" izafi ölüm göstəricisinin qeydə alındığı yeganə ölkələr Fransa və Belçika olub.

# Ustadlıq məqamı və bir şəhərin ədəbi siması

**Artıq qırx gündür ki, əziz Ustadımın xatirələri xəyalımda dolaşır. Gözlərim önündə surəti canlanır, qulaqlarımda həzin, doğma səsi əks-səda verir. Əzbərimdə olan şeirləri yenidən dilimdə səslənib-süslənir, könlümü işıqlandırır. Onu mənə sevdirən ilk şeirini xatırlayıram:**

***Az-az görüşürük, ay ana, az-az,***
***Bu sirri analar bilməmiş olmaz.***
***Çoxları can atır şöhrətə, ada,***
***Şöhrət də hamının nəsibi olmur.***
***Təpədən-dırnağa soyulmaqla da***
***Hamı şair olmur, Nəsimi olmur.***

Yadıma ilk görüşümüz düşür. Həmin günü anbaan xatırlamağa çalışıram və budur, 1985-ci ilin isti yay günü gözlərim önündə varaqlanmağa başlayır.

Çəkinə-çəkinə "Sosialist Sumqayıtı" qəzetinin redaksiyasına yaxınlaşıram və özümü toparlayıb ikinci mərtəbəyə - redaktorun otağına qalxıram. Şeir gətirdiyimi biləndə məni Nəsimi adına Mədəniyyət və İstirahət parkına yönəldir, şeirlərini apar, Əşrəf Şəfiyevə göstər, -deyir. Şəhərdə tanıdığım yeganə qələm adamı, eloğlum Xanəmir Məmmədoğlunun vasitəsilə Parkın inzibati binasının arxasındakı üstüaçıq otağa gəlib çıxırıq.

İçəridə xeyli orta yaşlı və gənc yazarlar toplaşmışdı. Salam verib ehtiyatla bir qıraqda əyləşdim. Bu mənim üçün imtahan kimi bir şey idi. Və budur, Əşrəf Əşrəf müəllim içəri keçdi və ədəbi məclis başladı. Məlum oldu ki, məndən başqa hamı bir-birini yaxşı tanıyır. Növbə ilə şeirlər oxunur, müzakirələr aparılır, bəzən sərt iradlar, bəzən də səmimi təqdir sözləri səslənirdi.

Nəhayət, mən də özümü təqdim edib, bir neçə şeir oxudum. Cüzi iradlar səslənsə də, ümumilikdə şeirlərimi yaxşı qarşıladılar. Əşrəf müəllimin dilindən tərif eşitmək isə, iyirmi üç yaşlı bir gənc üçün ayrı aləm idi, əlbəttə.

Ciddi qələm adamı olan hər kəs, eləcə də hər bir ayıq oxucu yaxşı bilir ki, Ustadlıq məqamına yetişmək hansı cövrü-cəfadan, hansı əzablardan keçir. Bu məqamı haqq eləmək hər şairə nəsib olmur. Bunun üçün şairdən ömrünü haqq yolunda girov qoymaq tələb olunur. Ömür dediyin istər uzun olsun, istərsə də gödək - sonucda sənin həyat yolun və qələmindən çıxanlar sənə sahib duracaq. Yalnız yaşadıqlarını yazmaq və yazdıqlarını yaşamaq şairi ədəbiyyat tarixinə qəbul eləyir. Ustadımız Əşrəf Veysəlli bütün bunları bizdən daha yaxşı bilirdi. Elə bildiyindən dolayı idi ki, əsl şair ömrü yaşayıb , Ustad məqamında ömrə əlvida dedi.

Bu yazını yazarkən ilk tanışlığımızdan tutmuş, onu haqq evinə uğurlayana qədər bütün yaşantılarımız gözlərim önündə canlanır. Əşrəf Şəfiyev imzası ilə tanıyıb, Əşrəf Veysəlli imzası ilə isə özümüzə Ustad bildiyimiz Əşrəf müəllim sözün əsl mənasında bütün varlığı ilə özündən sonra gələn ədəbi nəslə örnək oldu.

Onunla bağlı xatirələrə baş vurası olsam, gərək xalq dastanlarında deyildiyi kimi, qırx gün, qırx gecə danışam ki, ürəyimi boşaldam. Düşünürəm ki, zaman-zaman bu dastanın ayrı-ayrı səhifələri yazılacaq və yeni nəsil oxuculara ərməğan olunacaq. Çünki o, təkcə zəmanəmizin yox, bütün zamanların şairi olmaq haqqını qazandı. Şair taleyi yaşadı və tale şairi oldu.

XX əsrin ikinci yarısı ilə XXI əsrin başlanğıcının qovşağındakı ədəbiyyat tariximizdə "60-cılar nəsli" kimi bilinən ədəbi nəslin öncüllərindən biri olaraq tarixə qovuşdu. Yaradıcılığı ilə bağlı çoxsaylı araşdırmalar aparıldı, həmişə ədəbi tənqidin və ədəbiyyatşünasların diqqət mərkəzində yer aldı, şeirləri dillər əzbəri oldu, aşıqlar şeirlərini saza qaldırdılar, xanəndələr onun şeirlərinə dönə-dönə müraciət etdilər. Bütün bunlar onun çağdaş Azərbaycan poeziyasındakı yerini, söz sərrafı olan oxucuların qəlbindəki mübarək məqamını nişan verdi. Ölkəmizin ünlü xalq şairləri olan Osman Sarıvəlli, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nəbi Xəzri, Cabir Novruz, Xəlil Rza, Qabil və başqaları onun yaradıcılığı haqqında yüksək fikir söylədilər, aşağı-yuxarı həmyaşıdları olan xalq şairləri Musa Yaqub, Ramiz Rövşən, Zəlimxan Yaqub, Sabir



Rüstəmxanlı, eləcə də Fikrət Sadıq, Nüsrət Kəsəmənli, Çingiz Əlioğlu, Dilsuz, İsa İsmayılzadə həmişə, hər yerdə yaxın dostları olaraq Əşrəf Veysəllini çox sevdiklərini dilə gətirdilər. Azərbaycanın bənzərsiz şairi Əli Kərimin, publisistikamızın və jurnalistikamızın bənzərsiz imzası Feyzi Mustafayevin ən yaxın dostu və sirdaşı oldu. Onun Feyzi Mustafayevlə dostluğu isə ayrıca bir ədəbiyyat və həyat hekayəsinin mövzusudur. Feyzi Mustafayevlə Əşrəf Veysəllinin birlikdə yazdıqları "İki dostun bir ürəyi" kitabına hər ikisinin istəyi ilə redaktorluq etdi. Kitabın nəşri ərəfəsində yetərincə örnək macəraların şahidi oldum.

Əşrəf müəllimin yerişi, duruşu, sözsöhbəti, zarafatı, qəzəbi, sevgisi, nifrəti hər hadisəyə, hər məsələyə münasibəti, ailə-məişət davranışı, hətta məmurluğu belə şairanə idi. Bir sözlə, O, bütün məqamlarda şair olaraq qalırdı. Bir ömür bu halda qalmağı hər şair bacara bilmir. Şairlik onun taleyi idi. O, bu əzablı taleyə ləyaqətlə sahiblənmişdi və ləyaqətlə də başa vurdu. Ustadlıq məqamını da özündən sonra gələn ədəbi nəslə həm yaradıcılığı, həm də həyat yolu ilə örnək olmaqla fəth etdi. Gənc ədəbi nəslə həmişə diqqət və qayğı göstərdi, darda-çətində onların qolundan tutdu, yeni ədəbiyyata gələnlərin sevgilərini və sayğılarılnı qazandı.

Əslində, Əşrəf Veysəllinin şeir kitabları həm də onun tale kitablarıdır. Bir neçə bioqrafik şeirini oxumaq yetər ki, onun bütün özkeçmişini - tərcümeyi-halını varaqlamış olasan. Bu şeirlərdə zərrəcə də həqiqətdən sapınmaq yoxdur, əksinə, o, etirafları ilə səmimiyyət mücəssəməsinə dönür. Odur ki, oxuculara mənim bu xatirə yazımdan daha çox onun şeirlərini oxumağı tövsiyə edirəm. Çünki, Əşrəf Veysəlli şeirlərində onun canlı abidəsi var...

Sumqayıt və Əşrəf Veysəlli isə ayrıca bir yazının mövzusu olsa da, bir neçə kəlmə də bu haqda deməyin yeri var. Qısaca ifadə edəsi olsaq, deyərdim ki, o həm də şəhərimizin ədəbi siması idi. Sumqayıtda Əli Kərim adına Poeziya Klubunu quranlardan biri olmuşdu, Vaqif İbrahimdən sonra bu kluba rəhbərlik etmək onun taleyinə yazılmışdı. Bu vəzifədə çalışdığı müddətdə şəhərin ədəbi camiəsini bir araya gətirib, ciddi bir ədəbi mühit formalaşdırmışdı, ədəbi gəncliyin inkişafı üçün əlindən gələni əsirgəməmişdi.

Məhz onun sayəsində Sumqayıt ədəbi mühiti ölkənin ən öncül ədəbi mühitinə çevrilmişdi. 1990-cı ildən bu yolu davam etdirmək mənə həvalə olunsa da, hər zaman onun dəstəyinə və məsləhətlərinə ehtiyac duyurdum. Ağsaqqallıq missiyası yenə də onun boynuna düşürdü və o, bu missiyanı sevə-sevə, heç bir təmənna ummadan yerinə yetirirdi. Sumqayıt şəhər Mədəniyyət şöbəsinin müdiri olanda da, Həmkarlar Təşkilatının sədri olanda da, Teatrın direktoru olanda yenə onun cazibəsində dövr edirdik. Əşrəf Veysəlli bir şair və şəxsiyyət olaraq da cazibədar bir insan idi. Onunla hər görüşdən aydınlanmaq, işıq götürmək olurdu. Bütün varlığı ilə millətə və Vətənə bağlı idi. Şeirlərində olduğu kimi, əməlləri ilə də yeni nəslə Vətən dərsi keçirdi. Biz ondan həmişə öyrənirdik. Milli azadlıq hərəkatı zamanı həbs edilib Lefortovo zindanına atılan Xəlil Rzanın ilk müdafiəsinə qalxan və ona şeir yazıb göndərən də Əşrəf müəllim oldu. "Atdılar Zindana Xəlil Rzanı" şeirini yazmaq o vaxt üçün böyük cəsarət tələb edirdi. Əşrəf Veysəlli cəsarətli şair idi.

Əşrəf müəllimin iştirakı və rəhbərliyi ilə keçirilən, eyni zamanda mənim də iştirak etdiyim bir-birindən mənalı ədəbiyyat tədbirlərini sadalamaqla qurtarmaz. Fərdi görüşlərimizin hər biri isə ayrıca bir xatirədir.

Sumqayıt ədəbi mühitinin bütöv və şərəfli bir qərinəsi məhz Ustad Əşrəf Veysəllinin adı ilə bağlıdır. Onun əziz xatirəsi həm bizim, həm də gələcək nəsillərin qəlbində daim yaşayacaq. Zəngin ədəbi irsi dönə-dönə tədqiq olunacaq, öyrəniləcək və öyrədiləcək. Ömrünüzün davamı olan şeirləriniz isə əbədi yaşayacaq, Ustad.

**Məqamın behişt, ruhun şad olsun!**

### *Şair Əşrəf Veysəlliyə*

***Hər şair nəfsiylə bacara bilmir,***
***Hər şair keçəmmir şöhrətdən, "ad"dan.***
***Hər oğul haramsız çəkiyə gəlmir,***
***Hər oğul halallıq ummur dünyadan.***

***Səni tez oyatdı şair ilhamın,***
***Duydun - bu əzablar haqqa cəmiymiş.***
***Dedin: "Şair olmaq ayağı yalın***
***Süngülər ucunda gəzmək kimiymiş".***

***Avarı sərrastdı, ləngəri ağır,***
***Axını tərsinə üzən şairin.***
***Qanı qələmindən daşdanıb çıxır,***
***Süngülər ucunda gəzən şairin.***

***Bilirdin - bu yollar gözü qanlıdı,***
***Bilirsən - bu yollar Hələbdən keçir.***
***Bilirdin - bu dünya üzü qanlıdı,***
***Bilirsən - örkəni kələkdən keçir.***

***Köksüyün altında düşərgələr var,***
***Sən - zindan şairi, sürgün şairi.***
***Belə olmalıydı, belədi ki, var,***
***Veysəllidən çıxan türkün şairi.***

***Fitnə - fəsadlardan gen yaşayırsan,***
***Lələ, bu duyğular sənə doğmadı.***
***Çünki bu şəhərdə sən yaşayırsan,***
***Sumqayıt bu qədər mənə doğmadı.***

***İlhamın qoynundan sıyrılıb çıxıb,***
***Dərədə dumanın, zirvədə çənin.***
***Halal qələm tutan əlini sıxıb,***
***Halal ürəyindən öpürəm sənin.***

**İbrahim İlyaslı,**
**Azərbaycan Yazıçılar Birliyi Poeziya bölməsinin rəhbəri,**
**Əli Kərim adına Poeziya Evinin direktoru.**

**"Ədəbiyyat və incəsənət"**
**(15.07.2026)**

# MTTB SİYASET OKULU DERSLERİ IŞIĞINDA

## TÜRKİYE'DE GENCLİK HAREKETLERİNİN KİMLİK İNŞASI, SİYASAL BİLİNÇ GELİŞİMİ VE TOPLUMSAL DÖNÜŞÜM SÜRECİNDEKİ ROLÜ

**Türk dünyasının en köklü talebe teşkilatlarından birisi 1916 yılında Türk İslam yurdu İstanbul'da kurulmuş olan Milli Türk Talebe Birliği'dir.Bu kurum sadece bir öğrenci hareketi değil aynı zamanda imanlı,ülkülü,ilkeli,sağlam hedefleri olan Vatana, Millete,Bayrağa hizmet eden bireyler yetiştirmeyi amaçlayan bir kurumdur. Tarihini incelediğimizde üyelerinin mücadeleleri ile tanıştığımızda bunu daha iyi anlamış oluyoruz. Azerbaycan Türk'ü bir Türk olarak Milli Türk Talebe Birliği ile tanışıklığım daha eskiye**




**dayansa da temasım Siyaset Okulu eğitim programına katıldığımda başladı. MTTB'nin tarihi binasından içeriye ayağımı bastığımda, sahnenin önündeki kurumun simgesi ve tarihinin özeti olan bayraklar özellikle dikkatimi çekti. Bu kurumsal bayraklar maziyi geçmişi anlatıyor ve atiye yani geleceğe önemli iletiler veriyordu.İlk bayrakta Türklüğün ve İslam'ın simgesi olan Hilal ve Osmanlı Türkçesi'nde kurumun adı, amacı ve kuruluş tarihi yazıyordu.**

İkinci bayrakta Türk İslam Alemi'nin simgesi Ay yıldız ve şaha kalkmış bir bozkurt tasviri vardı. Aslında anlamı açıktı; tüm Türk-İslam aleminin birliğine ve Türk'ün simgesi olan bozkurtun şahlanışı ise kadim köklere sahip Türk milletinin yeniden yükseleceğine dünyayı yine adaletle yöneteceğine işaret ediyordu. MTTB'ye ait üçüncü bayrakta ise yine Türk İslam Alemi'nin simgesi ay yıldız ve rahle üzerinde açık kitap yani kutsal kitabımız Kur'an-ı Kerim'in tasviri vardı...Türk milletinin milli ve manevi değerlerine işaret ediliyordu.Kutsal Kur'an-ı Kerim'i kendisine pusula bilen Türk'ün İslam'ın bayraktarı olduğu mesajı veriliyordu.

Bayraklardan dördüncüsü ise çağımızda, h?ilihazırda MTTB'nin etkin kullanılan simgesidir. Bayrak Türkiye Cumhuriyeti Devleti'mizin şanlı bayrağını fazlasıyla anımsatıyor, kırmızı fon üzerine sağ tarafa yönelmiş ay yıldızlı tasviri ve üstte kurumun isminin kısaltması " MTTB" şeklinde yer alıyor.

Türk devletimize olan bağlılığı ve milli değerlerimizin birliğine işaret ediyor.

Bu dört bayrak aslında okuyana, anlayana kurumla ilgili önemli bilgiler veriyor. Kurumun ruhunu hedefini, amacınıanlatıyor. MTTB'nin kendi şüarıyla söylersek "Ne Zemin Ne De Bir Teras Katıyız, Biz Vatan Köşkünde çökmez ÇATI'yız!". Bu sözler açıkça,gururla Türk Vatanına,Türk Milletine hizmete adanışın şüarıdır. Daha önce bahsettim ya benim MTTB ile tanışlığım eskiye dayanıyor.




Yani Sayın Türkiye Cumhuriyeti Cumhurbaşkanımız kutlu başkanımız, Recep Tayyip Erdoğan beyefendinin MTTB'de 1975 yılında kültür Müdürlüğü yaptığını öğrenmem ve öğrencilik yıllarında MTTB çatısı altında bulunmuş Karabağ gazimiz Türkiye Türk'ü Türk komutan İshak Çelik beyi tanımamla başladı.

Siyaset Okulu vesilesiyle kendim de Milli Türk Talebe Birliği ile temas ettim ve bu köklü ailenin bir üyesi oldum.

Milli Türk Talebe Birliği'mizin genel başkanı Tahsin Başarı beyin de söylediği gibi"MTTB'de asli bir kural vardır, MTTB'ye ilk defa geliyorsanız misafirsinizdir. Misafirliğiniz sadece bir defaya mahsustur. Eğer ikinci defa geldiyseniz ev sahibisinizdir. Artık o evin,o ocağın bir paydaşısınızdır."

Siyaset Okulu programı kapsamında saygıdeğer büyüklerimizden, sayın T.C İçişleri Bakanımız Mustafa Çiftçi beyefendiden,T.C Adalet Bakanımız Akın Gürlek beyefendiden ,T.C Ticaret Bakanımız Ömer Bolat beyefendiden ve kendisinin de vaktiyle 48.Dönem MTTB genel başkanlığı görevini yürütmüş olan TBMM 27.Başkanı İsmail Kahraman başkandan ders dinlemek değerli tavsiyelerinden faydalanmak çok önemli değerli bir deneyim oldu.

MTTB sadece bir öğrenci teşkilatı değildir. Sayın İçişleri Bakanımız Mustafa Çiftçi'nin de söylediği gibi bir okul, bir mekteptir. Sayın Ticaret Bakanımız Ömer Bolat'ın belirttiği gibi özellikle gençlerin milli manevi değerler doğrultusunda yetişmesi, ülkemize, milletimize hizmet etmesi için bir ocaktır. Sayın Adalet bakanımızın beyan ettiği gibi "Milli Türk Talebe Birliği sadece söz üretmez aynı zamanda istikamet tayin eder. Bu çatı altında yetişen kadrolar Türkiye'nin kaderine yön vermiştir."

Bunun en etkileyici ve önemli örneğini Türkiye Cumhuriyeti Devletimiz de görmüş oluyoruz.

Dünyanın ve Türkiye'nin en köklü yükseköğretim kurumu İstanbul Üniversitesi ile işbirliğinde 20 Haziran 2026 tarihinde gerçekleştirilen "Siyaset Okulu'nun mezuniyet ve sertifika töreni Türkiye Büyük Millet Meclisi Başkanı Sayın Numan Kurtulmuş beyefendinin katılımı ile gerçekleştirildi. Sayın Numan Kurtulmuş beyefendiyle sohbet etmek nasip oldu. Kendileri Azerbaycan'a karşı sevgisini her zaman olduğu gibi dile getirdi. Gönül coğrafyamız, kardeşimiz, Can Azerbaycan" diye özellikle belirtti. Kendilerine samimi sohbeti,cana yakın tavrı ve asil Türk duruşu için özellikle teşekkür ediyorum.

**Not:** Siyaset Okulu'ndan mezun olan katılımcılar, belge edinmeye hak kazananlar sertifikalarının dijital haline Ekim ayında ulaşacaklardır.

Türk Devleti'mizin,Türkiye Cumhuriyeti Devleti Cumhurbaşkanımız Recep Tayyip Erdoğan beyefendinin de söylediği gibi "1916 yılında kurulan Milli Türk Talebe Birliği,Türkiye'nin en köklü öğrenci teşkilatı olarak dalları vatanımızın dört bir yanına uzanan,binlerce talebeyi gölgesinde serinleten büyük bir çınardır". Bu köklü çınarın gölgesinde serinlediğim için bir Azerbaycan Türk'ü olarak çok memnun oldum.

**Türk Devleti Azerbaycan Devleti'mizin başkanı olan Cumhurbaşkanımız İlham Aliyev beyefendinin "Türk dünyası bizim ailemizdir, başka bir ailemiz yoktur.Bu aileyi geleceğe taşımak için ortak çabalarımız hayati önem taşımaktadır. Bu Azerbaycan dış politikasının en öncelikli konusudur." sözleri çok kıymetli ve önemlidir. Bu doğrultuda milli ve manevi şuurlayetiştirilmiş ve siyasetini bu istikamette yürüten,Türkce yani soydaşlarına taraf, Müslümanca yani imanlı adaletli ve hoşgörülü duruş sergileyen imanlı, ülkülü, ilkeli nesiller yetiştirmeyi hedefleyen MTTB'nin kadim Türk yurdu Can Azerbaycan'da da en kısa zamanda bir şubesini faaliyete geçirmesini bu kutlu hizmete başlamasını dilerim...**

**Aynur TALIBLI,**
**Tarih ve Medeniyet Araştırmacısı**

---



Qəşəm İSABƏYLİ

# ANAMIN QƏBİR YERİ

hekayə

Haçan ki, kəndimizə yolum düşür, ilk gedəcəyim yer qəbiristanlıq olur. On illərlə qabaq dünyanı tərk eləmiş insanlar qərib nəzərlərini dikir üzümə. Salavat çevirib, çəkilib dururam doğmalarımın ayağı ucunda. Cəmi yeddi təpik torpaq ayırır bizi. Gəl ki, onlar artıq ruh olub...

Şəhərə qayıdanda nəvəmlə fikrimi bölüşürəm:

-Babalarının, ulu nənənin qəbirlərini ziyarət elədim.

Eşitmək istədiyim müsbət reaksiyanın əvəzinə nəvəm özünəməxsus cavabla qarşılayır məni:

-Ay baba, başa düşə bilmirəm, hər dəfə qəbiristanlığa getməyinin nə mənası var?! Həmin gördüyün qəbirlərdi, həmin gördüyün sinə daşlarıdı, baş daşlarıdı.

-Ay bala, dünyadan köçənlərimizin ziyarətinə gedəndə, onların sağ olduğu vaxtlar düşür yadıma. Ötən günlərin sevincində elə itib-batıram ki, hətta gülümsəyirəm də.

-Ay baba, artıq onlar torpağ olub, sümükləri də əriyib gedib.

Nəvəmin belə sözlərini həzm eləyə bilmirəm:

-Bala, internetdə o qədər mənasız olaylara baxmısan ki, fikirlərin dolaşıq düşüb. Öz nəsil-nəcabətini yad eləmək səndən ötrü bir məna daşımır. Məsələ bu ziyarətin və ya ölüyə ağlamağın faydasında deyil. - Qoca-yeniyetmə düşüncəsi çarpazlaşıb, mübahisə yaratmasın deyə, söhbəti uzatmıram...

Yadımdadır, 16 il əvvəl növbəti ziyarətim idi qəbristanlığı. Dəmir hasara söykənib, xəyala gedib, doğmalarımın şəkillərinə baxırdım. Birdən ailəmizin dünyadan köçən, bizə olduqca böyük acılar yaşadan ilk üzvü - 19 yaşlı ortancıl qardaşımın qəbrinin sol əlində bir qəbirlik yer gördüm. Özözümə dedim, bu da anamın qəbir evi. Ürəyimdən, ani bir fikir ötdü - anam olmasaydı, bu yer mənim olacaqdı!

Üç il sonra anam şəhərdə rəhmətə getdi. Bacılarım dedi, vəsiyyət eləyib ki, kəndə aparmayın məni.

Anamın "Ölüm" sözündən acığı gələrdi. Amma ölümdən də qorxmazdı.

Xəstəxanada sağalacağına ümidi olmayan vaxtlarında hər gün baş çəkirdim ona. Bir dəfə dedi: "Günümü görüb, dövranımı sürmüşəm, ay bala, təki Allah sizə dəyməsin!".

Anamın bu nəhs uzaqgörənliyi, yəqin ki, cənab Əzrayılın kefinə bərk dəyibmiş. Yoxsa nə olmuşdu ki, düz 30 il arvada heç gözünün ucuyla da baxmadı.

Yaşı 90-ı haqlasa da, deməzdik, ana, bəlkə vəsiyyət eləyəsən!

Bu, ondan ötrü sabahına ümidsizlik olardı.

Əməlli-başlı yaşını dəqiq də bilməzdik. Qəsdən hərdən soruşardım:

-Neçə yaşın var, ay ana?

-Vallah, anamın dediyinə görə bacım Qudyal qalın qarda doğulub.

-"Qalın qar" nə deməkdi?

-El arasında 1925-ci ilə deyirdilər. Onda o qədər qar yağıbmış ki, Kür çayı buz bağlayıbmış. Kənd adamları çayın o tayından arabayla odun qırıb gətirirmiş. Mən də kiçik bacım Tamaşayla Qudyaldan xeyli sonra doğulmuşuq.

Hesablayanda görürdüm ki, anam real yaşından 3-4 il də kəsib. Bəlkə də qorxurdu yaşı gözə gələr.

Ölüb gedərdim gülməkdən:

-Pis nəzərdən uzaq olasan, ay ana, öz aramızdı, maşallah, deyəsən ildən-ilə cavanlaşırsan!

Bu yaxınlrda Hacağa əmim oğlunun yasına getmişdim. Adətim üzrə Hacı Hacıoğlan əmoğlumla qəbiristanlığa da dəydik. Girib doğmalarımın qəbirlərin arasında - anamın qəbir yerində dayandım:

-Əmioğlu, durduğum bu yer mənə yaman doğma olub. Burada bir şəklimi çək.

Fikirləşdim ki, anamın qəbir evi şəhərdə qərib qaldı, qəbir yeri isə kəndimizdə.

Ruhu şad olsun!

---

## "TikTok" 3 ay ərzində Azərbaycanda 590 min videonu silib

**TikTok 2026-cı ilin birinci rübü üzrə "İcma Qaydalarının tətbiqi haqqında" hesabatını açıqlayıb.**

Adalet.az xəbər verir ki, hesabata əsasən, 2026-cı ilin yanvar-mart aylarında Azərbaycanda:

İcma Qaydalarınının pozulmasına görə 590 mindən çox video silinib;

Silinən videoların 99,4%-i platforma tərəfindən proaktiv şəkildə, yəni istifadəçi şikayəti daxil olmadan aşkarlanaraq aradan qaldırılıb;

İcma Qaydalarına uyğun olmayan videoların 95,7%-i dərc edildikdən sonra ilk 24 saat ərzində silinib.

Eyni dövr ərzində TikTok qlobal miqyasda: İcma Qaydalarını pozan 184 milyondan çox videonu silib;

Qayda pozuntularının 99,3%-i istifadəçi şikayəti daxil olmadan aşkarlanıb;

Bu cür kontentin 94,4%-i dərc edildikdən sonra ilk 24 saat ərzində silinib.

2025-ci il ərzində isə TikTok Azərbaycanda İcma Qaydalarının pozulması səbəbindən 3,6 milyondan çox videonu platformadan silib.



Lamiə Nazimqızı

# Bu mənəm

**Düşünürəm də, mən özü özünü doğmuş biriyəm. Özünü acılarından, yoxluqlardan, həsrətindən, əzablarından, arzuladıqlarından, ola bilmədiklərindən, hüznündən, sitəmindən doğmuş biri...Kim mənə qalib ola bilər ki? Vücuduma bəlkə də...Ya ruhuma? Düşüncələrimə? Xəyallarıma? Kim onlara hökm edə bilər? Kim mənə bütünü ilə sahib ,hökmran ola bilər?!..**

**Mən bir sərçənin göz yaşlarından da həzinəm, incəyəm..Kim mənim zərafətimi öz kirində, pasında məhv edə bilər? Kim qəlbimə hökm edə bilər?!.**

**Kim mənim düşüncələrimin dərinliyində qulac ata bilər??**

**Mən özü öz qollarına sarılmış biriyəm... Özü öz qulağına təsəlli sözləri pıçıldamış biriyəm..Kim mənim mənimə əmr edə bilər?..**

**Mən özü özünü ağlamış, özü özünü oxşamış, özü özünü qınamış biriyəm...Kim mənim dünyama ağalıq edə bilər??!**

**Mən hər düşüşümdə böyüyən biriyəm...Kim öz xain dünyası ilə məni kiçildə bilər?!**

**Dünyama dünyası bənzəməyənlər, ruhuma ruhu oxşamayanlar, qəlbimin dərinliyini bilməyənlər, düşüncələrimin aliliyini duymayanlar, mən özünü öz bətnindən doğan qadınam! Bu mənəm...**

***Tərəfəm.***
***İlahi, gün batan tərəfəm...***
***Solğun, işıqsız...***
***İl bitən tərəfəm,***
***Yorğun və bitgin.***
***Ağrıyan bədənəm,qanayan yara,***
***Məzara tərəfəm,məzardan iraq...***
***İlahi, söz bitən tərəfəm...***
***Çarəsiz,səssiz..***
***Yer bitən tərəfəm,***
***Qohumsuz, sənsiz..***
***Uzaqlardan uzaq,***
***yadlardan yadam...***
***İt qapan tərəfəm ,itlərdən iraq...***
***İl bitən tərəfəm,***
***Arzusuz, hissiz...***
***Umidlərdən uzaq,***
***sevgidən uzaq...***
***İlahi, it hürən tərəfəm..***
***Vicdandan, namusdan,***
***qeyrətdən iraq....***

***Asdım.***
***Özümü asdım xəyallarımdan...***
***Dağılan, tükənən...***
***Özümü asdım ümidlərimdən, atam balası,***
***ümidlərimdən...***
***Sönən, avazıyan...***
***İnsan tək dar ağacından asmır özünü, atam balası...***
***İnsan kirpiyindən asır hərdən özünü,***
***Hərdən gözlərindən...***
***İnsan özünü asır itirdiyi illərindən,***
***Məhv etdiyi qədərindən...***
***Atam balası, insan özünü bir sərçənin***
***göz yaşından asır bəzən...***
***Bəzən yaralanmış ürəyindən...***
***Qəlbində qalan dərdlərindən,***
***Solub gedən gəncliyindən...***
***İnsan özünü asır ümidsizliyindən....***
***Asdım özümü arzularımdan...***
***Həyata keçməyən...***
***Asdım özümü başqalarının divarından,***
***yamaq kimi, quraq kimi, atam balası....***
***Asdım!!!***

**Tanrının qəzəbi.**

**Biz Tanrının göz yaşlarıyıq.. Dünyaya atdığı..Qurtulmaq istədiyi..Ağır yükü, özündən uzaqlaşdırdığı..Yüngülləşdiyi.. Silib atdığı..Unutduğu..Biz Tanrının göz yaşlarıyıq..Acıdan yaranan..Dərddən axan..Ona gərədir bu yalnızlığımız ..Bu tənhalığımız..Ona gərədir bu boşluğumuz..Ona gərədir üzüldüyümüz..Atılan..Silinən.. Unudulan ...Tanrının göz yaşları- bədbəxt insanlar..Tanrının göz yaşları- xəstə insanlar. Tanrının göz yaşları-müharibənin qurbanları..Tanrının göz yaşları-əlil uşaqlar...Tanrının göz yaşları ilə bu dünyanın cəhənnəminə qovulmuşuq ...Biz unudulmuşuq...**

**Ruhum...**

**Ruhumun qanadları səmalara pərvazlanır istəmsizcə..Ruhumun savaş verdiyi bu döyüşdə qalib kimdir ,nədir bilmirəm.. Ruhumun hayqırışları, iniltiləri, sızıltıları dünyanın qulaqlarını kar edib. Amma insanlar duymur, eşitmir, görmür...Ruhumun yaraları var, qanayan. Ruhumun dərdləri var, ağrıyan. Ruhumun gözləri var, ağlayan... Ruhumun əlləri var, mərhəmətlə qucaqlayan. Ruhumun qanadları var...Azadca uça bilən. Özümdən qaçan, dünyanı dolaşan, vuruşan, çabalayan...Ruhumun əlləri var, qandallarını sındıran..Ruhumun dilləri var, sevən, sevdirən...**



**Adilə Nəzərova,**
**Filologiya üzrə fəlsəfə doktoru**

# SÖZ SAHİBİ QADINLAR

**Biz bu gün isti evimizdə əyləşib, əlimizdə telefon dünyanı izləyərkən, keçmişi mühakimə etmək çox asan görünür. Tez-tez eşidirik: İslam qadını sıxışdırır, keçmişdə kişilər niyə bu qədər qadınla evlənirdi, İslam dini qadını alçaldır və s. kimi suallar bəzən bilgisizlikdən, bəzən də o dövrün insanının nələr çəkdiyini təsəvvür edə bilməməkdən doğur. Amma gəlin tarixin zaman çarxını bir az geri fırladaq və VII əsrin Ərəbistanına, o qızmar səhralara boylanaq. Bitmək bilməyən qəbilə davaları ilə qovrulan, güclünün zəifi əzdiyi bir coğrafiya təsəvvür edin. O coğrafiyada nə dövlətin verdiyi dul qadın müavinəti var idi, nə sığınacaqlar, nə də təkbaşına ayaqda qala biləcək bir sosial sistem.**

İslamdan əvvəl qadın miras ala bilməzdi, əksinə, özü bir əşya kimi mirasa gedərdi... Doğulan qız uşaqlarının diri-diri basdırılması isə o dövrün amansız səhra qanunlarının gətirdiyi bir rəzalət idi. Bax belə bir qaranlığın içində İslam gəldi və ilk iş olaraq qadını əşya olmaqdan çıxarıb "söz sahibi" etdi. Ona mülkiyyət haqqı verdi, miras haqqı tanıdı və onu cəmiyyətin mərkəzinə çəkdi.

İslamdan sonra qadınlar heç də zəif və səssiz deyildilər. Onlar ictimai həyatın hər yerində idilər - bazarda ticarət edir, məsciddə xütbə oxunarkən ayağa qalxıb öz hüquqlarını tələb edirdilər. Hətta "Quran"ın Əhzab surəsinin 32-ci ayəsində Peyğəmbər xanımlarına belə buyurulurdu: "Ey Peyğəmbər zövcələri! Siz başqa qadınlar kimi deyilsiniz. Əgər Allahdan qorxursunuzsa, (yad kişilərlə) ədalı danışmayın, yoxsa qəlbində xəstəlik olan bir kimsə (sizə qarşı) ümid bəsləyər. Düzgün danışın!" Bu ayə bizə çox mühüm bir həqiqəti pıçıldayır: Deməli, o dövrün qadınları evdə qapalı qalmırdılar, cəmiyyət arasında fəal şəkildə danışırdılar, elm-əxlaq öyrədir, insanlarla ünsiyyət qururdular. Allah təala sadəcə bu ünsiyyətin rəsmi və qoruyucu bir çərçivədə olmasını istəyirdi ki, qadının o güclü səsi yanlış anlaşılmasın.

Bəs onda hamını düşündürən o məlum sual meydana çıxır: Əgər qadın bu qədər dəyərli və söz sahibi idisə, niyə çoxarvadlılıq var idi? İmamlar, tarixi şəxsiyyətlər niyə birdən çox qadınla evlənirdilər?

Cavab əslində çox sadə və insanidir: Birincisi mərhəmət; ikincisi sağ qalmaq mübarizəsi və böyük gələcək naminə qurulan ittifaqlar.

O dövrdə o coğrafiyada hər il böyük müharibələr baş verir, yüzlərlə, minlərlə kişi həlak olurdu. Səhranın ortasında təkbaşına qalmış bir qadının uşaqlarını qoruması, dolandırması fiziki olaraq qeyri-mümkün idi. Əgər o dövrdə hər kişi yalnız bir qadınla evlənə bilsəydi, minlərlə dul qadın və yetim uşaq küçələrdə hər cür təhlükəyə açıq vəziyyətdə məhv olacaqdı. O dövrün evlilikləri indiki kimi sadəcə "romantika" üzərində qurulmurdu, bu, bir ailəni, bir nəsli qorumaq üçün çiyinə götürülən ağır maddi və mənəvi yük idi. Peyğəmbərin və imamların evləndiyi qadınların demək olar ki, əksəriyyəti müharibələrdə ərini itirmiş, himayəyə möhtac dul qadınlar idi. Bu evliliklər həmin qadınları cəmiyyətin içində ucaltmaq və uşaqlarına sahib çıxmaq üçün atılan ən humanist addım idi.

Tam bu məqamda "Quran"ın bəzən çox yanlış anlaşılan, məsələyə səthi yanaşanlar tərəfindən fərqli tərəfə yozulan, bəzən də biləbilərəkdən təhrif edilən bir ayəsinə - əl-Bəqərə surəsinin 223-cü ayəsinə diqqət yetirək. Ayədə buyurulur: "Qadınlarınız sizin tarlanızdır..." Müasir dövrün insanı bu cümləni oxuyanda elə bilir ki, burada qadın alçaldılır. Unutmayaq ki, Quran ayələri mənzum şeir dilindədir, yəni oradakı sözlərin, bənzətmələrin çoxu dərin məcazi anlam daşıyır. Səhra şəraitində yaşayan, hər an yox olmaq təhlükəsi ilə üz-üzə qalan bir cəmiyyət üçün "tarla" və "əkin" sözü həyatın, bərəkətin və gələcəyin rəmzi idi. Allah burada kişilərə pıçıldayırdı ki, qadın sizin sadəcə keçici həvəsiniz, eyş-işrət vasitəniz deyil. O, sizin nəslinizi davam etdirəcək, ailənizi, torpağınızı, namusunuzu qoruyacaq oğullar, qəhrəmanlar yetişdirən müqəddəs bir ocaqdır, bir bərəkət rəmzidir. Kişi öz gələcəyini qorumaq, cəmiyyətə bir sipər bəxş etmək üçün o tarlaya - yəni ailəsinə sevgiylə, məsuliyyətlə yanaşmalı, orada gələcəyin böyük şəxsiyyətlərini yetişdirməlidir. Bəli, məhz yetişdirməlidir...

Tarixdə bu ali missiyanı - ailəni adi bir evlilikdən çox gələcəyin böyük sipərini yetişdirmək yolu kimi görən ən parlaq nümunə məhz Həzrət Əlinin (ə) addımı idi. Həzrət Fatimənin vəfatından illər sonra o, qardaşı Əqilə müraciət edərək deyir: "Mənə elə bir qadın tap ki, ərəb dünyasının ən cəsur nəsillərindən olsun. Çünki mənə Kərbəlada Hüseynə dayaq olacaq qəhrəman bir oğul lazımdır." Beləcə, o, Ümmül-Bənin (Bəni-Kilab qəbiləsindən olan Fatimə) adlı güclü, şərəfli bir qadınla evlənir.

Bu evlilikdən tarixin ən böyük qəhrəmanlarından biri - Həzrət Abbas doğulur. Aşura faciəsində, o dəhşətli Kərbəla çölündə hamı Hüseyni tək qoyanda, Abbas öz canı, qanı bahasına qardaşını, Peyğəmbər ailəsini və qadınları qoruyur. İndi düşünək: Əgər o dövrün evliliklərinə sadəcə kor-koranə "çoxarvadlılıq" damğası vursaq, Həzrət Əlinin bu müdrik addımını, Ümmül-Bənin kimi fədakar bir ananın tarixə bəxş etdiyi Abbas qəhrəmanlığını necə anlaya bilərik? O qadınlar bir ailəyə gələndə kölgədə qalmırdılar, əksinə, gələcəyin qəhrəmanlarını böyüdən, tarixi formalaşdıran ana dirəyə çevrilirdilər.

Buradan anlayırıq ki, Quran həm də endiyi o dövrün, o coğrafiyanın acı reallıqlarına, insan ehtiyaclarına həll yolları gətirən ilahi bir qanundur. Allah-Təala hökmlərini göydən mücərrəd bir fəlsəfə kimi endirmədi, o qızmar səhranın qanlı-canlı problemlərinə toxunaraq, o dövrün insanının yarasına məlhəm oldu. VII əsrin səhra şəraitində kimsəsiz qadını qorumağın yegənə yolu bu evliliklər idisə, ilahi qanun da buna rəvac verdi. Din dəyişməz ədalət və mərhəmət prinsiplərini o dövrün şərtlərinə uyğunlaşdırıb tətbiq etdi.

**Bu gün islam dininin qadına verdiyi dəyəri görməyənlər, keçmişin o çətin reallıqlarını və insanlıq dramlarını unudanlardır...**

# Bioloji yaşınızı artıran səhvlər

**"Gündə cəmi bir stəkan şəkərli qazlı içki qəbul edən insanların telomerləri qısalır. Bu isə hüceyrələrin təxminən 4-5 il daha tez qocalmasına bərabərdir və siqaretin telomerlərə mənfi təsiri ilə müqayisə oluna bilər".**

Adalet.az xəbər verir ki, bunu "Sağlam radio"nun (93 FM) "Sağlam səhər" verilişində Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov deyib.

Onun sözlərinə görə, şəkərin orqanizmə mənfi təsirinin ikinci mexanizmi dəridə baş verir və qlikasiya adlanır:

"Artıq şəkər qanda zülallara, xüsusilə kollagen və elastinə bağlanaraq onları sərtləşdirir. Nəticədə dərinin elastikliyi azalır, rəngi dəyişir və dərin qırışlar yaranır. Maraqlıdır ki, meyvə şirələrində və bəzi şirinləşdiricilərdə çox olan fruktoza bu prosesi adi şəkərdən təxminən yeddi dəfə daha sürətləndirir. Beləliklə, şəkər həm hüceyrələri daxildən, həm də dərini xaricdən qocaldır". Mütəxəssis-ekspert bildirib ki, əlavə şəkər həm də orqanizmdə iltihab proseslərini gücləndirir: "Artıq şəkər qanda iltihab göstəricilərini, o cümlədən yüksək həssaslıqlı C-reaktiv zülalın (hs-CRP) səviyyəsini artırır. Araşdırmalar göstərir ki, gündə 40 qramdan artıq əlavə şəkər qəbul edən insanlarda iltihab riski 50 faizdən çox yüksəlir. Burada əsas təhlükə meyvələrin tərkibindəki təbii şəkər deyil. Meyvələri rahatlıqla yemək olar, lakin meyvə şirələrinin həddindən artıq qəbulu məsləhət görülmür. Əsas məhdudlaşdırılmalı olan əlavə şəkər və şəkərli içkilərdir".



Emin Məmmədov qeyd edib ki, kifayət qədər su qəbulunun da bioloji qocalmanın ləngidilməsində mühüm rolu var. Onun sözlərinə görə, uzun müddət kifayət qədər su qəbul etməmək orqanizmin daha sürətli qocalmasına səbəb ola bilər.

Sonda mütəxəssis vurğulayıb ki, sağlam qocalmanın sirri mürəkkəb və ya bahalı üsullarda deyil: "Əlavə şəkərin azaldılması, vitaminlərin məqsədəuyğun qəbulu, gündəlik fiziki aktivlik və kifayət qədər su içilməsi hər kəsin həyatına tətbiq edə biləcəyi sadə vərdişlərdir. Məhz bu kiçik dəyişikliklər uzunmüddətli perspektivdə bioloji yaşımıza ən çox təsir göstərən amillərdən biridir. Gənc qalmağın sirri çox vaxt aptekdə deyil, gündəlik həyat tərzimizdə gizlənir".



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# XOŞBƏXTDİR YAZDIQLARIYLA, YARADICILIĞIYLA

**İlhamə Məhəmmədqızı. Sumqayıtda - bu şəhərin adını daşıyan qəzetdə çalışır. ”Zərdabi” mükafatı laureatıdır. Əlli yeddi illik ömr”ünün qırx ilini bütün varlığı ilə bağlandığı jurnalistikaya həsr edib. Bədii və publisistik yazıları təkcə respublika mətbuatında deyil, bir sıra xarici ölkə mediasında çap olunub. Onun şairliyi, nasirliyi də var - ”Xatırla məni”, ”Dərdə açma qapını”, ”Söz dünyası”, ”Ömrün naxışları”, ”Hikmət dünyası”, ”Zirvəyə doğru” və s. kitabların müəllifidir. Onun jurnalistlik fəaliyyətini, bədii yaradıcılığını vaxtilə və indinin özündə layiqincə qiymətləndiriblər. Görkəmli ədəbiyyatşünas-akademik Kamal Talıbzadə yazıb ki: ”İlhamə Məhəmmədqızı özünəməxsus yaradıcılığı ilə oxucu qəlbinə yol tapa bilmişdir. Yazılarındakı təvazökarlıq, təmkin təbiətinə xas əlamətlərdəndir və onun ədəbi mühitdə sevilib-seçilən sənətkarlardan olacağına şübhə etmirəm”. Professor Mürsəl Həkimov: Daim yazıb-yaratmaq eşqilə çırpınan ürəyində sənətə sonsuz məhəbbəti var İlhamə Məhəmmədqızının. mənsur şeirləri uğurlu yaradıcılığından xəbər verir”. Gözəl şairəmiz Nurəngiz Gün görün, nə yazıb: ”Üzü, gözləri, bütövlükdə çöhrəsi gözəl sənətkarın-İlhamənin elə yaradıcılığı da gözəldir. İçi üzə yazılır”. Şair İbrahim İlyaslı: ”İlhamə xanım mənsub olduğu nəslin jurnalistləri sırasında respublika mətbuatında öz sözünü deyən, düz sözünü deyən, imzasını təsdiq etmiş peşəkar kimi çıxış edir. Görünür, İlhamə xanımın ədəbi yaradıcılıqla da məşğul olması səbəbindəndir ki, onun publisistikasında bədii meyllər daha güclüdür”. Misalların sayını yenə artıra mbilərəm. Amma gəlin, bu təriflərdən sonra onun yaradıcılığına da nəzər salaq.**

İlhamə Məhəmmədqızını jurnalistlik fəaliyyətinə görə peşəkar adlandırmaq olar. O, ”Sintez”, ”Kauçuk”, ”168 saat” ”Borçalı”, ”Qafqazpress”, ”Azad Azərbaycan” qəzetlərində, ”Azərbaycan dünyası”, ”İTMağazine”, ”Formula uspexa” jurnallarında çalışıb, ictimai və mədəni həyatın müxtəlif sahələri ilə bağlı məqalələr çap etdirib, öz sənətinin zirvəsini fəth edən insanlar haqqında portret yazılar qələmə alıb, tanınmış elm, incəsənət, tibb xadimləri ilə maraqlı müsahibələr aparıb. Yazılarında ən başlıca məziyyət həqiqət hissidir.

Onun ”Vətən müharibəsi qəhrəmanı” igid şəhidimiz Anar Şükürovun anası ilə bağlı yazısını kövrəlmədən oxumaq olmur. Ana görün nə söyləyir: ”Hər dəfə qapı açılanda boylanıram ki, bəlkə gələn Anardır. Elə bilirəm ki, döyüşdədir, gələcək. Ürəyimdə təskinlik tapıram ki, övladım Vətən uğrunda həlak olub. Mənə deyirdi ki, bir ovuc torpaq uğrunda ölmək şərəfdir”.

Onun yazılarının əksəriyyəti Sumqayıtla bağlıdır. İlhamə xanım Sumqayıtda yaşayıb-yaradan sənət adamlarının taleyinə işıq salır, onların keçdikləri ömür yolunu canlandırır və hər bir sənət adamının özünəməxsus dünyasından söz açır. Məsələn, onun ”Sənət sevgili insan” yazısı yazıçı Ağəddin Mansurzadəyə həsr edilib. O Ağəddin Mansurzadə ki, onun bütün həyatı Sumqayıtla bağlı idi.Sumqayıtın ədəbi-mədəni həyatının canlanmasında A.Mansurzadənin rolu az olmayıb. ”Əsərlərində insan psixologiyasının mürəkkəb qatları, xüsusiyyətləri ustalıqla şərh edilir.

Əxlaq, mənəviyyat məsələləri Ağəddin Mansurzadənin bütün əsərlərində öz əksini tapır”.

İlhamə xanımın jurnalistik fəaliyyətində onun müsahibələrinin də xüsusi yeri var. Müsahibə jurnalistikada ayrıca bir formadır. Onu hazırlamaq o qədər də asan deyil. Jurnalistin məharəti bu formada özünü göstərə bilər. İlhamə xanımın müsahibələri əsasən yaxşı tanıdığı sənət adamları ilə bağlıdır.Tanınmış şair-bəstəkar Xanım İsmayıl qızı, yazıçı-rejissor Ağalar İdrisoğlu və tənqidçi Vaqif Yusifli ilə aparılan müsahibələrin diqqət çəkən cəhətləri nədən ibarətdir? İlk növbədə, jurnalist xanım onları-bu tanınmışları yetərincə duya bilir. Onların sənət taleyini izləyə bilir. Məsələn, Xanım İsmayıl qızına belə bir sual verilir: ”Cəmiyyətdə bəzən yalançılıq, paxıllıq, riyakarlıq, ikiüzlülüklə qarşılaşanda o anda hansı hissləri keçirirsiniz?” Cavabı bu olur:



”Mən cəmiyyətdəki yaxşı və pis nə varsa, hamısını normal qəbul edirəmö Dolu, mənəviyyatı zəngin, savadlı, özündən razı yox, özünə arxayın insan həmişə təvazökar olur Amma mənəviyyatca yoxsul insana gəldikdə ağır xəstəliyə tutulmuş insanı necə həyata qaytarmaq olar?”.

İlhamə Məhəmmədqızı axtarışçı jurnalistlərdəndir. O qədər də tanınmayan, lakin tanıdılmağa layiq bəstəçilər, müğənnilər, müəllimlər, tibb işçiləri var ki, onlardan söz açmaq, ictimaiyyətə tədim etmək vacibdir, zəruridir. Məsələn, keramist-rəssam Nəsibə Şükürovanı tanıyanlar var, amma məhdud dairədə... ”Nəsibənin sənət dünyası” yazısında bu keramika ustasının sənət yolu haqqında bitkin təsəvvür əldə edirik. Yaxud ”Bir səsin sehrində” yazısında vokal ifaçısı və bu sahədə də pedoqoji fəaliyyətlə məşqul olan Afət Zeynalova ilə bizi tanış edir. Onun yazılarında Sumqayıtda yaşayan, öz sənətinin loğmanı olan tibb işçilçri də hərarətlə vəsf edilir. Sehri Fərəc oğlu Babayevi, Nigar Nizami qızı İsayevanı, Ofelya Rzabala qızı Rzayevanı bəlkə lə elə Sumqayıtda tanıyırlar, amma İlhamə xanım onları bütün Azərbaycana tanıdır.

İlhamə Məhəmmədqızının şeirləri, hekayələri, povestləri və mənsur şeirləri ilə tanış oldum. Bu bədii yazılar heç də ötəri həvəsdən, ”baxın, mən də şeir yazıram” fikrindən uzaqdır. Hiss olunur ki, onun şeirləri də, hekayələri də təbii ilhamından bəhrələnir, yəni içində bir od yoxsa və bu od şeirə çevrilirsə, niyə o odun pərvanəsi olmayasan?

Onun şeirlərini mövzuca iki şaxəyə ayırmaq olar. ”Vətən” deyən şeirlər və lirik şeirlər. Azərbaycana - Vətənə həsr etdiyi şeirlərlərində bəzi misralar, bəndlər var ki, bunlar təzə səslənir: ”Qərib eldə sorağımız Vətəndi”, ”Lay-lay deyən qucağımız Vətəndi” və s. ”Şuşa həsrəti” şeiri bizim o illərdə ağrısını çəkdiyimiz, hətta ümidini üzdüyümüz Şuşaya həsrətimizi ifadə edir. İlhamə xanımın şəhidlik mövzusunda xeyli şeirləri var. ”Ana fəryadı”, ”Şəhidin Allahdan son istəyi”, ”Balam gəlmədi” ”Yaralı əsgər” və s. Bu şeirlərdə biz oğul dağı görən anaların fəryadını eşidirik.

***Analar dəryadı, analar dağdı***
***İndi göz yaşımdı mənimçün çörək.***
***Ananın qəlbində balası sağdı,***
***Odur ki, deyirlər balam gəlmədi.***
***Analar ah çəksə, dünya qocalar,***
***Hələ soruşurlar balam gəlmədi?***

”Şəhidin vəsiyyəti” şeirində isə şəhidin özü dilə gəlir”

***Tabutu açmayın dəfn eləyəndə***
***Saralmış yanağı, solmuş üzümü,***
***Sinəmdə yer açmış yara izini,***
***Yumulmuş gözümü anam görməsin!***

İlhamə Məhəmmədqızının lirik şeirlərini (daha çox sevgi, məhəbbət mövzusundadır) səciyyələndirirəm. Bu şeirləri payız lirikası adlandırmaq olar. Lirik şeirlərdə daha çox ayrılıqdan, ötən illərin unudulmaz xatirələrindən söz açılır.Nə qədər kədər, qüssə olsa belə, ayrılıqdan söz düşsə də, onun lirik qəhrəmanı yenə eşqin qüdrətinə, bütün ayrılıqların bitəcəyinə inamı azalmır:

***Üz tutub gedək biz üzü sevdaya,***
***Olsun son nəfəsi zülmət gecənin.***
***Keçək sınaqlardan hər an inadla,***
***Xatirə dil açsın, eşq tükənməsin.***

Bu dünyada çox şeylər tükənir. Amma tükənməyən bircə hiss var: MƏHƏBBƏT,

İlhamə xanım sevgi duyğularını mənsur şeirlərində də davam etdirir. Onun mənsur şeirlərini lirik şeirlərindən qətiyyən ayırmaq olmaz. ”Bil ki, mənəm” mənsur şeirində o, sevən qadını-nigarançılıq içində yaşayan qadını susmuş bir çiçəyə bənzədir: ”Nigaran bir gül görsən, bil ki, mənəm. Dilsiz, lal, ümidsiz, gümansız bir gül. Bülbülünün təranəsi susmuş bir çiçək. Heç olmasa, könül səsimi duymadın. Durnaların qanadında olaydım. Soyuğuna dözməyib uçaydım kaş. Uca-üca dağların başına qalxaydım. Ayın yalqızlıq qəminə, tənhalıq dərdinə şərik olaydım. Geniş göy, təmiz səma uzadaydı ömrümü”. İlhamə Məhəmmədqızının hekayələrini və iki povestini də oxudum, bunlar da lirik nəsr nümunələridir.

**İlhamə Məhəmmədqızının jurnalistik fəaliyyəti və bədii yaradıcılığı barədə söhbətimi burada bitirirəm. Öz xoşbəxtliyini yazılarında, yaradıcılığında axtaran bu xanıma uğurlar arzulayıram!**

## *Dənizdə rekord həcmdə qızıl ehtiyatı aşkarlandı*



**Yaponiyada yerləşən sualtı vulkanik kraterdə indiyədək qeydə alınmış ən yüksək qızıl konsentrasiyası müəyyən edilib. Alimlər kəşfin həm iqtisadi, həm də ekoloji baxımdan mühüm nəticələr doğura biləcəyini bildirirlər.**

Adalet.az xəbər verir ki, ”Scientific Reports” jurnalında dərc olunan araşdırmaya əsasən, Tokio şəhərindən təxminən 350 kilometr cənubda, İzu adaları yaxınlığında yerləşən Hiqaşi-Aoqaşima kalderasında rekord həcmdə qızıl ehtiyatı aşkarlanıb.

Şizuoka, Vaseda və Tokio universitetlərinin alimləri ilk dəfə 2015-ci ildə müəyyən edilmiş hidrotermal yataqlardan robot qollar vasitəsilə qaya nümunələri götürüblər. Müasir analiz üsulları sayəsində okeanın dibində çılpaq gözlə görünməyən ”görünməz qızıl” yataqları üzə çıxarılıb.

Tədqiqatçılar müəyyən ediblər ki, qızıl hissəcikləri ”saxta qızıl” kimi tanınan pirit mineralının daxilində atom və nanopartikül formasında yerləşir. Bildirilir ki, bölgədəki pirit yataqları hazırda dünyada ən yüksək qızıl konsentrasiyasına malikdir.

Alimlər qeyd edirlər ki, digər oxşar yataqlarla müqayisədə Hiqaşi-Aoqaşima kalderasının daha dayaz dərinlikdə yerləşməsi gələcəkdə kommersiya baxımından hasilatı daha əlverişli edə bilər.

Bununla belə, kəşf dərin dəniz mədənçiliyinin ətraf mühitə təsiri ilə bağlı müzakirələri yenidən gündəmə gətirib. Aktiv hidrotermal sahələr xərçəngkimilər, mərcanlar, süngərlər və müxtəlif balıq növləri üçün mühüm yaşayış mühiti hesab olunur.

Alimlər xəbərdarlıq edirlər ki, kommersiya məqsədli mədən işləri bu həssas ekosistemlərə ciddi zərər vura bilər.

Hazırda dünyada kommersiya məqsədilə fəaliyyət göstərən dərin dəniz qızıl mədənləri yoxdur. Buna baxmayaraq, Yaponiya ekoloji narahatlıqlara rəğmən, dərin dəniz yataqlarının araşdırılmasını davam etdirir.

## *Dünyanın “qara qutusu” üçün geri sayım başladı*



**Avstraliyanın Tazmaniya ştatında tikilməkdə olan ”Dünyanın qara qutusu” (Earth's Black Box) layihəsi iqlim dəyişikliyi qarşısında bəşəriyyətin atdığı hər addımı qeydə alacaq nəhəng bir məlumat arxivi olmağa hazırlaşır. Adalet.az xəbər verir ki, təxminən 16 metr uzunluğunda və 4 metr hündürlüyündə olacaq bu qurğu Tazmaniyanın qərbində, Kuinstaun yaxınlığında yerləşdiriləcək.**

Sistem öz enerjisini günəş panelləri vasitəsilə istehsal edəcək.

Qurğu atmosferdəki karbon qazı səviyyəsini, temperatur dəyişikliklərini, dəniz səviyyəsini, elmi məlumatları, xəbərləri və iqlim siyasəti ilə bağlı hadisələri davamlı olaraq depolayacaq.

Bu qeydlər gələcəkdə bəşəriyyətin iqlim böhranına necə reaksiya verdiyini göstərən daimi bir arxiv rolunu oynayacaq. Layihə gecikmədən sonra yenidən başlayır

İlk dəfə 2021-ci ildə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransında (COP26) elan edilən layihə, uzun müddət sükutla qarşılandığı üçün dayandırıldığı barədə şərhlərə səbəb olmuşdu.

Lakin layihəni hazırlayan komanda bildirib ki, bu müddət ərzində dizayn, məlumat saxlama infrastrukturuna və maliyyə modelinə yenidən baxılıb. Son açıqlamaya görə, polad konstruksiyanın montajı başlayıb və tikilinin bu ilin sonuna qədər Kuinstaun yaxınlığındakı əraziyə yerləşdirilməsi planlaşdırılır.

Sistem təkcə ətraf mühitlə bağlı ölçmələri deyil, həm də media xəbərlərini, elmi araşdırmaları, siyasi bəyanatları və ictimaiyyətin iqlim dəyişikliyinə verdiyi reaksiyaları da arxivləşdirəcək.

Layihəni hazırlayanlar bu qeydlərin gələcəkdə baş verə biləcək qlobal fəlakətlərin səbəblərini anlamağa kömək edəcəyini, eyni zamanda, bugünkü qərar qəbul edənlər üçün bir hesabatlılıq mexanizmi formalaşdıracağını hədəfləyirlər.



BAYAT

№ 88 (948)





Çingiz ƏLİOĞLU

# Üstəgəl ayrılıq, çıxaq məhəbbət

### Məhəbbət düsturu

Oxşardır sevginin tarixçələri...
Yatmışdıq yuxudan ayıldıq, əlbət!
Belədir bir eşqin nəticələri
Üstəgəl ayrılıq, çıxaq məhəbbət...

Heç kimə dərs deyil, olub-olacaq...
Həzz ilə zülm edir özünə millət.
Səndən gördüklərim bunlardır ancaq
Üstəgəl məşəqqət, çıxaq mərhəmət...

Hər şeydə günahkar tək məni saydın,
Biz necə olaydıq səninlə xoşbəxt?!
Cəbrinin cavabı öncədən aydın,
Üstəgəl haqsızlıq, çıxaq ədalət!!!

Nə günə qoyurdu məni o eşqin,
Hardandı səndəki bu kin,kidurət?!
Hasilə nə qaldı,indi bax sevin...
Üstəgəl miskinlik, çıxaq əzəmət...

Dedilər sınama,sınanan haqdı,
Əzilən adamdan umma dəyanət.
Gör gəlib axırı hayana çıxdı! -
Üstəgəl xəyanət,çıxaq sədaqət...

Mən ülfət ummadım,sən həsrət dedin...
Dözümə tapmadım özümdə qüdrət!
İndi bu qalığı haqq-hesab edin
Üstəgəl fəlakət, çıxaq səadət...

### Sənsizlik sürgündür

Mən içən şərabın adı ayrılıq,
Çəkdiyim siqaret həsrət adlanır.
İçmədim bayıldım, içdim ayıldım,
Sənsizlik sürgündür... hicrət adlanır.

Necə də tünd imiş hicran qəhvəsi,
Sinəmə çəkdiyim tüstü qaradır.
Ağzımdan burulub çıxan nəfəsim
Havada miraj bir obraz yaradır. -

Sənin xəyalındır ani, apaydın...
Daha yuxuda da məndən qaçırsan.
İşıqlı günümü özün qapadıb,
Zülmət gecələrə qapı açırsan.

Özümdən sürgünəm... deyir hal qanan,
Səbr elə əlacın səbrdir elə.
Daha hardan bilsin, halıma yanan,
Səbir də mənimçün Sibirdir elə...

***

Qayğılar bir ovuc düyü-çətənə,
Düşüb düyün-düyün bu tünük tənə.
Ha çözmək istədim düşdüm çətinə,
Diriltdi, dəbərtdi bu yazlar məni.

Bir xəfif titrəyiş, bir titrək hənir,
Anında tərpənir tənimdə sinir.
Ruhumda buz sınır, irmaqlar dinir,
Səsləyir, oyadır avazlar məni.

Dedim ta müdrikəm, ahılam daha,
Təpilim bir küncə, qaxılım daha.
Demə ki, dəliyəm, cahiləm daha,
Dərbədər eylədi bu qızlar məni...

### Unuda bilmirəm

Unuda bilmirəm, sevə bilmirəm,
Sənsiz darıxıram, sənlə tənhayam.
Belə anlaşılmaz, belə barışmaz,
Duyğular əlində qalıbdır yaxam.

Unuda bilmirəm, sevə bilmirəm,
Sizin qapınıza, sizin küçəyə,
Ayaq özü çəkir, gələ bilmirəm..
Bu niyə belədir, hələ bilmirəm.

Unuda bilmirəm, sevə bilmirəm,
Bu sirrin cavabını,çözə bilmrəm.
Yaş elə yaşdır ki,bu gizli dərdi
Bir kəsə danışa, bölə bilmirəm.

Unuda bilmirəm,sevə bilmirəm,
Ağlaya bilmirəm,gülə bilmirəm,
Bu sənli dünyada,sənsiz dünyada
Yaşaya bilmirəm,ölə bilmirəm.

***

Dünya, boyun bircə qarış...
Qarı dünya, qımış görüm.
Ürəyimdə yağ qalmamış,
Dünya, mənnən danış görüm.

Yolların yüyrəkdi sənin,
Yerişin küləkdi sənin.
Olanım - ürəkdi mənim,
Dünya, mənnən yarış görüm.

Niyə belə yaraqlısan,
Hansı fikir, soraqlısan,
Mən haqsızam, sən haqlısan,
Dünya, mənnən vuruş görüm.

A qırışmal, gidi dünya,
Neynədin igidi, dünya?
Mən bilmirəm, sən bilirsən...
Dünya, mənnən barış görüm.

### Mənim bu həyatla öz hesabım var

Mənim bu həyatla öz hesabım var,
Bilirəm pislik nə, yaxşılıq nədir?
Yaşamaq - kimçün oyun, əyləncə,
Mənimçün gündəlik mübarizədir.

Bilirəm dadını halal çörəyin,
Yerində deyilmiş ötkəm sözün də.
Xoşbəxtəm o vaxt ki, dosta gərəyəm,
Düz baxa bilirəm düşmən gözünə.

Bir ömür yaşaram - narahat, çətin.
Arxamca daş atan olsa da, nə qəm.
Nəsillər rahatca keçsinlər deyə
Atılan daşlardan bir yol döşərəm!

### Ən böyük sevgim

Sən məni heç zaman tərk etməmisən,
Mən səni hər zaman qoyub getmişəm.
Sən mənə heç zaman ərk etməmisən,
Hər uzaq səfərə yola salmısan.

Bütün gəmilərin vida fitini,
Son vağzal zəngini özün çalmısan.
Hansı dayanacaq, hansı perronda
Mən ensəm görmüşəm sən qarşımdasan.

Yaxın limanlardan yola ötürüb,
Uzaq körfəzlərdə qarşılamısan.
Qızmar səhralarda azıbdır izim,
Şimalda dizədək qar şumlamışam.

Mən hara baş vursam bu nəhəng şarda
Görmüşəm hər addım, hər qarışdasan
Ürəkli olmuşam sənə söykənib,
Duymuşam, tanrıtək kürəyimdəsən.

O qədər təbii sanmışam bunu,
Demişəm qanımda, ürəyimdəsən.
Bildinmi dünyanın harasındasan?!
Gah zülmət gecənin zil qarasından,

Gah sübhün nurundan mənə baxırsan.
Kitabı açıram arasındasan,
İçirəm, mey kimi qana axırsan
Zaman, axan nəhr, bərəçi mənəm,
Səndən sənə yolda bələdçi mənəm.

Havan avazımda, sədan ədamda,
Nə qədər oxşarlıq olar adamda?!
Hər azan sözünün, itən səsinin,
Heç dilə gəlməyən yeni kəlmənin
Ardınca iz tutan ləpirçi mənəm.
Yaşa, ANA DİLİM, zindanda hətta
Sənə zindan döyən dəmirçi mənəm!

***

Mən sözsüz şeirlər yazmaq istərəm,
Təkcə səslər olsun, kəlmələrsə yox.
Öz doğma dilimdən səda, nidalar,
Yabançı lisandan gəlmələrsə yox.

Qınayan olacaq, qoy olsun nolar,
Söyən də lap söysün, danlasın məni-
Hər kəsin öz haqqı, öz hüququ var,
Təki bir, ariflər anlasın məni.

Ən böyük mənalar səslər arası
İstərəm gizlənsin fasilələrdə.
Diqqətli oxucu fikir arasın
Misradan-misraya vəsilələrdə.

İlk sözdən öncəki azad mühitdə,
Hüdudsuz fəzada yaranıb şeir.
Sən dayan, sükuta bir qulaq kəsil,
Ən gözəl şeiri səssizlik deyir.

Ölçüdən öncəki ölçüsüzlükdə
Gizlənib poeziya röyalar kimi.
Çıxsan bu dünyanın cazibəsindən
Dinəcək ilahi dualar kimi...

***

Ha baxdım yayındı çox şey gözümdən,
Yetmədi zərrəcə dada zərrəbin.
Gah tapdım, gah qopdum özüm-özümdən
Qazanc bir olanda çəkdim zərər min.

Fələk tolazlasa qoşadır zəri,
Qoynunda zər-ziba bürünmüş pəri.
Buzladı alnımın peydərpey təri,
Dü-birdi mən atan eyzən zər, Rəbbim.

Nəzər cəlb eyləyən həzər nakəsdən,
Zər qədri bilməyən məzar nakəsdən.
Yüz zina nakəsdən, azar nakəsdən
Bir sığal ummadım, aldım zərbə min.

Nə savaş, nə cəngdir şair sənətim,
Mən zənlə hər kəsi qardaş zənn etdim.
Sevdalı qəlblərdir zəngin sərvətim,
Naxışı zinətdir zərgər zərbimin.

***

İlahi düzənlə yaranıb həyat...
Günəş gün yerində, Ay ay yerində.
Göylərdə gördüyün ulduzlu büsat
Saymaqla bitməz, ha say, say yerində.

Milyard səyyarəni demirəm hələm,
Elə hey fırlanıb-dolanır aləm.
Bir üzü güləşdir, bir üzü ələm,
Toy-bayram yerində, vay vay yerində.

Heyranam yaranış şəcərəsinə.
Məəttəl qalmışam macərasına.
Hərdən bir çıxsa da öz məcrasından
Dəniz öz yerində, çay çay yerində.

Nə qədər ki, vardı dizimdə taqət,
Cəzb etdi, özünə çəkdi təbiət.
Gör neçə din gördüm, neçə təriqət,
Yaxşı öz yerində, zay zay yerində.

Təbiət söylədim, qışı, yazı var,
Buna da ilahi, ali yazı var!
Qışda ki, istidir istək-arzular
Yetişib yer tutar yay yay yerində.

Sevdim torpağımın hər dörd fəslini,
Bu yurdun məskunu insan nəslini.
İstərdim ən çoxu yarın vəslini,
Mart-aprel bir ayrı, may may yerində.

Hər şey yerbəyerdir söylədik bir bax,
Dünəni dünəndir, sabahı sabah.
Bəs necə nızamdır, bu qadir Allah
Oturmaq bilməyir hay hay yerində.

Tökülən qan qalmaz yerdə heç zaman,
Analar döşündən halal süd əmən
İgidlər verməzlər yağıya aman,
Qalacaq leşləri lay-lay yerində.

...Şair, bu çabalar de, nə vəd edir?
Yazırsan, pozursan gör nə vədədir
İnsanlıq karvanı baş alıb gedir,
Gədəsi gədədir, bəy bəy yerində.

***

Ağaca ağız aç, əlac edəcək
Ağca çiçəyilə, alca gülüylə.
Çox da ki, sən onu sonra yandırıb
Oynarsan qaraca, bomboz külüylə.

Ağrı-acımızın canlı şahidi
Ağaca ağız aç, bir əlac tapar.
Yaşam savaşının dilsiz şəhidi
Əvəzsiz loğmandı, sən pənah apar.

Yanıb orman-orman... tükənmir bu cəng.
Eşidən olubmu giley səsini.
Ağaclar köklərlə sarınıb bərk-bərk,
Orbitdə saxlayır Yer kürəsini.

Köklər damar-damar, bax, sinir simi,
Bu tellər qucmayan səhralar kardır.
Səmada sayrışan bürc, ulduz kimi
Hər kəsin öz tale ağacı vardır.

Bədmüşk birinindir, üvəz birinin,
Bəxtə-bəxt qismətdir, şirin ya acı.
Ardıc birinindir, vələs birinin,
Birinin qisməti şeytan ağacı...

Nəfəsə pay verən yaşıl pinardı,
Hər ağac, hər kolla bağrıbadaşam.
Mənim öz ağacım dədə çinardı,
Nahaqmı çinarla yarıadaşam.

Qəsd edən qəsdində, bir bax, çaşıbdı,
Çaşdırıb bağrımdan ucalan ağac.
Mənimlə birənti cavanlaşıbdı,
Mənimlə bir yerdə qocalan ağac...

...O ki, nə çəkinir, nə də utanır,
Daş da yox, kəsəkdir köksündə ürək.
Baltanın sapını baltatutanın
Kəsib biləyindən yonasan gərək.

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 26 (2498) 17 iyul 2026-cı il

**Dünyanın elə bir yeri yoxdur ki, orda insanlar özlərini tamamilə xoşbəxt və rahat hiss etsinlər. Xoşbəxtlik və rahatlıq o vaxt yaşanır ki, sən öz yurdunda, öz yuvanda, öz ocağında ömür sürürsən. Ətrafındakı qohumlarına, əzizlərinə baxıb sevinirsən. Əlbəttə, bu sevinci yaşamaq və bu sevinci görmək heç də hər kəndə, hər elə, hər obaya qismət olmur. Amma neyləmək olar ki, yağı düşmən 1993-cü ilin avqustunda bütün qarabağlılar kimi, Cəbrayıl rayonunun Şükürbəyli kəndinin sakinlərini də pərən-pərən saldı. O sa-**məsin. İndiyə qədər yaxşı yadımdadır, Bəhmənlidən keçən yola atılan mərmi bizim kənddən çıxmaq istəyən bir ailənin maşınının yanına düşdü və İnqilab kişinin övladlarından biri həlak oldu. Gözü yaşlı və faciə içində o geri qayıdıb doğma balasını Bəhmənli qəbristanlığında dəfn elədi və sonradan ağlaya-ağlaya üzü Bakıya yol aldı

Heç şübhəsiz, həmin dərdin-ağrının içində bütün məcburi köçkün və qaçqınlar kimi Cəbrayıl rayonunun Şükürbəyli kəndinin sakinləri də nə az-nə çox, otuz ildən artıq əzablı günlər yaşadılar. O



# ŞÜKÜRBƏYLİ SAKİNLƏRİ DOĞMA YURDA QAYITDI



**kinlər ki doğma yurddan çıxanda heç nələrini götürə bilmədilər, ayaqyalın, başıaçıq canlarını güc-bəla ilə xilas etdilər. Hələ bəziləri də ermənilərin atdığı mərmidən, raketdən şəhid oldular.**

Heç şübhəsiz, bu anları yaşamaq, bu anları görmək çox ağır idi. Əgər göydən mərmi, raket yağırsa təbii ki, hamı öz canının hayında olur və o anları, o dəqiqələri görmək və yaşamaq sözün həqiqi mənasında çox ağır və çətindir. Çünki bir jurnalist olaraq 1993-cü il avqustun 23-də mənim özüm də Cəbrayıl və Füzuli istiqamətində idim. Ən azından həmin günlər mənim də doğmalarım öz yurd yerindən pərən-pərən düşmüşdü. Ata oğulun köməyinə çata bilmirdi, ana da övladının. O günlər gedib gələzablı günlərin içində ağrıacı ilə yanaşı, bir ayrılıq, bir həsrət, bir dərd də var idi. Həm Vətən dərdi, həm də başqa yerdə məskunlaşmış və elə də şəraiti olmayan insanların xəstələnərək, ya da fikir-zikirdən dünyasını dəyişməsi. Xüsusən də yaşlı nəsil bu ayrılığa dözə bilmirdi. Amma bir qaranlıq günün işıqlı bir sabahı da vardı. Və o işıqlı sabah 2020-ci ilin sentyabrın 27-də gəldi.

Ali Baş Komandan, prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ermənilərə qarşı əks-hücuma keçdi. Və 44 gündə ordumuz möhtəşəm bir qələbə qazandı və 200 ildən sonra Azərbaycan tarixində yeni bir qızıl səhifə yazıldı. Başqa sözlə demiş olsaq, erməni işğalı altında olan bütün ərazilərimiz - şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz hamısı azad olundu. Qısa bir zaman kəsiyində azad olunmuş rayonlarda çox möhtəşəm tikintilər, quruculuq işləri və böyük proqramlar həyata keçirilməyə başlandı. Artıq həmin ərazilərdə bütün infrastruktur yaradıldı, yeni yaşayış binaları tikildi, sosial obyektlər inşa olundu, məktəblər, xəstəxanalar, uşaq bağçaları istifadəyə verildi.

Aydındır ki, belə quruculuq işləri Cəbrayıl rayonunda da geniş vüsət aldı. Bir-birindən gözəl, möhtəşəm yaşayış binaları inşa olundu. Artıq bir ildən çoxdur ki, həmin yaşayış yerlərinə insanlar qayıtmağa başlayıblar.

Belə yeni salınmış yaşayış məntəqələrindən biri də Cəbrayılın Şükürbəyli kəndidir. O Şükürbəyli kəndi ki ermənilər orda daşı daş üstə qoymamışdılar, yandırdıqlarını yandırmışdılar, sökub apardıqlarını da daşıyıb dostlarına satmışdılar.

Mənim özüm 1991-92-ci illərdə dəfələrlə bu kənddə olmuşam və polis rəisi ilə bu kənddə olan döyüşlərdə iştirak etmişəm. Çox gözəl və möhtəşəm bir kənd idi. Daşı daş üstə qalmayan bu kənddə son bir neçə ildə qısa zaman kəsiyində çoxlu sayda yaşayış binaları, sosial obyektlər, məktəb, uşaq bağçası tikilərək istifadəyə verilib. Artıq Şükürbəyli sakinləri Böyük Qayıdış proqramına uyğun olaraq öz doğma ocaqlarına dönüblər. İndi burda 46 ailə və ümumilikdə 223 sakin yaşayır.

Onların sevincinə şərik olmaq üçün tanımadığım bir qapını döydüm. Dedim görək onu üzümüzə kim açacaq. Döydüyümüz qapını üzümüzə açdılar və bizi sevinclə qarşıladılar. Məlum oldu ki, bu evin sahibi Qurban Əhmədovdur. Qurban kişi diqqətlə mənə baxdı, dedi sizi hardasa görmüşəm. Elə onun da çöhrəsi mənə tanış gəldi. Qısa söhbətdən sonra biz bir-birimizlə tanış çıxdıq. O da aydın oldu ki, 1991-92-ci ildə mən bu kənddə olarkən polislərlə bir yerdə onunla çörək kəsmişik. Hər şeyi xırdalığına qədər danışdı, hətta döyüşən polislərin bir neçəsinin də adını çəkdi. Gördüm onların adını çəkəndə gözləri dolur. Sən demə, həmin polislərin üçü şəhid olubmuş, bir neçəsi isə yaralanıbmış. O, dərindən köks ötürdü və dedi ki, bax, biz o şəhidlərin hesabına gəlib burda məskunlaşmışıq, evimizə dönmüşük.

Şükür Allaha, mənə üçotaqlı mənzil veriblər. Oğlum və nəvələrimlə bir yaşayırıq. Hər səhər açılanda Allaha və prezidentimizə, şəhidlərimizə, qazilərimizə dua edirəm. Dua edirəm ki, ölmədim, bu günü də gördüm və öz Vətənimə qayıdıb yaşayıram. Bundan gözəl nə ola bilər? Buranın çox təmiz havası, suyu var. Torpağı da həddindən artıq bərəkətlidir, Gələn kimi beli götürüb beş-altı ağac əkdim, indi maşallah, yavaş-yavaş onlar böyüyürlər. Bir də görəcəksən ki, gələn il bar verdi.

**Qurban kişinin oğlu Cəfərlə də tanış oldum. Cəfər dedi ki, biz hamımız Şükürbəyli üçün darıxırdıq, amma dədəm hamımızdan çox darıxırdı. Deyirdi ki, qərib yerdə ölmək istəmirəm. Qaçqın qaldığımız mənzildə dədəm tez-tez xəstələnirdi, amma bura gələndən bir gün də naxoşlamır. Səhər saat beşdən yuxudan qalxır, həyətə düşür və həyət-bacada əkdiyi ağaclara, güllərə-çiçəklərə su verir. Biz indi hamımız çox xoşbəxtik. Ən azından ona görə ki, özümüzün qəşəng ev-eşiyimiz, rahat həyət-bacamız var, bundan gözəl nə ola bilər? Neçə qonaq gəlsə qarşılaya bilərik. Bir daha bu günü bizə qismət edən Cənab Prezidentimizə və Ordumuza minnətdarıq. İndi biz özümüzü burda çox xoşbəxt, daha rahat hiss edirik!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Türkiyənin sualtı dünyasına səyahət: Ən yaxşı dalğıc məkanları

**Yay istirahəti artıq təkcə günəş, dəniz və çimərlikdən ibarət deyil. Müasir səyahətçilər getdikcə daha çox kəşf və macəra dolu təcrübələrə üstünlük verir, bu maraq isə sualtı dünyaya olan diqqəti də artırır. Son Diving Tourism Market Analysis hesabatına görə, macəra turizminə üstünlük verən səyahətçilərin 65 faizindən çoxu akvalanq dalışı da daxil olmaqla müxtəlif su əsaslı fəaliyyətləri seçir.**

Şərqlə Qərbin qovşağında yerləşən və üç tərəfdən təmiz və şəffaf dənizlərlə əhatə olunan Türkiyə Aralıq və Egey dənizlərinin ən zəngin dalğıc məkanlarından biridir. Ölkə həm yeni başlayanlar, həm də peşəkar dalğıclar üçün unudulmaz sualtı macəralar təqdim edir.

Uzun dalğıc mövsümü, bir-birindən fərqli dalış nöqtələri və zəngin sualtı ekosistemi ilə Türkiyə dalğıc turizminə fərqli baxış gətirir. Burada rəngarəng dəniz canlıları ilə tanış olmaq, tarixin izlərini daşıyan gəmi qalıqlarını araşdırmaq, sirli mağara və kanyonlara dalmaq, dik sualtı qayalıqlar boyunca divar dalışı etmək, hətta gecə dalışının həyəcanını yaşamaq mümkündür.

Türkiyənin dalğıc təcrübəsini xüsusi edən üstünlüklərdən biri də peşəkar dalğıc mərkəzlərinin geniş şəbəkəsi və beynəlxalq standartlara uyğun təlim proqramlarıdır. Təcrübəli mütəxəssislərin rəhbərliyi ilə təşkil olunan kurslar sayəsində hər səviyyədən olan dalğıclar bu möhtəşəm sualtı aləmi təhlükəsiz və komfortlu şəkildə kəşf edə bilirlər.

Türkiyədə dalğıc turizmi dedikdə ilk ağıla gələn ünvanlardan biri Türk Rivyerasının incisi olan Antalyadır. Ölkənin ən məşhur sualtı marşrutlarına ev sahibliyi edən Antalya, xüsusilə Kaş bölgəsi ilə dünya dalğıc həvəskarlarının diqqət mərkəzindədir. Dünyanın ən yaxşı on dalğıc məkanından biri hesab edilən Kaş, Kalkan və Kemerə qədər uzanan sahil xətti boyunca büllur kimi təmiz suları, yüksək görünmə məsafəsi və zəngin sualtı ekosistemi ilə seçilir.

Bu sularda sini çanaqlı tısbağalar (Caretta caretta tısbağaları), qara qrup balıqları, Aralıq dənizi suitiləri və geniş dəniz çəmənlikləri öz təbii yaşayış mühitini qoruyub saxlayır. Kaş eyni zamanda Türkiyənin sualtı arxeologiyası üzrə aparıcı mərkəzlərindən biridir. Besmi adası ətrafında qədim amforalar, lövbərlər və iri saxlama küpləri (pitoslar) dalğıcları minilliklər öncəyə aparan tarixi izlərlə tanış edir.

Bölgənin ən maraqlı dalğıc nöqtələrindən biri də süni rif yaradılması məqsədilə suya batırılmış Dakota təyyarə qalıqlarıdır. Zamanla açıq rəngli yosunlarla örtülən bu məkan xüsusilə sualtı fotoqrafların sevimli ünvanına çevrilib. Kaşın digər məşhur dalğıc nöqtəsi olan Kanyon isə tunel formalı mağarası, zəngin dəniz canlıları və dərinliklərində yerləşən tarixi Dimitri gəmi qalıqları ilə fərqlənir.



Antalyanın şərqində yerləşən Alanya da ölkənin ən cəlbedici dalğıc istiqamətlərindən biri hesab olunur. İdman turizminin aparıcı mərkəzlərindən olan şəhər, həm yeni başlayanlar, həm də peşəkar dalğıclar üçün müxtəlif səviyyəli dalış nöqtələri təqdim edir. Qədim amfora qalıqlarının aşkar edildiyi Akvaryum və Amfora dalğıc sahələri, eləcə də möhtəşəm sualtı boşluqları ilə seçilən Quldur (Korsan) mağarası və Aşiqlər mağarası Alanyada sualtı kəşflər üçün ən maraqlı məkanlar sırasında yer alır.

Antalyanın valehedici sualtı dünyasından sonra Egey sahilləri dalğıc həvəskarlarını bir-birindən fərqli və zəngin marşrutlarla qarşılayır. Şimaldan cənuba qədər uzanan bu bölgə saysız-hesabsız dalğıc nöqtələri ilə seçilir. Xüsusilə Muğla vilayəti Marmaris, Fethiye, Datça və Bodrumun büllur kimi təmiz suları, sakit körfəzləri və yüksək görünmə məsafəsi sayəsində Türkiyənin ən məşhur dalğıc istiqamətlərindən biri hesab olunur.

Türkiyənin lüks turizm mərkəzləri arasında xüsusi yer tutan Bodrum dalğıc turizmi sahəsində də ön sıralardadır. Bölgə Orak adası, Delikli mağarası, Poyraz körfəzi, eləcə də məşhur Böyük Rif və Kiçik Rif kimi müxtəlif dalğıc məkanları ilə fərqlənir. Bodrum ilə Qaraada arasında yerləşən bu riflər zəngin dəniz canlıları, yüksək sualtı görünmə məsafəsi və həm təcrübəli, həm də ilk dəfə dalış edənlər üçün uyğun marşrutları ilə tanınır.

Bodrumdan kənarda da Egey sahilləri unudulmaz sualtı macəraları təqdim edir. Aydının Kuşadası bölgəsində dalğıclar Türkiyənin ən fərqli süni riflərindən biri sayılan, dənizin dibinə yerləşdirilmiş A300 Airbus təyyarəsini kəşf edə bilərlər.

İzmirin məşhur kurort şəhəri Çeşmə isə özünəməxsus dalğıc məkanları ilə seçilir. Burada yerləşən möhtəşəm Yataq Otağı mağarası, yeni başlayanlar üçün ideal olan Fənər adası, eləcə də Eşşək adasındakı Yarıq Kaya (Ayrıktaş) dalğıc nöqtəsi daha çətin marşrutlar axtaran peşəkar dalğıcların ən çox üz tutduğu məkanlar sırasında yer alır.

Egey sahillərinin daha şimalında yerləşən Çanaqqala dalğıc həvəskarlarını tarix və təbiətin qovuşduğu bənzərsiz sualtı dünyası ilə qarşılayır. Mərmərə dənizi ilə Egey dənizini birləşdirən möhtəşəm boğaza ev sahibliyi edən bölgə Saros körfəzindən Gelibolu yarımadasına qədər uzanan zəngin dalğıc marşrutları ilə seçilir.

Özünü təbii şəkildə yeniləyən güclü axınlar sayəsində Saros körfəzi ilboyu büllur kimi təmiz sularını qoruyur. Bu xüsusiyyət dalğıclara həm yüksək görünmə məsafəsi, həm də zəngin dəniz canlıları ilə dolu sualtı aləmi yaxından kəşf etmək imkanı yaradır.

Birinci Dünya müharibəsinin ən mühüm döyüşlərindən biri olan Çanaqqala (Gelibolu) əməliyyatlarının baş verdiyi bu bölgə tarix həvəskarları üçün də əsl açıq hava muzeyidir. UNESCO-nun Ümumdünya İrsinin İlkin Siyahısına daxil edilmiş Gelibolu Tarixi Yarımadası dünyanın Birinci Dünya müharibəsindən ən yaxşı qorunub saxlanılmış döyüş meydanlarından biri hesab olunur.

**Yarımadada yerləşən 17 fərqli dalğıc nöqtəsində SS Milo, Lundy və HMS Louis kimi tarixi gəmi qalıqları dalğıclara Birinci Dünya müharibəsinin ən çətin cəbhələrindən birinin izlərini dənizin dərinliklərində kəşf etmək imkanı təqdim edir. Tarix və dalğıc macərasını bir araya gətirən bu marşrut Çanaqqalanı Türkiyənin ən təsirli sualtı istiqamətlərindən birinə çevirir.**

# Azərbaycan Kinematoqrafçılar İttifaqında "Torpağı sanı yaşayasan" filmi nümayiş olunub

**Azərbaycan Kinematoqrafçılar İttifaqında rejissor Samir Kərimoğlunun ”Torpağı sanı yaşayasan” adlı qısametrajlı bədii filminin nümayişi keçirilib.**

İttifaqdan bildirilib ki, nümayişdən sonra filmin yaradıcı heyəti - rejissor Samir Kərimoğlu, operator İman İmanov, quruluşçu rəssam Səbuhi Atababayev və baş rolun ifaçısı Ramail Bayram moderatorun və tamaşaçıların suallarını cavablandırıblar.

Samir Kərimoğlu filmin yaranma tarixçəsindən, ideyanın formalaşmasından, aktyor seçimi prosesindən və ekran əsərinin vizual həlli ilə bağlı yaradıcı yanaşmadan danışıb. Quruluşçu rəssam Səbuhi Atababayev dekorasiyaların hazırlanması, detallara yanaşma, mistik janrın estetik imkanları və bu üslubun müharibə mövzusu ilə vəhdəti barədə fikirlərini bölüşüb. Operator İman İmanov filmdə atmosferin yaradılmasında operator işinin, xüsusilə işıq və kadr həllinin rolundan bəhs edib. Ramail Bayram isə obraza hazırlıq prosesi, qəhrəmanın psixoloji xüsusiyyətlərinin açılması və rejissorla yaradıcılıq əməkdaşlığı haqqında danışıb.

Qeyd edək ki, mistik janrda çəkilən ”Torpağı sanı yaşayasan” filmi Birinci Qarabağ müharibəsi zamanı tibb işçisi Kamilin komandirini xilas etməsi və bu hadisənin 30 il sonra müasir dövrlə mistik əlaqə yaratması üzərində qurulan süjetdən bəhs edir. Film Azərbaycan Respublikasının Kino Agentliyinin (ARKA) maliyyə dəstəyi ilə "Mozg Media Group" tərəfindən istehsal olunub. Ekran əsərinin prodüseri Zaur Mirzəzadədir.

Samir Kərimoğlu ”Qanadlarıma sığal çək”, ”Sirat körpüsü”, ”Niyyət”, ”Xoxan”, ”Mən evə qayıdıram” və digər filmlərin rejissorudur. Hazırda o, ARKA-nın maliyyə dəstəyi ilə ərsəyə gələn ”Sözün varsa, de” tammetrajlı bədii filmi üzərində çalışır.

## Xalq artisti: “Heç kəsin davamçısı kimi sənətə gəlməmişəm”



**Xalq artisti Faiq Ağayev uzun zamandan sonra açıqlaması ilə diqqət çəkib.**

Adalet.az bildirir ki, o özünü bənzərsiz sənətkar adlandırıb:

”Mən heç kəsin davamçısı kimi səhnəyə gəlməmişəm.Bu səbəbdən mənim də davamçım kimi heç kəs sənətə gəlməyəcək. Özüməməxsus üslubumla seçilmişəm. Tamaşaçı sevgisi qazanmışam. Ancaq istedadlı gənclər var ki, böyük tamaşaçı sevgisi qazanmaq istəyirlər. Zamanla əldə edəcəklər.

İdeallı olmaq xanım üçün rahatdır, amma bəylər üçün bu heç də asan deyil”.

## Bəturə Hüseynova: “Bunun günahkarı mən deyiləm”



**Bəturə Hüseynova illər əvvəl sənətdə yaşadığı küsgünlüyündən danışıb.**

Adalet.az bildirir ki, o, illər əvvəl bir neçə ali məktəbə baş vursa da, heç bir müsbət nəticə ilə qarşılaşmadığını söyləyib:

”Zamanında çox gözəl işlərə imza atmışam. Mən muğam ifaçısıyam. Muğam oxumaq üçün səsim buna imkan verir. Ancaq uzun illərdir muğam oxumadım. Uzaqlaşdım. Bu sənətdə küsgünlüyüm çox oldu. İllər əvvəl bir neçə ali məktəbə müəllim kimi üz tutdum. Ancaq müsbət cavab almadım. Bu məni çox ruhdan saldı. Axı istedadlara yol açmaq lazımdır. Əlbəttə, uzun illər muğamla məşğul olmamağım , bu sahədən uzaqlaşmağım məni bir çox nailiyyətlərdən məhrum etdi. Ancaq bunun günahkarı mən deyiləm. Mən çox cəhdlər etdim, ancaq geri çevrildim”.

**Əntiqə**

## FİFA DÇ-2026-nın finalında fasiləni uzatmağı planlaşdırır



**FİFA DÇ-2026-nın final matçında ilk və ikinci hissələr arasındakı fasiləni uzatmağı nəzərdən keçirir.**

Qol.az xəbər verir ki, bu barədə "The Athletic" nəşri məlumat yayıb. Bildirilir ki, buna səbəb fasilə zamanı keçiriləcək musiqi şousudur. ”MetLife” stadionunun meydanında təşkil olunacaq proqramda Castin Biber, Şakira, BTS, Madonna, Burna Boy, venesuelalı dirijor Qustavo Dudamel və PS22 xoru çıxış edəcəklər. Şounun keçirilməsi üçün təşkilatçılar fasilə ərzində səhnəni quraşdırmalı və daha sonra sökməlidirlər. Bu səbəbdən FİFA fasilənin müddətini artırmağı planlaşdırır. Bununla yanaşı, qurum ümumi fasilənin 20 dəqiqəni keçməməsinə çalışır.

Qeyd edək ki, FİFA daha əvvəl çıxışın 11 dəqiqə davam edəcəyini açıqlamış və onu idman, musiqi və qlobal mədəniyyətin qovuşduğu möhtəşəm bayram adlandırmışdı.

## Dünya çempionatları tarixinə düşdü



**İspaniya millisinin müdafiəçisi Emerik Laport dünya çempionatları tarixinə düşüb.**

QOL.az xəbər verir ki, ”sportingnews” nəşrinin məlumatına görə, 31 yaşlı futbolçu DÇ tarixində doğulduğu ölkəni yarımfinalda məğlub edən ilk oyunçu olub. Laport Fransada anadan olub və bu ölkənin aşağı yaş qrupları üzrə yığmalarında 50-dən çox oyun keçirib. Lakin baş məşqçi Didye Deşamın rəhbərliyi altında Fransa millisində debüt etmək imkanı qazanmayıb. Daha sonra yeniyetmə yaşlarında İspaniyanın ”Atletik” (Bilbao) klubuna keçən müdafiəçi 2021-ci ildə İspaniya vətəndaşlığı alaraq bu ölkənin millisində çıxış etməyə başlayıb.

Qeyd edək ki, İspaniya millisi DÇ-2026-nın yarımfinalında Fransaya 2:0 hesabı ilə qalib gələrək finala yüksəlib.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 286
Çapa imzalanmışdır: 16.07.2026